**BAĞIROV ADİL NƏSİB OĞLU**
AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru

**Monoqrafiya Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunur**

# NAXÇIVANIN URBANONİMLƏRİ

Bakı - 2014

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 01 may 2014-cü il tarixli 9/2 № li qərarı (protokol № 9) ilə çapa tövsiyə olunmuşdur.

**Elmi redaktor:** **İsmayıl Hacıyev**
AMEA-nın həqiqi üzvü

**Rəyçilər:** **Əbülfəz Quliyev**
AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor

**Roza Eyvazova**
Filologiya elmləri doktoru, professor

**Bağırov Adil Nəsib oğlu.** Naxçıvanın urbanonimləri. Bakı, ADPU-nun nəşri, 2014, 172 s.

Elmi ictimaiyyətə təqdim olunan monoqrafiya mövzu baxımından tam yeni və aktual bir əsərdir. Əsərdə Naxçıvanın şəhər, qəsəbə və kəndlərində qeydə alınmış qədim və müasir məhəllə, meydan, prospekt və küçə adları ilk dəfə olaraq bütövlükdə elmi-linqvistik tədqiqata cəlb olunmuş, kənd mərkəz adları urbanonimlərin tərkib hissəsi kimi təqdim edilmişdir.

Kitab ali məktəb müəllimləri, magistrlər, tələbələr, gələcək tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$\copyright \dfrac{19475183216}{1958(Ə)212004} - 2014$ © A.N.Bağırov

# GİRİŞ

Azərbaycan toponimlər sisteminin tərkib hissələrindən birini topoqrafik obyekt adları - urbanonimlər təşkil edir. Urbanonim latınca urbanus - "şəhərli, şəhər sakini", onim - "ad" sözlərinin birləşməsindən əmələ gəlib, şəhərdaxili topoqrafik obyektlərin - məhəllə, meydan, prospekt, küçə, döngə və s. xüsusi adlarını bildirir və obyekt növlərinə görə müxtəlif qruplara bölünürərək ayrı-ayrı terminlərlə adlandırılır. Məsələn, meydan və bazar adları *aqoronim,* prospekt, küçə, döngə, bulvar adları *hadonim,* mərasimlərin, adət-ənənələrin həyata keçirildiyi yerlərin adı, o cümlədən məscid, müqəddəs sayılan daş, bulaq, ağac adları *ekklezionim,* bina, tikili adı *oykodomonim* terminləri ilə təqdim olunur.

Göründüyü kimi, mənbələrdə urbanonimlər ancaq şəhər onomastikası üçün xarakterik sayılmış, onomastik lüğətlərdə "şəhərin topoqrafik adları" kimi mənalandırılmışdır (28, s.574; 20, s. 290). Bu da onunla əlaqədardır ki, hamam, bağ, park və karvansaralar tarixən, ancaq şəhərlər üçün xarakterik olduğuna görə elmi-nəzəri ədəbiyyatda da şəhərin topoqrafik obyektləri hesab olunmuşdur. Ancaq məsələyə bu mövqedən yanaşdıqda kənd yaşayış məntəqələrinin topoqrafik obyekt adları dilçilikdə öz yerini tapa bilmir, onomastik leksikadan, eləcə də tədqiqatdan kənarda qalır. Belə adları ayrı-ayrı qruplara da ayırmaq olmaz. Çünki şəhər və kənd yaşayış məntəqələrindən asılı olmayaraq, topoqrafik obyekt adları eyni xarakterik xüsusiyyətlərə malikdir. Bu onomastik vahidləri "kənd onomastikası" və ya "şəhər onomastikası"na ayırmaq, yaxud bir qismini kənarda qoymaq və ya başqa terminlə adlandırmaq elmi nöqteyi nəzərdən də düzgün deyil. Bu cür xüsusi adlar bütün yaşayış məntəqələrinin (şəhər, qəsəbə və kəndlər) onomastikasına aiddir. Həmin vahidlər sırasına yaşayış məntəqələrinin topoqrafik obyektlərinə məxsus xarakterik xüsusiyyətləri özündə əks etdirən

yeni yaranmış kənd mərkəzi adlarının da daxil edilməsi əsas şərtlərdən biridir.

Urbanonimlər yaşayış məntəqələrinə daxil olan onomastik vahidlərin ayrıca bir layı, şəhərin və kəndin inkişafını təsdiqləyən, plan və relyef quruluşunu əks etdirən tarixi abidələrdir. Bu abidələr yaşayış məntəqəsinin simasını formalaşdıran, xalqın etnogenezi, etnoqrafiyası, ərazinin relyefi, fiziki-coğrafi xüsusiyyətləri, ictimai-siyasi və əlamətdar hadisələri, mədəni və mənəvi həyatı haqqında qiymətli məlumat verən onomastik vahidlərdir. Məlumdur ki, xalqımız çoxəsrlik tarixi dövründə hər bir şəhər və kənddə xeyli bina, qala, hamam, bazar, dükan inşa etmiş, məhəllə, küçə və meydanlara xalqın təfəkkür dünyası, düşüncə tərzi, peşə, sənət və məşğuliyyəti ilə bağlı adlar vermişdir. Bu adlar minilliklər dövründə cəmiyyətin sosial-iqtisadi inkişaf prosesində əmələ gəlmiş, şəhərsalma mədəniyyəti ilə bağlı yaranmışdır. Odur ki, urbanonimlər çox mühüm mədəni-tarixi informasiya yükünə malikdir. Bu adları öyrəndikcə bu daha əmin olursan ki, bu ərazilər, bu şəhərlər və kəndlər qədimdən Azərbaycan türklərinə, bölgənin köklü, aborigen əhalisinə məxsus olmuşdur. Bunu topoqrafik adların tarixən Azərbaycan (türk) mənşəli söz və söz birləşmələrindən ibarət olması da təsdiqləyir.

Azərbaycan dilində urbanonimlər indiyə qədər bütün növləri üzrə sistemli şəkildə tədqiq olunmamışdır. Məlumdur ki, urbanonimlərin əmələ gəlməsi həm tarixi, həm də linqvistik faktlarla bağlıdır. Bu adların tədqiqi ümumilikdə dilin onomastik sisteminin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Odur ki, Azərbaycanın hər bir bölgəsində bu tip coğrafi adların yaranma tarixi, struktur əlamətləri, dil tərkibi, leksik-semantik və qrammatik xüsusiyyətlərini elmi şəkildə öyrənmədən ümumi onomastikamızda tədqiqini gözləyən məsələləri həll etmək olmaz. Buna görə regionlar üzrə urbanonimləri toplayıb elmi-linqvistik baxımdan tədqiq etmək, onların spesifik xüsusiyyət-

lərini öyrənmək dilçiliyin başlıca vəzifələri sırasına daxildir. Onu da qeyd edək ki, son zamanlar respublikamızda salınan yeni şəhər və kəndlərin plan quruluşu, sosial-iqtisadi inkişafı yeni topoqrafik adların yaradılmasına səbəb olmuşdur. Həmin adların da tədqiqata daxil edilməsi işin aktuallığını artıran məsələlərdən biridir. Bu məsələ birbaşa dil mədəniyyəti problemi ilə bağlıdır.

Tədqiqat sübut edir ki, müasir dövrdə xalqımızın üzləşdiyi ictimai-siyasi hadisələrlə əlaqədar onomastik problemlərin regionlar üzrə tədqiqi, azərbaycançılıq ideologiyası baxımından öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası ərazisindəki urbanonimlər də tarixin yaddaşı, milli mənəvi mədəniyyətimizin tərkib hissələrindən biri kimi diqqəti cəlb edir. Naxçıvanda hər bir tarixi ad xalqın milli ruhundan, milli-mənəvi təfəkküründən xəbər verir. Ancaq indiyə qədər Naxçıvanın urbanonimlər sisteminin bütövlükdə öyrənilməsi qarşıya məqsəd qoyulmadığından ümumi onomastikamızda bu sahədə bir boşluq özünü göstərməkdədir. Bunun da əsas səbəblərindən biri XX əsrin 30-cu illərinə qədərki arxiv sənədləri və digər materialların əski əlifbada olması, mütəxəssislərin bu mövzuya müraciət etməməsi, yaxud urbanonimlərin tədqiqatdan kənarda qalması olmuşdur.

Tədqiqat sübut edir ki, qədim və zəngin tarixə malik urbanonimlər forma və məzmununa görə bir sıra xarakterik xüsusiyyətlərə malikdir:

a) Urbanonimlərin bir qismi lap qədimdən mövcud olmuş, bəziləri isə son zamanlarda yaranmışdır. Bunu nəzərə alaraq Azərbaycan dilindəki urbanonimləri qədim urbanonimlər (*Qaziyi-cahan məhəlləsi, Künbəz məhəlləsi, Pirxamuş məhəlləsi, Qurdlar məhəlləsi, Sarvanlar məhəlləsi, Mingis məhəlləsi, Ambaras məhəlləsi* və s.) və müasir urbanonimlər (*Əlincə məhəlləsi, Babək məhəlləsi, Xətai məhəlləsi, Çənlibel məhəl-*

*ləsi, Məmməd Araz küçəsi, Məmməd Cəfər küçəsi, Mustafa Topçubaşov küçəsi* və s.) adı altında iki qrupa ayırmaq olar. Bu adların bir qisminin mənşəyi tarixi adlarla bağlı olsa da, məhəllə və küçə adları kimi son zamanlara aiddir;

b) urbanonimlər iki vəzifəni yerinə yetirir. Birincisi, bu və ya başqa məhəlləni, küçəni başqalarından fərqləndirir, ikincisi qədim tayfa, nəsil, tirə, şəxs adını, ictimai-siyasi, əlamətdar hadisələri və s. mühafizə edib saxlayır;

c) urbanonimlərin bir qismi tayfa, nəsil, tirə adlarına məhəllə, prospekt, küçə, döngə, dalan kimi topoformantlarının artırılması yolu ilə yaranır və "etnonim+ topoformant" modelində olur. Məsələn: *Ağabəylilər məhəlləsi, Atabəylər məhəlləsi, Bəydili məhəlləsi, Bayat məhəlləsi, Billici məhəlləsi və s.*

ç) urbanonimlərin bir qismi şəxs adına məhəllə, prospekt, küçə, döngə kimi topoformantların artırılması yolu ilə yaranır və "şəxs adı+topoformant", "şəxs adı+familiya+topoformant", yaxud "təxəllüs+topoformant" modellərində olur. Belə adlar memorial funksiya daşıyaraq, tarixi şəxsiyyətlərin, milli qəhrəmanların, elm, ədəbiyyat, incəsənət xadimlərinin adlarını əbədiləşdirir. Bu zaman şəxs adı, familiya və topoformantla birlikdə işlənir. Məsələn: *Heydər Əliyev prospekti, Zərifə Əiyeva küçəsi, Əziz Əliyev küçəsi, Behbud ağa Şahtaxtinski küçəsi, Cəlil Məmmədquluzadə küçəsi, Həzi Aslanov küçəsi, Abbas Zamanov küçəsi* və s.

d) urbanonimlərin əmələ gəlməsində bir onomastik vahiddən digər onomastik vahidə keçmə prosesi baş verir. Məsələn, Bayatlar (etnonim) - *Bayatlar məhəlləsi* (urbanonim), Dəvəlilər (etnonim) - *Dəvəlilər məhəlləsi* (urbanonim), Kəngərlilər (etnonim) - *Kəngərli küçəsi* (urbanonim), Hüseyn Cavid (antroponim) - *Hüseyn Cavid küçəsi* (urbanonim), Əliqulu Qəmküsar (antroponim) - *Əliqulu Qəmküsar küçəsi* (urbanonim), Məmməd Araz (antroponim) - *Məmməd Araz küçəsi* (urbanonim) və s.

e) urbanonimlər aid olduğu dövrün dil xüsusiyyətlərini; aid olduğu şəhərin və ya kəndin tarixini, spesifik xüsusiyyətlərini, yerli şəraitini, mədəniyyətini, adət-ənənəsini, məişətini, əhalinin peşə və məşğuliyyət sahələrini əks etdirir;

ə) digər onomastik vahidlərdən fərqli olaraq urbanonimlərin bir qisminin əmələ gəlmə, yaranma tarixi, adın verilmə səbəbi və mənşəyi aydın və şəffaf olur. Yəni bu adlar müəyyən münasibətlə verilir və rəsmi şəkildə sənədləşdirilir;

f) urbanonimlərdən folklor nümunələri və bədii əsərlərdə istifadə edilir, bu adlar şeirdə bədii fikrin poetik ifadəsinə çevrilə bilir. Məsələn: "Puşkin küçəsi"ylə Tatyana gedir//Sağında, solunda ayna səkilər// "Vurğun küçəsi"ni Humay seyr edir// Gülür gözlərində qızıl bir səhər (İslam Səfərli) və s.

Urbanonimlər maraqlı dil hadisələrini özündə əks etdirir, leksik, semantik və qrammatik cəhətdən zəngin xüsusiyyətləri ilə diqqəti cəlb edir, söz tərkibinə görə müxtəlif söz birləşmələri modelində olur. Məsələn:

Birinci növ ismi söz birləşməsi modelində olanlar: *Aşağı məhəllə, Yuxarı məhəllə, Çuxur məhəllə, Meydan məhəllə, Dəlmə məhəllə və s.*

İkinci növ ismi söz birləşməsi modelində olanlar: *Əlincə məhəlləsi, Babək məhəlləsi, Anbar məhəlləsi, Ambaras məhəlləsi, Dabbaqxana məhəlləsi, Dəvəlilər məhəlləsi, Zərifə Əliyeva küçəsi, Əziz Əliyev küçəsi, Nizami küçəsi və s.*

Elmi ictimaiyyətə və geniş oxucu kütləsinə ünvanladığımız monoqrafiya 1590-cı ildən bu günə qədər Naxçıvan ərazisindəki topoqrafik obyekt adlarının ümumi mənzərəsini işıqlandırmaq baxımından tam yeni və aktual bir əsərdir. Əsərin əsas məqsədi və vəzifəsi Azərbaycan toponimlər sisteminin Naxçıvan qolunun zənginliyi, inkişaf və spesifik xüsusiyyətlərinə dair informatik məlumatı genişləndirmək; dilçilikdə urbanonimlərin mövqeyini müəyyənləşdirmək; bu adların tarixi əhəmiyyətini, işlənmə dərəcəsini, gündəlik həyatdakı istifadə-

sini aydınlaşdırmaq; leksik, semantik və qrammatik xüsusiyyətlərini elmi-linqvistik süzgəcdən keçirmək; onların əmələgəlmə yaranma yolu, struktur quruluşu və s. haqqında bilgini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir.

Bu məqsədlə qarşıya qoyulan problemin həlli üçün 30 ildən artıq bir dövrdə Naxçıvan, Ordubad, Culfa, Şahbuz, Şərur şəhərləri, Babək, Qıvraq və Heydərabad qəsəbələri, eləcə də kənd yaşayış məntəqələrində aparılan çöl ekspedisiyaları zamanı xalq içərisindən toplanılmış dil materiallarına, müxtəlif arxiv sənədləri, mənbə və qaynaqlara, diplomat və səyyahların yol qeydlərinə, tarixi, coğrafi, elmi, elmi-kütləvi ədəbiyyatlara, mətbuat səhifələrinə istinad edilmiş, bu sahədə deyilmiş fikirlər ümumiləşdirilmiş, urbanonimlər yeni fakt və arqumentlər əsasında zənginləşdirilmiş, ayrı-ayrı növləri üzrə qrüplaşdırılmış və dilçiliyin son nailiyyətləri baxımdan öyrənilmişdir. Əsərdə dilçiliyin tarixi-müqayisəli, sistemli-təhlil metodlarından istifadə edilməklə xalqımızın ictimai-siyasi, sosial-iqtisadi həyatı, bölgədə mədəniyyət, ticarət və sənətkarlığın inkişafı ilə bağlı informatik məlumatlar elmi ictimaiyyətə təqdim olunmuşdur.

Əsərdə ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası üçün xarakterik olan kənd mərkəzlərinin adları da urbanonimlərin tərkib hissəsi kimi qəbul olunmuş, bu adların linqvistik xüsusiyyətləri, forma və məzmunu tədqiqata cəlb edilmişdir

Monoqrafiyanın böyük elmi və təcrübi əhəmiyyəti vardır. Əsərdən dilimizin onomastik sistemi ilə bağlı dərslik, dərs vəsaiti, lüğət və toponimik ensiklopediyaların yazılması, elmi mühazirələrin hazırlanması, şəhər və kənd mədəniyyətlərinin öyrənilməsində zəngin baza kimi istifadə etmək olar. Ümid edirik ki, monoqrafiya dilçi alimlərin, gələcək tədqiqatçıların, bu sahə ilə maraqlanan geniş oxucu kütləsü üçün əsas mənbələrdən biri ola bilər.

## Urbanonimlərin tədqiqi haqqında

Azərbaycan onomastikasının sistemli şəkildə öyrənilməsinə XX əsrin ikinci yarısından başlanılsa da, urbanonimlərin tədqiqi diqqətdən kənarda qalmış, indiyə qədər bu mövzuya çox az toxunulmuşdur. Ona görə də bu adların öyrənilməsi üçün ədəbiyyat materialları da azdır. Mövcud ədəbiyyatlarda isə ancaq Bakı və Naxçıvan şəhərlərinin topoqrafik obyekt adları haqqında az da olsa danışılmışdır. Məsələn, Bakı şəhərinin topoqrafik obyekt adları 1999-cu ildə nəşr olunan "Bakı şəhərinin toponimik kitabı"nda ümumiləşdirilmiş, şəhər və ətraf kəndlərin coğrafi adları sistemləşdirilmiş, bu haqda geniş məlumat verilmişdir (12).

T.Səlimov-Şağani uzun illər apardığı tədqiqatı 1993-cü ildə nəşr etdirdiyi "Abşeronun yer adları" adlı kitabında tarixi-filoloji baxımdan təhlil etmişdir. Müəllif Biləcəri, Binəqədi, Balaxanı, Əmircan, Buzovna, Türkan, Mərdəkan və digər yaşayış məntəqələrində qeydə aldığı məhəllə və nəsil adlarının mənşəcə bağlılığını tarixi-etnoqrafik planda araşdırmış, bu adların tarixilik baxımından tədqiqini zəruri hesab etmişdir (40, s. 51-55).

Azərbaycan toponimlərinin öyrənilməsi sahəsində sanballı elmi tədqiqat əsərlərinin müəllifi olan R.Eyvazova "Bakı urbanonimləri" adlı çox dəyərli kitabında Bakı şəhərinin prospekt və küçələrinin 1993-cü ilə qədərki adlarını dəqiqləşdirmiş, rayonlar üzrə bu adların ünvanlarını müəyyənləşdirmiş və 1988-1989 və 1990-1991-ci illərdə Bakı şəhərində dəyişən küçə adları haqqında zəngin faktlarla dolu məlumat vermişdir (17).

Bakı şəhəri ilə bağlı toponimik adların tədqiqi sahəsində G.Axundovanın "Binəqədi rayonu toponimiyasının differensial xüsusiyyətləri" adlı məqaləsi də diqqəti cəlb edir. Müəllif bu məqalədə Binəqədi rayon ərazisindəki urbanonimlərin differensial xüsusiyyətləri, adresat funksiyaları, bu adların standartlaşdırılması və normallaşdırılması ilə bağlı maraqlı fi-

kir və mülahizələri irəli sürmüş, məhəllə və küçə adlarını leksik-semantik cəhətdən tədqiqata cəlb etmişdir (1, s.46-57).

Topoqrafik adların tədqiqi Naxçıvan toponimiyası üçün də xarakterik olmuşdur. Tanınmış sənətşünas a lim R.Salayeva «Нахчыван наследие архитектуры» adlı kitabında Naxçıvan və Ordubad şəhərlərinin arxitektura quruluşu, Naxçıvan şəhərindəki *Xıncab, Xoşulu, Əlixan, Pir qəliş* (Pirqəmiş – A.B.), *Şahab, Kollu bağ, Sarvanlar* və *Xoylu məhəllələri,* onların sxematik planı, bəzi məhəllə adlarının məna açımı, Ordubad şəhərindəki məhəllə adlarının leksik tərkibi haqqında maraqlı məlumatlar vermişdir. Şəhərlərin plan quruluşunun və şəhərsalma mədəniyyətinin öyrənilməsində topoqrafik obyektlərin əhəmiyyətini yüksək qiymətləndirən müəllif yeri gəldikcə, toponimik adların mənşəyinə, bu adların əmələ gəlmə və yaranma yollarına da toxunur (49, s. 21-29).

Naxçıvan şəhərinin məhəllə adları haqqında iki müəllif məqalə yazmışdır. Bu baxımdan mərhum toponimçi-alim Ə.Əliyevin "Naxçıvan şəhərində məhəllə adları" adlı məqaləsi urbanonimlərinin öyrənilməsi istiqamətində irəli atılmış addımlardan biri kimi qiymətləndirilməlidir. Müəllif məqaləsini *Qurdlar, Kəngərli, Sarvanlar, Kilit, Xıncov, Qahab, Xoylu, Zaviyə, Şahab* kimi məhəllə adlarının tarixi-filoloji təhlilinə həsr etmiş, bu adların mənşəyi ilə bağlı bəzi fikir və mülahizələrini söyləmişdir ki, bunların da bəziləri ciddi polemikaya səbəb olur (21, s. 23-24).

Urbanonimlərin tədqiqi tarixçi-alim, mərhum H.Cəfərovun tədqiqat obyekti olmasa da, o, 1996-cı ildə bu məsələyə toxunaraq "Naxçıvan şəhəri və onun məhəllələri haqqında" adlı məqaləsində *Sarvanlar, Atabəylər, Cığatay, Ambar, Pirqəmiş, Çaparxanlı, Ziyilarxı, Dizə, Zaviyə, Qala, Xoylu, Qarağac* kimi məhəllə adları haqqında məlumat vermiş, ancaq həmin coğrafi adların mənşəyinə toxunmamışdır (15, s.54-58).

Hər iki məqalə müəllifinin bilavasitə məqsədi Naxçıvan şəhərinin toponimik adlar sistemini öyrənmək olmadığından, onlar elmi mənbələrdən çox əhalinin yaddaşına əsaslanmışlar. Odur ki, bu məqalələrdə irəli sürülən fikir və mülahizələrə yeri gəldikcə müəllifin münasibəti bildiriləcəkdir.

Naxçıvanın topoqrafik obyekt adlarının elmi-linqvistik baxımdan öyrənilməsi bu sətirlərin müəllifinin də tədqiqat obyektinə daxil olmuş, o, 1990-cı ildə nəşr etdirdiyi "Ad da tarixdir" adlı məqaləsində mənbələrdə əksini tapan məhəllə adlarını tarixilik baxımından tədqiq etmiş və maraqlı konsepsiyalar irəli sürmüşdür (7, s. 28-29). Müəllif sonrakı tədqiqatlarında muxtar respublikanın topoqrafik obyekt adlarının bir qismini toplayıb qruplaşdırmış, "Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri" adlı monoqrafiyasında bu adları leksik-semantik cəhətdən tədqiq etmiş (8,s.121-144), "Naxçıvan Muxtar Respublikasının onomastik vahidlər sözlüyü" adlı kitabında isə topoqrafik obyekt adlarının bir qisminin sözlüyünü tərtib etmişdir (9, s.102-108). Müəllifin 2010-cu ildə nəşr olunan "Onomalogiya problemləri" monoqrafiyasının I cildində Naxçıvan şəhərindəki *Anbar, Atabəylər, Bilici, Cıdıllı bağ, Cığatay, Çaparxanlı, Dabbaqxana, Dəvəli, Dizə, Əlixan, Gomayıl, Xeyrəbad, Xoşulu, Xıncov, Künbəz, Xoylu, Qaraağac, Qaladibi, Qurdlar, Qoçüstü, Pirqəmiş, Sallaqxana, Şahab, Söyüdlü bilan, Zaviyə* və digər məhəllə adlarının əmələ gəlmə və yaranma yolları təhlil edilmiş, struktur-semantik xüsusiyyətləri araşdırılmışdır (11, s. 332-364).

Qeyd etmək lazımdır ki, aparılan bu tədqiqatlar hələ də kifayətləndirici deyil, çünki indiyə qədər görülən işlərdə bölgənin toponimik sistemi bütövlükdə elmi-linqvistik tədqiqata cəlb olunmamış, bu adların ümumi mənzərəsi yaradılmamışdır. Buna görə də problemin həlli üçün Naxçıvan Muxtar Respublikası ərazisindəki toponimik adları bütövlükdə tədqiqata cəlb etmək elmi və əməli əhəmiyyət kəsb edir.

## Məhəllə və meydan adları

Urbanonimlərin nomenklaturasına daxil olan məhəllə və meydan adları yaşayış məntəqələrinin topoqrafik obyekt adlarının tərkib hissələrindən biridir. Məhəllə - "bir şəhər və ya qəsəbənin bölündüyü hissələrdən hər biri", "şəhərin, iri binaları olan, kəsişən yollar və ya meydanlar arasında yerləşən hissəsi" (5,s.323) mənasında işlənir. Meydan sözü isə fars mənşəlidir. Bu söz "açıq və düz yer, sahə", "dörd küçə arasındakı sahə" (22, s.329), "Şəhər və ya kənd, qəsəbə və s. içərisində tikilisiz açıq və geniş düz yer, sahə" (5, s. 309) mənası bildirir.

Məhəllə və meydan adları birdən-birə yox, tarixin müəyyən mərhələlərində yaranmış, cəmiyyətin sosial iqtisadi inkişafı, şəhər və kənd yaşayış məntəqələrində əhalinin artımı, qohumluq prinsipləri, patronimik (tayfa, nəsil, qəbilə, tirə, əqrəba və s.) ailələrin bir ərazidə yaşaması nəticəsində formalaşmışdır. Bu adların 400-500, bəzilərinin isə min illərlə yaşı vardır. Bəllidir ki, miladdan əvvəl və sonra salınan şəhərlər müəyyən hissələrə (məhəllələrə) bölünmüş, hər bir şəhərin və ya kəndin orijinal plan quruluşu, bir neçə meydanı, məscidi, hamamı, bazarı, dükanı, qəbiristanlığı, karvansarası olmuş və bu obyektləri biri-birindən fərqləndirmək üçün onlara dövrün ictimai-siyasi hadisələri, ərazinin relyef quruluşu, əhalinin məşğuliyyət sahələri ilə bağlı adlar verilmişdir.

Məhəllə və meydanlar aid olduğu yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafı ilə əlaqədar idarəetmənin tərkib hissəsinə çevrilmiş, inzibati statusa malik olmuş və məhəllə tayfa başçısı, məhəllənin əsasını qoyan şəxs - ağsaqqal tərəfindən idarə olunmuşdur. Məhəllə ağsaqqallığına həmin məhəllədə məskunlaşan tayfa başçısı, əhali arasında sözü keçən, iş bacaran, dünyagörüşlü şəxs seçilərmiş. Ağsaqqal məhəllənin bütün işlini şəhərin (kəndin) ümumi işi ilə tənzimləyər, tədbirləri məhəllə meydanı, məsciddə keçirər, məhəlləyə aid məsə-

ləri həll edərmiş. Məhəllədə hamam, bazar, məscid tikmək, kəhriz qazıb su çəkmək, arx çıxarmaq, ağac əkmək, imkanı olmayanlar üçün toy və yas mərasimləri keçirmək, qurbanlar kəsmək kimi məsələlər icra edilərmiş.

Mənbələrin məlumatına görə Yaxın və Orta Şərqdə böyük şöhrət tapmış Naxçıvan və Ordubad şəhərləri qədim İpək Yolu üzərində yerləşdiyinə görə sürətlə inkişaf etmiş sənaye, ticarət və sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Bu şəhərlər Çin, Hindistan, İran, Türkiyə, Rusiya, eləcə də Avropanın bir çox ölkələrindən gələnlərin diqqətini cəlb etmiş, müxtəlif diplomat və səyyahlar, təzkirəçi və salnaməçilər bölgənin sosial-iqtisadi vəziyyəti, şəhərlərin quruluşu, tikililəri, məscid, hamam, bazar və karvansaraları, bağ-bağatları və s. haqqında maraqlı məlumatlar vermişlər. Odur ki, Naxçıvan və Ordubad şəhərləri haqqında qədim ərəb, fars, türk, gürcü və Avropa mənbələrində maraqlı məlumatlar vardır.

Naxçıvan və Ordubad şəhərlərinin məhəllə və meydan adları haqqında ilkin məlumat hələlik 1590-cı ilə aiddir. Həmin dövrdə Naxçıvan şəhərində: *Qaziyi-Cahan* (başqa adı Xacə Mirixan), *Seyid Hüseyn, Molla Əhməd, Mirzəbəy, Şahab, Künbəz, Bala, Hacıbəy, Xuzəmərək, Tizxiran, Qala* adları ilə 11 məhəllə, Ordubad şəhərində isə *Mingis, Ambaras, Sərşəhər, Kürdətal* (başqa adı Meydan idi) məhəllə adları qeydə alınmışdır (25, s, 19). 1590-cı ildən fərqli olaraq 1727-ci ildə Naxçıvan şəhərində iki məhəllə - *Aşağı məhəllə və Yuxarı məhəllə,* Ordubad şəhərində isə dörd məhəllə (*Anbaras, Sərşəhər, Üçtərəngə, Mingis*) adı qeydə alınmışdır (37, s.16). Demək, ilk baxışda belə görünə bilər ki, bu müddət ərzində Naxçıvan şəhərində əhalinin sayı azalmış, yaxud şəhərin bəzi məhəllələri dağılmış və ya məhəllələrdən köçmələr olmuşdur. Ancaq qeyd etmək lazımdır ki, bu dövrdə şəhər məhəllələrinin azalması şəhər əhalisinin azlığı və ya köçüb getməsi ilə deyil, əksinə şəhərin inkişafı və əhalinin artımı ilə bağlı olmuş, ayrı-

ayrı məhəllələr həmin böyük kvartalların içərisində olmuşdur. Bu faktı sonrakı məlumatlar da təsdiqləyir.

1672-1673-cü illərdə Cənubi Qafqaza səyahət zamanı Naxçıvan şəhərində olmuş fransız taciri və səyyahı J.Şarden yazır ki: "Naxçıvan səksən faiz dağılmış böyük bir şəhərdir: yaxud böyük və qeyri-adi viranə topasıdır. Bu şəhər yavaş-yavaş məskunlaşır və bərpa olunur. Şəhərin mərkəzi hal-hazırda yenidən qurulmuş və məskunlaşmışdır. Orada böyük bazarlar deyilən hər iki tərəfi hər cür mal və yeyinti məhsulları satılan dükanlarla dolu qalereyalardan və ya örtülü küçələrdən ibarətdir. Naxçıvanda beş karvansara, hamamlar, bazar meydanları, tütün və qəhvə verən iri mehmanxanalar və təxminən iki min ev vardır" (41, s. 63). Bu faktlar sübut edir ki, hələ XVII əsrin ikinci yarısında beş karvansarası, bir neçə hamamı və bazar meydanları olan Naxçıvan şəhəri XVIII əsrdə iki məhəllədən ibarət ola bilməzdi.

XVII əsrin məşhur türk səyyahı E.Çələbi "Səyyahətnamə"sində Naxçıvan şəhərinin məhəllə və meydan adlarını çəkmir, ancaq şəhər haqqında verdiyi məlumatdan aydın olur ki: "Buradakı mövcud olan 10200 örtülü böyük torpaq ev, 70 cümə məscidi, ibadətxanalar, xüsusilə şəhərə gözəllik verir. Şəhərdə 40 məscid, 20 mehmanxana, 7 gözəl hamam, təqribən 1000 dükan vardır. İmarətlərinin əksəriyyəti gözəldir. Xeyli adam yerləşən qəribə cümə məscidləri vardır ki, onların hər biri bir behişt bağı, behiştdir. Bunlardan *Cənabi Əhməd paşa, Fərhad paşa, Gözəl Əli paşa, Çıqal oğlu, Xadim Cəfər paşa* cümə məscidlərini qeyd etmək olar. Bu cümə məscidləri şirəli, bəzəkli kaşilər, rəngarəng şüşələrlə bəzədilmişdir. Neçəsinin yarımdairə şəklində çatılmış tavan künbəzləri şirəli kaşilərlə örtülmüşdür. İstanbul memarlığı üslubunda 33 minarəsi vardır. Əhməd paşa məscidi (eynilə) İstanbuldakı Rüstəm paşa məscidi kimidir. Cənabi hamamı son dərəcə gözəl və işıqlıdır. Lakin qapı və divarı şirəli kaşidən və döşəmələri isə ağ mərmər

daşdandır. Hamam məhrəbaları şahmat naxışı ilə bəzədilmişdir. Mehmanxanamıza yaxın Zal paşa hamamı var. Onun bütün qapı və divarları şirəli kaşilərlə örtülmüşdür. Döşəməsi başdan ayağa boz, sumağı və tünd qırmızı mərmər daşlardandır. Elə işıqlı hamamdır ki, onun bütün pəncərələri billurdandır. Həyətin ortasında böyük bir hovuz var. Xülasə, gözəl havası olan bu hamamın tərifi, təmizliyi və gözəlliyini şərh və təsvir etməkdə qələm belə acizdir. Şah bazarında varlı tacirlər və alverçilər vardır" (16, s. 12-13).

Qədim və orta əsrlərə aid mənbələrdən aydın olur ki, "X-XII əsrlərdə Naxçıvan bazarı əvvəlki dövrlərə nisbətən xeyli genişlənmiş və əsasən sənətkarlıq və ticarət rayonunda - "rəbatda" yerləşmişdir" (31, s.56). "XVIII yüzilliyin 20-ci illərində Naxçıvan şəhərində 5 bazar (Xətib bazarı, Şeytanbazar, Çanaq, Türəngi, Meydan çarşıları), 191 dükan, 21 dəyirman olmuş, Ordubad şəhərində isə 1 böyük bazar, 210 dükan, 2 bəzirxana, 2 sabunxana, 5 dəyirman, 5 karvansara və Araz çayında bir iskələ fəaliyyət göstərmişdir (38, s.17). Hər iki şəhərdə olan zərgər, misgər, bəzzaz, həkkak, sərrac, toxucu, həllac, boyaqçı, çəkməçi, papaqçı, dəmirçi, dulusçu, şüşəsaz, dülgər, dabbaq kimi sənətkarlar, əsasən, bazarlarda, az qismi isə ayrı-ayrı məhəllələrdə "karxana adlanan emalatxanalarda yerləşirdi" (31,s.62). "Başqa şəhərlərdə olduğu kimi, Naxçıvanda da sənətkarların emalatxanaları əsasən bazarda və karvansaralarda yerləşirdilər. Şəhərdə mövcud olan 279 sənətkar emalatxanasından 31-i karvansaralarda, yerdə qalan 248-i bazarda cəmləşmişdi. Bu emalatxanaların üçü boyaqçılara, ikisi dabbaqlara, qırxı isə pambıq parça toxuyanlara və xalçaçılara məxsus idi. Sənətkarların ayrı-ayrı məhəllələr üzrə bölgüsü də müəyyən maraq doğurur. Bu bölgüdən aydın olur ki, sənətkarların böyük əksəriyyəti Naxçıvanın köklü sakinləri olub, əsasən, onun qədim məhəllələrində məskunlaşmışlar. Məsələn, Naxçıvan şəhərində sənətkarların 97 nəfəri Əlixan məhəl-

ləsində, 91 nəfəri Şahab məhəlləsində, 56 nəfəri isə Sarvanlar məhəlləsində yaşayırdılar" (34, s.51). Odur ki, həmin məhəllələr, döngə və dalanlar daha çox sənətkarlıqla məşğul olan şəxslərin adları ilə tanınmışdır. Məsələn, *Dülgər Fəttahın döngəsi, Ovçu İbrahimin döngəsi, Boyaqçı Qasımın döngəsi, Papaqçı Məmişin döngəsi, Zərgər Hacı Tağının döngəsi, Bəzzaz Hacı Məmmədkərimin döngəsi, Çayçı Qasımın döngəsi, Dərzi İsmayılın döngəsi, Başmaqçı Kazımın döngəsi, Dəmirçi Nəbinin döngəsi, Dəvəçi Kərbəlayı Muxtarın dalanı, Faytonçu Cəfərin döngəsi, Aşbaz Ələkbərin döngəsi, Nalbənd Məşədi Kazımın döngəsi, Arabaçı Məşədi Ələkbərin döngəsi, Palanduz Musanın döngəsi* və s.

Bu hal Ordubad şəhəri üçün də xarakterik olmuşdur. Məsələn: *Şirni tökən Cəbrayılın döngəsi, Bombuçu Qulunun döngəsi, Çörəkçi Həsənin döngəsi, Dərzi Baratın döngəsi, Baramaçı Kalba Niftalının döngəsi, Çayçı Ələkbərin döngəsi, Çayçı Muxtarın döngəsi, Dəbbağ Məşədi Həsənin döngəsi, Dəmirçi Alının döngəsi, Çəkməçi Tağının döngəsi, Faytonçu Ələkbərin döngəsi, Nalbənd Kərimin döngəsi, Hambal Mahmudun döngəsi* və s.

Bu faktlar Naxçıvan və Ordubad şəhərlərinin hər məhəlləsində meydan, bazar, dükan, sənətkarlıq emalatxanaları və s. olduğunu təsdiqləyir. Demək, orta əsr Şərq şəhərində hər məhəllənin öz meydanı, məscidi, hamamı, karvansarası və s. olmasını nəzərə alsaq, yuxarıdakı faktlardan belə qənaətə gələrik ki, vaxtilə Naxçıvan və Ordubad şəhərlərində məhəllə meydanı, ticarət meydanı, vağzal meydanı var imiş ki, onların adları illərin əks-sədasını, xalqımızın maddi və mənəvi mədəniyyətini, peşə və sənətinin izlərini bizə yadigar saxlamışdır. Belə yadigarların bir qismi müxtəlif mənbələrdə, arxiv və kitab xəzinələrində özünü qoruyub saxlamışdır. Məsələn, rus şərqşünası V.Qriqoryev məlumat verir ki, XIX əsrdə Naxçıvan şəhəri *Əlixan, Şahab, Sarvanlar və Qurdlar* adı ilə dörd kvartala

bölünürmüş (48, s. 68). Bu faktı İ.Şopen də təsdiqləyir. O, Naxçıvan şəhərində *Sarvanlar, Şahab, Əlixan, Qurdlar* kimi iri kvartallarında: *1.Sarvanlar, 2. Erməni məhəlləsi, 3. Oruc məhəlləsi, 4. Köhnə qala, 5. Xoşulu, 6. Əlixan, 7. Çaparxan, 8. Ziyilyar, 9. Billici, 10. Şahab, 11. Xoy məhəlləsi, 12. Qala, 13. Təzə kənd, yaxud Uzundivar* məhəllələrinin olduğunu yazır (52, s. 447). İ.Şopen qeyd edir ki, Ordubadda hər məhəllənin öz meydanı, küçə və döngələri olmuş, XIX əsrin ortalarında şəhər *Ambaras, Kürdətal, Mingis, Sərşəhər və Üçtərəngi* adı ilə beş hissəyə bölünmüş, şəhərinin əsas mərkəzi Ambaras məhəlləsi olmuşdur. Şəhərdəki meydanlar üçkünclü, Kürdətal meydanı isə dördkünclü olmuşdur (52, s. 481, 483).

XIX əsrdə Ordubad şəhərində Cümə məscidi və 63 məhəllə məscidinin olması şəhərin ümumi planından, hər məscidin bir məhəlləyə aid olmasından xəbər verir. Aydın olur ki, şəhər məhəllələri ümumşəhər ansamblına uyğun qurulmuş, hər məhəllənin öz meydanı və çeşməsi olmuş, burada əkilən çinarlar məhəlləyə xüsusi gözəllik vermişdir. Məhəllələrdə bazarın olması da əsas şərtlərdən biri idi. Ordubadın memarlıq abidələri, tikililəri, küçə və meydanları haqqında danışan tədqiqatçılar XX əsrin əvvəllərində Ordubadda 40-a yaxın məhəllə və küçə məscidinin olduğunu yazır və Əngəc məhəlləsinin adını da yuxarıdakı məhəllə adlarına əlavə edirlər (38, s.76, 82).

Ordubadda qədim bazar, dükan, hamam, karvansara, məscid şəhərin ayrı-ayrı məhəllələrində yerləşirmiş. Ə.Fərəcovun yazdığına görə: "Bazarın başlanğıcında "Arasa meydanı" adlanan, hər tərəfə kölgə salmış qocaman çinarlı böyük meydan yerləşir. Bazarın orta hissəsini Meydan dibi, aşağı hissəsi isə Aşağı Ambaras adlanır. Köhnə hamam, məscid, karvansara və s. onun diqqətəlayiq yerləri idi. Baş Çarşudan Cümə məscidinə cığır gedir ki, burada Kömür meydanı adlanan daha bir kiçik meydan da yerləşirdi» (51, c.78).

Tədqiqat sübut edir ki, Ordubad şəhərində küçələr boyu relyefdən asılı olaraq müxtəlif yüksəkliklərdə 2-3, bəzən isə 4 kiçik meydan yerləşir. Bu meydanlar ensiz, qəribə 3-4 küçənin qovuşağındadır (49, s. 54). İndiyə qədər bu məhəllə meydanları öz əhəmiyyətini saxlayıb. Odur ki, Ordubad şəhərində topoqrafik obyekt adlarının öyrənilməsi tarixilik baxımından çox əhəmiyyətlidir. Onu da qeyd edək ki, zaman keçdikcə bəzi yaşayış məntəqələrinin məhəllə və meydan adlarında köklü şəkildə milliləşmə, müasirləşmə baş versə də, bu hal Ordubad şəhər məhəllə və meydan adlarına mənfi təsir göstərməmiş, bu şəhərdə tarixi urbanonimlər özünü qoruyub saxlamışdır. Hazırda Ordubad şəhərində *Aşağı Ambaras, Yuxarı Ambaras, Kürdətal, Üçtürəngə, Mingis (Mingəs), Sərşəhər* adlı beş böyük məhəllə və *Qaraçanaq, Dilbər, Əngəc, Əsgərxan, Körpübaşı, Bəylər, Düz, Qoşqar, Musatəngi* və s. kimi kiçik məhəllə adları qeydə alınmışdır.

Bu hal Naxçıvan şəhəri üçün də xarakterik olmuş, XIX əsrin 40-50-ci illərindən başlayaraq şəhər əhalisinin artımı, yeni məhəllə və meydanların salınması ilə əlaqədar XX əsrin 30-40-cı illərində Naxçıvan şəhərində *Sarvanlar, Əlixan, Qurdlar, Şahab, Gomayıl, Ziyilarx, Xoşulu, Təkarmud, Hacı Novruz, Zaviyə, Həsənalıbəy, Xoylu, Pirqəmiş, Köhnə qala, Qala, Xıncov, Göy alı, Cıdıllı bağ, Söyüdlü bilan, Xeyrəbad, Çuxur, Buzxana, Qızlar bulağı, Çaparxanlı, Oruc məhəllə, Ambar məhəlləsi, Mahmudağa, Qarağac, Dizə, Qoçaltı* kimi məhəllə və meydan adları olmuşdur. Bu məhəllə adlarının bir qismi indi də özünü yaşadır.

Məhəllə və meydanlara adların verilməsi dövlət əhəmiyyətli bir məsələdir. Bu adlar hər hansı yaşayış məntəqəsinin tarixi simasıdır. Bu məsələni daim diqqət mərkəzində saxlayan müvafiq dövlət strukturları hər bir şəhər və kənddə məhəllə, meydan, xiyaban, mədəniyyət və istirahət parklarının yaradılması, onlara müasir həyatla səsləşən, zövq oxşayan adların

verilməsi qayğısına qalır, köhnəlib sıradan çıxmış adları yenisi ilə əvəz edir, onlara milli mənsubiyyətimiz, milli ruhumuzla bağlı adlar verir, bu adları rəsmi şəkildə sənədləşdirirlər. Məsələn, Naxçıvan şəhər XDS İK-nin 15 oktyabr 1989-cu il tarixli, 585 nömrəli qərarı ilə keçmiş məhəllə adlarının bir qismi bərpa olunmuş, yeni salınan məhəllələrə xalqın tarixi, mənəviyyatı ilə bağlı adları verilmişdir. Həmin qərara əsasən birinci mikrorayona Atabəylər məhəlləsi, ikinci mikrorayona Əlincə məhəlləsi, üçüncü mikrorayona Babək məhəlləsi, "Yeni Naxçıvan"dakı 10-cu məhəlləyə Çənlibel məhəlləsi, 57-ci məhəlləyə Qoçüstü məhəlləsi, 141-ci məhəlləyə Əcəmi Naxçıvani məhəlləsi adları verilmişdir (55).

Naxçıvan şəhər XDS İK-nin 17 may 1990-cı il tarixli 202 nömrəli qərarı ilə *Sarvanlar, Xıncov, Qurdlar, Ziyil arxı, Şahab, Pirqəmiş, Zaviyə, Əlixan, Xoşulu, Gomayıl, Qala, Həsənalıbəy, Qoçüstü, Xeyrabad Atabəylər* kimi məhəllə adları bərpa edilmiş, yeni yaranan məhəllə və meydanlara *Əlincə, Babək, Çənlibel, Əcəmi Naxçıvani, Qarabağ meydanı, Azadlıq meydanı, Koroğlu meydanı* kimi adlar verilmişdir (56). Bu hal Ordubad, Culfa, Şərur, Şahbuz, Kəngərli və Sədərək rayon icra hakimiyyətləri tərəfindən də uğurla həyata keçirilir.

Araşdırmalar sübut edir ki, müxtəlif zaman və məkan qovuşacağında yaranmış məhəllə və meydan adlarının bir qismi illərin izini itirərək tarixin dolaylarında itib batmış, bir qismi fonetik dəyişikliyə uğramış, bir qismi isə olduğu kimi zəmanəmizə qədər gəlib çatmışdır. Bunun nəticəsidir ki, dilimizin leksik fondunda məhəllə və meydan adlarının zəngin leksikası yaranmışdır. Odur ki, məhəllə, meydan, xiyaban, mədəniyyət və istirahət parklarının adlarını toplayıb linqvistik cəhətdən tədqiq etmək xalqımızın tarixi, dili, etnik tərkibi, etnoqrafiyası, məşğuliyyət sahələri, yaşayış tərzi, ad mədəniyyəti haqqında təsəvvürü genişləndirir, dünənimizlə bu günümüz arasında mənəvi körpü yaradır.

Tədqiqatdan aydın olur ki, məhəllə və meydan adlarının mənşəyi müxtəlif tayfa və tayfa birləşmələri, tayfa başçılarının adları, ərazinin relyef quruluşu, ərazidə baş vermiş ictimai-siyasi hadisələr, əhalinin peşə və məşğuliyyət sahələri ilə bağlı yaranmışdır.

**Ağabəylər məhəlləsi.** Naxçıvan şəhərində adı passiv fonda keşmiş məhəllə adlarından biridir. Məhəllənin yerləşdiyi ərazi məlum deyil. Bəzi mülahizələrə görə məhəllə indiki Heydər Əliyev prospekti ilə Atatürk küçəsinin kəsişməsindən Böyük bağa (keçmiş "Padşahlıq bağı"na) qədər olan ərazidə yerləşirmiş. Məhəllə adının mənşəyi Kəngərli nəslinin Ağabəyli tayfasının adı ilə bağlıdır. Ağabəylilər Kəngərlilərin əsas qollarından biri olmuş, əsasən, Naxçıvan şəhəri və ətraf kəndlərdə yaşamışlar (48, s. 32). Bu tayfa adına XVI-XVII əsrlərə aid qəbalə sənədləri (39, s.20) və digər mənbələrdə rast gəlinir (50, s.29). Ağabəylilər Naxçıvan xanlığının ictimai-siyasi həyatında yaxından iştirak etmiş, "Nadir şah Əfşarın hakimiyyəti dövründə (1736-1747) sarayda məsul vəzifələrdə işləmiş, bir qismi vəkilliklə məşğul olmuşdur. Ağabəylilər tayfasına öz aralarından çıxmış vəkil və ağsaqqallar rəhbərlik edirmiş. Naxçıvan diyarının və Dərələyəz mahalının kəndlərində yaşayan Ağabəylilər maldarlıqla məşğul olmuşlar" (35, s. 15). Naxçıvan şəhərinə yaxın kəndlərdə yaşayan Ağabəylilərin də əsas məşğuliyyəti əkinçilik və heyvandarlıq olmuşdur.

**Anbar məhəlləsi.** Naxçıvan şəhərində qeydə alınmış məhəllə adıdır. Məhəllə keçmiş şəhər bazarına yaxın ərazidə indiki Musiqi Kollecinin binasının ətrafında yerləşirmiş. Mənbələrdə qeyd olunur ki, "məhəllədə şəhər bazarına gələn kəndlilər və Yaxın Şərq ölkələrindən gələn tacirlər satacaqları malları bir neçə günlüyə indiki mədəniyyət sarayı ilə üzbəüz binaların yerindəki anbarlara yığırdılar. Buna görə də ətraf ərazi Anbar məhəlləsi adlanırdı. Burada mehmanxana, yeməkxana, çayxana, məscid və s. var idi. Məhəllə bir neçə yüz illik tarixə malik-

dir. Onun adı hələ XVII əsrə aid sənədlərdə çəkilir" (34, s.25). Bu fikirdən fərqli olaraq digər mənbədə məhəllənin salınma tarixinin 1828-ci ildən sonraya aid olduğu yazılır. Bu haqda həmin məhəllədə doğulub boya-başa çatmış, görkəmli ədəbiyyatşünas alim Məmməd Cəfər yazır ki, "rus padşahı Naxçıvana qoşun yeridib tutanda, o zamana qədər şəhərin qədim tikintilərinin xərabələri qalan bu sahədə atlı kazaklar üçün böyük bir anbar (əslində tövlə), onun yanında kazaklar üçün beş otaqlı ev və üzbəüz bir türmə (həbsxana) tikilmiş imiş. Bir neçə il sonra kazaklar şəhərin yuxarı hissəsində tikilən təzə kazarmaya köçürüləndə ordan-burdan qərib-qürabə gəlib bu sahədə yurd salmış, hərə möhrədən özü üçün bir daxma tikmişdir. Belə izahatlardan öyrəndik ki, bizim məhəllənin tarixi bir o qədər də qədim deyilmiş, bəlkə qədim, əzəmətli Naxçıvan xərabələri yerində XIX əsrdə əmələ gəlmiş təzə bir məhəllə imiş. Məhəllədə yaşayan ailələr iyirmidən artıq olmazdı. Ailə başçılarının 7-si dərzi, biri faytonçu, biri bıçaqçı-çilingər, 3-ü dülgər, biri səyyar -aşbaz, 2-si hambal, qalanları kənddən şəhərə köçmüş muzdurlar idi. Anbar məhəlləsi kasıblar məhəlləsi idi. Buradakı kasıblar daha "məşhur" kasıblar idi" (29, s. 31-32). Göründüyü kimi, Anbar məhəlləsi "şəhərin qədim tikililərinin xarabalıqları üzərində salınmış" məhəllə olub. Çünki XIX əsrdən əvvəlki dövrlərdə ərazidə yaşayış binaları olmuş, qədim Atabəylər və Qala məhəllələri də ətraf ərazilərdə yerləşmişdir. Anbar məhəlləsi keçmiş şəhər bazarına yaxın ərazidə yerləşdiyinə görə, buradakı kazarmalardan anbar kimi istifadə olunmuş, müxtəlif ölkə və şəhərlərdən gətirilən malları həmin anbarlardan satışa çıxararmışlar. Buna görə də məhəlləyə əhalinin məşğuliyyəti ilə bağlı ad verilmişdir.

**Anbaras məhəlləsi.** Ordubad şəhərində məhəllə adıdır. Toponim mənbələrdə *Anbaras* şəklində də yazılmışdır. Hazırda tələffüz zamanı hər iki variantdan istifadə olunur. Məhəllə *Aşağı Anbaras və Yuxarı Anbaras* adlanan iki hissədən ibarət-

dir. Məhəllənin "kiçik meydandan ibarət mərkəzində məhəllə məscidi, çeşmə və bir neçə xırda dükan vardır. Meydanı bütünlüklə iri çinar ağaclarının gövdələri örtürdü. Anbaras məhəlləsinin meydanı indi də məhəllə mərkəzi rolunu oynayır" (35, s.25). Yerli əhalinin dediyinə görə şəhər ətrafında olan bağbostan məhsulları qışa saxlanıldığına görə buraya Anbaras deyilib. Toponim anbar və as tərkib hissəslərindən ibarətdir. Məhəllə adı "böyük anbar" mənasına uyğun gələ bilər.

**Asnı məhəlləsi.** Sədərək kəndində mövcud olan məhəllə adı qədim türk Asnı tayfasının adı əsasında yaranmışdır. Asnı 1728-ci ildə Sədərək nahiyəsində kənd olmuş, XIX əsrin 30-cu illərində kənddə 11 ailə (41 nəfər) yaşamışdır (İ. Şopen). XX əsrin əvvəllərində Sədərəkdən təqribən 1,5 km qərbdə yerləşən Qarasudərənli (Qarasu dərəsi) kəndi ilə birləşən Asnı kəndi hazırda Sədərək kəndinin şərqində məhəllə adı kimi qalmışdır (35, s. 35)..

**Asnı məhəlləsi.** Qədim türk tayfa adı əsasında yaranan Asnı məhəllə adı Qarabağlar (Kəngərli), Tənənəm (Şərur) və Sirab (Babək) kəndlərində də qeydə alınmışdır. Bu faktlar Naxçıvan ərazisində Asnı tayfasının yerli (köklü) bir tayfa olduğunu və yayılma arealını təsdiqləyir. Qarabağlar (Kəngərli) kəndinə Asnı adlı bulaq və müqəddəs ocağın (pirin) olması da fikrimizə dəstək olur.

**Atabəylər məhəlləsi.** Naxçıvan şəhərindəki qədim məhəllə adıdır. Məhəllə Azərbaycanda Eldənizlər sülaləsinin idarə etdiyi qüdrətli Atabəylər dövlətinin adı ilə bağlı yaranmışdır. Atabəylər dövlətinin əsas paytaxtı Naxçıvan, Təbriz və Həmədan şəhərləri olmuş, bu dövrdə Naxçıvan möhtəşəm bir şəhərə çevrilmişdir. Paytaxt şəhəri kimi Naxçıvan böyüyüb inkişaf etmiş, şəhərdə yeni məhəllələr yaranmış və Atabəylər məhəlləsi şəhərin əsas məhəllələrindən biri olmuşdur. Şəhərdə dövlətə məxsus rəsmi şəxslər bu məhəllədə yaşadıqları üçün məhəlləyə Atabəylər adı verilmişdir. Əsrlər boyu müxtəlif ictimai-

siyasi hadisələr nəticəsində Naxçıvan şəhərinin dəfələrlə dağılması və yenidən bərpa edilməsi nəticəsində Atabəylər məhəlləsi də dağılmış, sovet hakimiyyəti illərində adın işlədilməsinə yasaq qoyulmuş və məhəllə adı kimi unudulmuşdur. Ehtimal edirik ki, Atabəylər məhəlləsi keçmiş Anbar məhəlləsinin ətrafında, məqbərəyə yaxın ərazidə yerləşirmiş. Məhəlləyə Atabəylər məqbərəsi ilə bağlı adın verilməsi də şübhə doğurmur. Vaxtı ilə unutdurulmuş Atabəylər məhəllə adı Naxçıvan şəhər XDS İK 15 oktyabr 1989-cu il tarixli, 585 № li qərarı ilə yenidən bərpa edilmiş və birinci mikrorayona - Heydər Əliyev prospektinin kəsişməsindən (Heydər Əliyev Sarayının yanından) Əlincə məhəlləsinin kəsişməsinə qədər olan əraziyə, Atabəylər məhəlləsi adı vermişdir.

**Avçılar məhəlləsi.** Şərur rayonunun Dizə kəndində məhəllə adıdır. Yerli əhalinin dediyinə görə məhəllə kənddəki ovçuların daha çox bu məhəllədə yaşaması ilə əlaqədar yaranmışdır. Bundan fərqli olaraq belə bir fikir də mövcuddur ki, məhəllə adının mənşəyi türk ərazilərində geniş yayılmış Avçılar tayfa adı ilə bağlıdır. F.Sümər yazır ki, "Avçılar türklərin böyük bir eli olan, əsasən, Maraşda yaşayan, sonra Amik ovasına, Hələb dolaylarına, Çuxurova, İran, Diyarbəkir, Yazdax, Sivas, Kayseri, Qırşəhr, Ankara bölgəsinə və Kars yörəsinə qədər yayılan Dilqədirli elinin əsas qollarından biri olmuşdur (23, s. 184-185). Ehtimal edirik ki, Qars ətrafında yaşayan Avçılar tayfasına məxsus ailələrin bir qismi də Naxçıvanda məskunlaşmış və Dizə kəndində tayfa adını qoruyub saxlamışdır. Həmin kənddəki Ovçular təpə adı da bu qəbilə adı əsasında yaranmıdır.

**Azadlıq meydanı.** Naxçıvan şəhərinin baş meydanıdır. Meydanda ulu öndərimiz Heydər Əliyevin monumental heykəli ucalır, Heydər Əliyev Muzeyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin inzibati binaları, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, eləcə də bir çox yaşayış binaları

bu meydan ətrafında yerləşir. C.Məmmədquluzadənin heykəli də bu meydandadır. Naxçıvanla bağlı bütün dövlət tədbirləri, bayram mərasimləri Azadlıq meydanında keçirilir. Naxçıvanda azadlıq uğrunda mübarizə bu meydandan başladığı üçün buraya Azadlıq meydanı adı verilmişdir.

**Babək məhəlləsi.** Naxçıvan şəhərində yeni məhəllə adıdır. Məhəllə adı Naxçıvan şəhər XDS İK-nin 15 oktyabr 1989-cu il tarixli, 585 № li qərarı ilə təsbit edilmiş və şəhərin 3-cü mikrorayon yaşayış məntəqəsinə Babək məhəlləsi adı verilmişdir. Məhəllə Əlincə məhəlləsinin kəsişməsindən (Heydər Əliyev məktəbinin yanından) Əliqulu Qəmküar küçəsinin kəsişməsinə (Daş Məhsulları Sənaye kompleksinə) qədər olan sahəni əhatə edir. Adın mənşəyi xalq qəhrəmanı, görkəmli sərkərdə və ictimai xadim Babək əl-Xürrəminin (798-838) adı ilə bağlıdır.

**Bala məhəlləsi.** 1590-cı ildə Naxçıvan şəhərində qeydə alınmış məhəllə adıdır (25, s, 19). Məhəllənin yerləşdiyi ərazi məlum deyil. Bəzi ehtimallara görə məhəllə kiçik bir sahəni əhatə etdiyinə, ailələrin az yaşamasına görə buraya "kiçik məhəllə", "balaca məhəllə" mənasında işlənən Bala məhəlləsi deyilirmiş. Ehtimal edirik ki, toponim məhəllənin əsasını qoymuş Bala şəxs adı əsasında yaranmışdır.

**Bayat məhəlləsi.** Şərur rayonunun Aralıq kəndində məhəllə adıdır. Bayatlar qədim oğuz-türk tayfa adıdır. Bu ada ilk dəfə "Dədə Qorqud kitabı" (26, s.11) və M.Kaşğarinin "Divani-lüğat-it-türk" əsərində rast gəlirik (45, s.56). Bayat tayfası Azərbaycanın əksər ərazilərinə səpələnmiş və Naxçıvanın qədim sakinlərindən biri olmuşlar. 1728-ci ildə Ağgül (Sədərək nahiyəsi) və Nəcəf qışlağı, Zülfüqar qışlağı (Şərur nahiyəsi) adlı yaşayış məntəqələri bayatlara məxsus olmuşdur (37, s. 361, 366). Tayfaya məxsus ailələrin bir qismi də Aralıq kəndində yaşadığı üçün məhəllə həmin tayfa adı ilə adlandırılmışdır. K.N.Smirnov tayfaya məxsus ailələrin Yengicə

kəndində də (Şərur rayonu) yaşadıqlarını yazır və adın mənşəyini "köhnə", "qədim" şəklində mənalandırır (50, s.33).

**Bəydaş məhəlləsi.** Naxçıvan şəhərində keçmiş məhəllələrdən biri olsa da, mənbələrdə bu ada rast gəlinmir. Məhəllə adını 1970-1980-cı illərdə yaşamış yaşlı nəslin nümayəndələrinin yaddaşı əsasında qeydə almışıq. Məhəllə "Bəktaş arxı" ilə "Ziyil arx"ın başlandığı ərazidə yerləşirmiş. Məhəllə adı orta əsrlərdə Naxçıvanda fəaliyyət göstərən "Bəktaşiyyə" təriqətinin adı əsasında yaranmış və canlı danışıq dilində Bəydaş şəklinə düşmüşdür.

**Bəydili məhəlləsi.** Qarabağlar (Kəngərli rayonu) və Sirab (Babək rayonu) kəndlərində məhəllə adıdır. Toponim qədim türk Oğuz tayfalarından biri olan Bəydili tayfa adı əsasında yaranmışdır. M.Kaşğari "Divani-lüğat-it-türk" əsərində Bəydili tayfa adını yeddinci yerdə qeyd edir (45, s.56). M.Kaşğaridən sonra "F.Rəşidəddin, Yazıçıoğlu Əli və Əbülqazi xan Xivəli də bu tayfanı oğuz boylarından olduğunu" təsdiqləyirlər (44,s.95-96). Bəydili tayfa adını Kəngərli tayfasının bir qolu hesab edənlər də vardır (İ.Şopen).Fikrimizcə, sözün bu şəkildə mənalandırılması adın mənşəyinin oğuzlarla bağlılığını sübut edir.

**Bəylər məhəlləsi.** Ordubad şəhərində məhəllə adıdır. Qədim mənbələrdə bu ada təsadüf olunmasa da, hazırda məhəllə adı kimi mövcuddur. Görünür məhəllənin yaranması son dövrlərə aiddir. Bəzi ehtimallara görə şəhərin varlı bəyləri, adlı-sanlı adamları bu məhəllədə yaşadığı üçün coğrafi obyektə belə ad verilmişdir. Ancaq bundan fərqli olaraq ehtimal edirik ki, məhəllə adı Bəylər şəxs adı əsasında yaranmışdır.

**Bilici məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adlarından biridir. Toponim kəngərlilərin Bilici tayfa adı əsasında yaranmışdır. Bilici adına XVII-XVIII əsrlərə aid mənbələrdə və qəbalə sənədlərində çox rast gəlinir (39, sənəd 1, 6, 9). V.Qriqoryevin yazdığına görə Bilici XIX əsrin 30-cu illərində Naxçıvan şəhərində yaşayan əsas tayfalardan biri olmuşdur

(48, s. 32). K.N.Smirnov da Naxçıvan Dövlət Arxivinin materiallarına əsaslanaraq XX əsrin əvvəllərində Naxçıvan şəhərində Bilici tayfasının yaşadığını yazır (50, s. 29). Bu faktla sübut edir ki, Bilici tayfasına məxsus ailələr yaşadıqları məhəlləyə tayfa adlarını vermişlər. Məhəllənin yeri və şəhər ərazisindəki istiqaməti hələlik məlum deyil.

**Buzxana məhəlləsi.** Naxçıvan şəhərinin qədim məhəllələrindən birinin adıdır. Yaşlı nəslin nümayəndələri şəhərin bir neçə yerində Buzxana olduğunu təsdiqləyir, ancaq bu məhəllənin yerini xatırlaya bilmirlər. Qeyd edək ki, Azərbaycan ərazisində "buzxana"ların ən böyüyü Naxçıvandakı İmamzadə kompleksi yaxınlığında olsa da (38,s.225), məhəllə həmin ərazidə yerləşməyib. Buzxana məhəllə adı böyük mütəfəkkir C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" adlı əsərində də işlənmişdir: "Xudayar bəy üz qoydu bazara. Yeddi girvənkəlik qəndlərdən bir kəllə alıb vurdu geyməsinin altına və bazardan çıxıb Buzxana məhəlləsini tutub başladı getməyə» (33,s.14). Müəllifin bu fikrini əsas götürüb belə təxmin edirik ki, Buzxana məhəlləsi keçmiş şəhər bazarına yaxın ərazidən (Arxivlər idarəsi, Zaviyyə məscidi yaxınlığından) başlamış və şəhərin mərkəzi hissələrində yerləşmişdir. Buzxana məhəllədə yaşayanların məşğuliyyəti ilə bağlı yaranmış onomastik vahiddir.

**Cıdıllı bağ məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adlarından biridir. Vaxtilə şəhərin kənarı hesab olunan indiki Cəlil Məmmədquluzadə adına Dövlət Musiqili Dram teatrının ətrafı Cıdıllı bağ adlanırmış. XX əsrin 40-50-ci illərinə qədər burada at çapar və digər idman yarışları keçirərmişlər. Ona görə də ərazi Cıdırlı (Cıdıllı bağ) məhəlləsi kimi tanınırmış. Cıdırlı sözündə baş vermiş fonetik dəyişiklik (geri assimilyasiya) nəticəsində cıdır (at çapılan yer) sözü canlı danışıq dilində *Cıdırrı, Cıdıllı* kimi tələffüz olunur.

**Cığatay məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adıdır. Bu adın monqol mənşəli olması ehtimal olunur. M.Vəliyevin (Baharlı) yazdığına görə: "cığataylar monqolların türklərlə qarışığı olub Çingiz xanın oğlu Cığatayın xatirəsinə cığatay adlandırılan türkdilli xüsusi tayfadır" (43, s. 44). V.İ.Savina adlı müəllifə əsaslanan Q.Qeybullayev də XIII-XIV əsrlərdə İranda yaşayan cığatayların monqol mənşəli olmasını təsdiqləyir və Quba rayonundakı eyniadlı oykonimin bu etnonim əsasında yarandığını yazır (47, s. 62). Bu fikir digər mənbədə də vurğulanır: "Cığatay türkdilli tayfa adını əks etdirir. XIV əsrdə Naxçıvanda cığatayların yaşadığı qeyd olunub. Onlar monqolların tərkibində Azərbaycana gəlmişdir. Naxçıvan ərazisində yaşayan cığataylar sonralar kəngərlilərin tərkibinə daxil olmuşdur. Qarabağ xanı Pənahəli xan onlardan bir qismini Qarabağa köçürdü. XVIII əsrin axırlarında isə Qubalı Fətəli xan Qarabağdan bəzi elləri, o cümlədən cığatayları Quba xanlığına yerləşdirdi (2, s.555). Bu müəllifdən fərqli olaraq İ.Şopen qeyd edir ki, XIX əsrdə Naxçıvanda kəngərlilərin bir qolu cığatay adlanırmış (52, s. 537). Şübhə yoxdur ki, türkdilli cığatay tayfasına məxsus döyüşçülər monqolların tərkibində Naxçıvana gəlmiş, Əlincənin alınmasında iştirak etmiş, bir qismi yaralanmış, yaxud vətəninə qayıda bilməmiş və Naxçıvan şəhərinin bu məhəlləsini özləri üçün yaşayış məskəni seçmişlər. Beləliklə, həmin yer Cığatay məhəlləsi kimi tanınmışdır. Məhəllə indiki Bazar dikinin aşağı tərəfində, 4 №-li məktəbdən Edilağa istiqamətində yerləşir. Qeyd edək ki, şəhər əhalisinin yaşlı nəsli sıradan çıxdıqca, məhəllə adı da unudulur.

**Çaparxanlı məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adıdır. Tədqiqatçıların yazdığına görə "Çaparxanlı məhəlləsi indiki Dövlət Dram Teatrının və onun ətrafında olan inzibati və yaşayış binalarının ərazisində yerləşib. Vaxtilə burada at çapmaq yarışları keçirildiyindən sonralar yaranan məhəllə belə adlandırılıb" (15,s.57). Bizcə, bu açıqlamada bir uyğun-

suzluq özünü göstərir. Əvvəla, məhəllənin ünvanı dəqiq müəyyənləşdirilməyib, ikincisi, dilimizdə at çapmaq, at yarışı keçirilən yer çapar yox, cıdır adlanır və Naxçıvan şəhərində çıdır sözü ilə bağlı Cıdırlı bağ (Cıdıllı bağ) məhəlləsi olub və Çaparxanlı məhəlləsindən aralı məsafədə yerləşib. Çaparxanlı məhəlləsi Naxçıvan şəhərində keçmiş post məntəqəsi yerləşən məhəlləyə deyilib və məhəllə indiki "Dədə Qorqud meydanı"nın arxa tərəfində "Naxçıvan market"in əhatə etdiyi ərazidə yerləşib. O dövrdə poçt, gömrük məntəqələri və jandarm idarəsi bu ərazidə yerləşirmiş. Məhəllənin adı çapar (qasid) sözü əsasında yaranıb. Çapar "atla bir yerə məktub, əmr, xəbər aparıb-gətirən şəxs, qasid, yamçı" mənası, Çaparxana isə "çaparların poçt yolunda bir-birini əvəz etmək və ya atlarını dəyişdirmək üçün durduqları yer, poçt məntəqəsi" anlamı bildirir (3,s. 444). Deməк, vaxtilə Naxçıvan şəhərində poçt məntəqəsi yerləşən məhəllə Çaparxana adlanıb və bu ad danışıq dilində Çaparxanlı şəklinə düşüb.

**Çəmən məhəlləsi.** Naxçıvan şəhərində keçmiş məhəllə adıdır. Məhəllə indiki 7 №-li orta məktəbin qarşı tərəfindən Həmkarlar İttifaqının binasına tərəf ərazidə yerləşirmiş. Məhəllədə yeraltı sular (xüsusən Bazar çayından çəkilən arxlardan süzən sular) çox olduğundan XX əsrin 1950-60-cı illərinə qədər bura əkin yeri, çəmənlik olmuş, sonralar şəhərin inkişafı ilə əlaqədar ərazidə yaşayış evləri, küçə və döngələr salınmış və məhəlləyə ərazinin bitki örtüyünə görə Çəmən (Çimən) məhəlləsi adı verilmişdir.

**Çənlibel məhəlləsi.** Naxçıvan şəhərində yeni məhəllə adıdır. Bu ad Naxçıvan şəhər XDS İK-nin 15 oktyabr 1989-cu il tarixli, 585 №-li qərarı ilə "Yeni Naxçıvan" yaşayış massivindəki 10 №-li məhəlləyə verilmişdir. Məhəllə Əziz Əliyev küçəsinin kəsişməsindən (Gəlinqaya şadlıq sarayının yanından) Naxçıvançaya qədər olan ərazini əhatə edir. Adın mənşəyi xalq qəhrəmanı Koroğlunun şərəfinə onun məskən saldığı

Çənlibel adından götürülmüşdür. Çənlibel məhəllə adı Bist kəndində (Ordubad rayonu) də mövcuddur.

**Dabbaqxana məhəlləsi.** Naxçıvan şəhərindəki bu məhəllə adı sənət və peşə adı əsasında yaranmışdır. Məhəllə indiki 11 №-li orta məktəbin arxa tərəfindəki Dabbaqxana çeşməsi və tarixi-memarlıq abidəsi olan Buzxana ətrafında yerləşirmiş. Dabbaqxana qədim naxçıvanlıların dəri aşılamaq, göndən müxtəlif materiallar (qayış, yəhər, yüyən və s.) hazırlamaqla məşğul olduğunu təsdiqləyir. Hazırda Dabbaqxana məhəllə adı unudulub, ancaq eyniadlı çeşmə fəaliyyətdədir.

**Dabbaqxana məhəlləsi.** Ordubad şəhərində adı passiv fonda keşmiş məhəllə adıdır. Mənbələrin məlumatına görə xanlıqlar dövründə Ordubad şəhərində gön-dəri emalı geniş yayılmış, "şəhərdə 12 dabbaq emalatxanası fəaliyyət göstərmiş və digər şəhərlərdən fərqli olaraq bu emalatxanalar şəhərin ortasında tikilmiş və bu ərazi "Dabbaqxana küçəsi" adlandırılmışdı" (34,s.104). Məlumdur ki, Dabbaqxanalar adətən, su bol olan yerdə yerləşir və belə emalatxanalara "karxana"da deyilirmiş. Şəhərdəki Dabbaqxanalar yerləşən ərazi Dabbaqxana məhəlləsi adı ilə tanınsa da, bu gün həmin məhəllə və ya küçə adına təsadüf olunmur.

**Dədə Qorqud meydanı.** İndiki "Təbriz" mehmanxanasının qarşısında yerləşən Dədə Qorqud meydanı Naxçıvan şəhərinin əsas meydanlarından biridir. Son 100 ildə meydanın adı bir neçə dəfə dəyişdirilmiş, 1920-ci ilə kimi buraya *Gömrükxana meydanı,* 1930-cu ilə kimi *Sovnarkom meydanı* 1930-cu ilin iyun ayından *17-lər meydanı,* bir müddət sonra *Xırda bağ,* 1980-ci illərdə isə *Təbriz meydanı* adlandırılmışdır.

1997-ci il aprelin 20-də ümummilli lider Heydər Əliyevin "Kitabi Dədə Qorqud" eposunun 1300 illiyinin qeyd edilməsi haqqında» imzaladığı fərmana uyğun olaraq Naxçıvan MR Ali Məclisinin Sədri V.Talıbovun imzaladığı Sərəncama əsasən, 1999-cu ildə meydanda Oğuz elinin ağsaqqalı Dədə

Qorqudun şərəfinə abidə ucaldılmış və ərazi Dədə Qorqud meydanı adlandırılmışdır.

**Naxçıvan şəhərində "Dədə Qorqud" meydanının salınması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin**

## SƏRƏNCAMI

1. Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində Təbriz küçəsi ilə Azadlıq prospektinin kəsişdiyi sahədəki meydan "Dədə Qorqud meydanı" adlandırılsın.

2. "Dədə Qorqud" meydanının milli arxitekturaya uyğun tematik planı hazırlansın.

3. Meydanda "Dədə Qorqud"a abidə qoyulsun.

Naxçıvan Muxtar Respublikası Ali
Məclisinin Sədri: V.TALIBOV
09 mart 1999

**Dəlilər məhəlləsi.** Naxçıvan şəhərində XX əsrin 40-50-ci illərinə qədər əhali arasında işlənən məhəllə adıdır. Məhəllə adına ədəbiyyatşünas alim M.C.Cəfərovun "Xatirələr"ində past gəlinir. Müəllif yazır ki, "Möminə xatun məqbərəsindən yuxarı şəhərin ən uca yeri Dəlilər məhəlləsi idi. Orda yaşayanlar boylu-buxunlu olmaları ilə başqa məhəllələrin adamlarından seçilirdilər. Məhəllə igidləri, bir də gözəl cüvənəzənləri (qız-gəlinləri) ilə məşhur idi. Kənara qız verməzdilər. Onların bir nəfərinə də artıq-əskik söz deyən olmazdı. Birini incidən olsaydı, bütün məhəllə ayağa qalxardı. Sənətləri maldarlıq, əkinçilik, qoyunçuluq və arabaçılıq idi. Faytonçu da var idi. Dəlilər məhəlləsi minik atları ilə məşhur idi. Ağır təbiətli, zəhmətkeş, işlək adamlar idi. Orda dəli görən olmamışdı, bəs nəyə görə Dəlilər məhəlləsi deyirdilər başa düşmək olmurdu (29, s. 83). Bu məlumatdan aydın olur ki, məhəllə Möminə

xatun məqbərəsindən yuxarı şəhərin ən uca yeri olan indiki Nizami küçəsinin sağ tərəfi, köhnə bazarın ətrafında yerləşirmiş. Məhəlləyə orada yaşayan əhalinin adət-ənənəsinə, xarakterinə, davranış qaydalarına görə ad verilmiş və tədricən unudulub sıradan çıxmışdır.

**Dəmirçilər məhəlləsi.** Naxçıvan şəhərində keçmiş məhəllə adıdır. Pirqəmiş məscidinə yaxın ərazidə yerləşən məhəllədə emalatxanalar, dəmirçi kürələri olmuş, sənətkarların bir qismi bu məhəllədə yaşamışdır. Məhəllədə fəaliyyət göstərən emalatxanalarda araba və fayton hissələri, oraq, çəkic, dəryaz, qapı həngamələri, kənd təsərrüfatı alətləri üçün dəmir hissələr, məişət əşyaları və müxtəlif sənətkarlar üçün dəmir avadanlıqlar hazırlanırmış. Belə emalatxanalara həm də "dəmirçi karxanası" da deyilirmiş.

**Dəvəlilər məhəlləsi.** Naxçıvan Muxtar Respublikası ərazisində Dəvəli, Dəvəlilər, Dəvəçi və Dəvəçilər adlı etnonim və urbanonimlər mövcuddur. Buna da səbəb vaxtilə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının təsərrüfat həyatında dəvəçiliyin inkişafı, minikdə və yükdaşımada, İran, Türkiyə və digər ölkələrlə ticarət əlaqələrinin genişlənməsində dəvədən çox istifadə edilməsi olmuşdur. Ona görə də bölgədə dəvə adı ilə bağlı adlar da çoxalmışdır. Xalq arasında Dəvəli sözünün mənşəyi həm qədim Azərbaycan torpağı olan Ermənistandakı eyniadlı kənddən köçüb gələn tayfa adı, həm də əhalinin dəvəçiliklə məşğuliyyəti ilə bağlı açıqlanır. Fikrimizcə, hansı ərazidə yerləşməsindən asılı olmayaraq, Dəvəli, Dəvəlilər, Dəvəçi və Dəvəçilər adlarının mənşəyi peşə və məşğuliyyətlə, dəvəçiliklə bağlı yaranmışdır. Şərur rayonunun Xanlıqlar və Zeyvə kəndlərindəki Dəvəli məhəlləsi və Axaməd kəndindəki Dəvəlilər məhəllə adları da bu qəbildəndir.

**Dilbər məhəlləsi.** Ordubad şəhərində məhəllə adıdır. Məhəllə tarixi-memarlıq abidəsi olan Dilbər məscidinin adı ilə bağlı yaranmışdır. Mənbələrdə Dilbər məscidinin XVIII əsrdə

tikildiyi və Ordubad xalq yaşayış evləri ilə uyğunluq təşkil etdiyi göstərilir (38, s. 203).

**Dizə məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adıdır. Dizə sözü bir çox türk dilləri, o cümlədən Azərbaycan türkcəsində "kənd", "yaşayış məskəni" mənasında açıqlanır. Qədim və Orta əsrlərdə Naxçıvanın ayrı-ayrı nahiyələrində dizə və dizə komponentli yaşayış məntəqələrinin sayı çox olmuşdur (48, s. 186, 228, 235). Naxçıvan şəhərindəki Dizə məhəlləsi də həmin kəndlərdən köçüb gələnlər tərəfindən salınmışdır. Dizə məhəlləsi Böyük bağın alt tərəfindən indiki Avtovağzala tərəf gedən yolun ətrafını əhatə edir.

**Düz məhəlləsi.** Ordubad şəhərində məhəllə adıdır. Məhəlləyə ad ərazinin relyef quruluşuna görə verilmişdir.

**Əcəmi Naxçıvani məhəlləsi.** Naxçıvan şəhərində yeni məhəllə adıdır. Naxçıvan şəhər XDS İK-nin 15 oktyabr 1989-cu il tarixli qərarı ilə Əliabad qəsəbəsinə Əcəmi Naxçıvani məhəlləsi adı verilmişdir. Antroponim səciyyəli bu ad Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin (XII əsr) adı əsasında yaranmışdır.

**Əcəmi Naxçıvani seyrəngahı.** Naxçıvan şəhərinin əsas meydan və seyrəngahlarından birinin adıdır. Seyrəngah Möminə xatun məqbərəsi ilə Qızlar bulağı ətrafındakı ərazini, Nizami küçəsinin sağ tərəfini əhatə edir. Kompleks 1980-82-ci illərdə bərpa və inşa edilmişdir. Seyrəngaha ulu öndərimiz Heydər Əliyevin 1983-cü ildə qoyulmuş büstü, XII əsrdə (1186-cı ildə) inşa edilmiş məşhur Möminə xatın türbəsi, XVIII-XIX əsrlərə aid Xan Sarayı, Qızlar bulağı tikinti kompleksi xüsusi gözəllik verir. Meydan ətrafında Azərbaycan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr Naxçıvaninin abidəsi qoyulmuş və seyrəngah onun adı ilə adlandırılmışdır.

**Əlixan məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adıdır. Məhəllə Hüseyn Cavidin məqbərəsi, ev muzeyi və 5 №-li məktəbin ətrafını əhatə edir. Məhəllə adı kəngərlilərə məxsus

tayfa başçısı Əlixan şəxs adına mənsubluq, aidlik bildirən -lı şəkilçisinin artırılması yolu ilə yaranmışdır. Əlixanlı tayfası "Deyhanlı, Hümbətli, Orta qışlaq, Güllüqışlaq, Yarlı qışlaq, Yazı qışlaq" kimi tirələrə ayrılmış (6, s.20) və bu tirələr də kəngərlilərə məxsus ərazilərdə yaşamışlar. Əlixanlı məhəllə adının kəngərlilərə məxsusluğunu XVII-XX əsrlərə aıd bir çox tarixi mənbələr də təsdiqləyir.

**Əlincə məhəlləsi.** Naxçıvan şəhər XDS İK-nin 15 oktyabr 1989-cu il tarixli qərarı ilə şəhərdəki 2-ci mikrorayon yaşayış massivinə - Atabəylər məhəlləsinin kəsişməsindən (9 mərtəbənin yanından) Əliqulu Qəmküsar küşəsinin kəsişməsinə (Dəmiryol vağzalına) qədər olan əraziyə Əlincə məhəlləsi adı verilmişdir (55). Məhəllə adı məşhur Əlincə qalasının adından götürülmüşdür.

**Əngəc məhəlləsi.** Ordubad şəhərində məhəllə adıdır. Bu məhəllə adını məhəllələr sırasına Ə. Salamzadə və K.Məmmədzadə əlavə etmişdir. Müəlliflər yazır ki, "İ.Şopen XIX əsrin birinci yarısında şəhərin beş hissəyə bölündüyünü qeyd etmiş və onları *Anbaras, Kürdətal, Mingis, Sərşəhər, Üçtərəngi* adlandırmışdır. Görünür qeyd olunan adlar həm də şəhərin əsas məhəllələrini təyin edirdi, buraya habelə Əngəc məhəlləsini də əlavə etmək lazımdır (38,s.82). Əngəc sözü ərəbcə "xaraba, viranə, tör-töküntü" deməkdir (22, s.188). Ehtimal edirik ki, şəhərin keçmiş xarabalıqları abadlaşdırılmış və salınan yeni məhəlləyə ərazinin adı verilmişdir.

**Ərsəni məhəlləsi.** Naxçıvan şəhərində mövcud olmuş və adı yaddaşlardan silinmiş məhəllə adıdır. Bu ada XVI-XVIII əsrlərə aid qəbalə sənədlərində təsadüf olunur (39,s.79). Sənəddən aydın olur ki, məhəllə şəhərdəki Qaraçuq məhəlləsinin yanında, Xeyrabad bağına yaxın ərazidə yerləşirmiş. Ehtimal edirik ki, Ərsəni sözü "meydan, sahə", "qiyamətdə dirilən ölülərin toplanacağı meydan" mənasında işlənən ərəb mənşəli

Ərəsat (22, s.191) sözünün fonetik dəyişikliyə uğramış variantıdır.

**Əsgərxan meydanı.** Ordubad şəhərində meydan adıdır. Meydan ətrafında keçmiş mədrəsə və məktəb binaları vardır. Trapes şəklində olan meydan adı antroponim mənşəlidir.

**Gomayıl məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adlarından biridir. Məhəllə Sarvanlar məhəlləsi ilə yanaşı ərazidə yerləşir. İndiyə qədər gomayıl sözü tədqiqata cəlb olunmadığından xalq arasında toponimin mənşəyi ilə bağlı müxtəlif fikirlər yaranmışdır. Məhəllə adının mənşəyinə toxunan N.Məmmədova yazır ki, "XII əsrdən mövcud olan, Gomayıl adı kom ailə - "həmişə bir yerdə, bir ərazidə yaşayan" deməkdir. Tarixən bu tayfanın adamları bir-birindən ayrılmamış, bir ailə şəklində, şəhərin bir hissəsində məskunlaşmış və tayfa adlarını yaşadıqları eyniadlı məhəllə adında mühafizə edib saxlamışlar" (32,s.44). Buna bənzər fakt digər mənbədə də əksini tapır: "Məhəllə sakinlərinin İrəvan çuxurundan köçüb gəlmələri ehtimal olunur. 1937-ci il siyahıyaalınmasında bu məhəllədə yaşayanların 70-75 faizinin "İsmayılov" soyadlı olduqları müəyyən edilmişdir ki, bu da onların bir tayfaya mənsub olmaları ehtimalını gücləndirir" (2,s.229). Naxçıvan şəhərində tayfaya məxsus ailələrin bir məhəllədə yaşaması faktını inkar etmək olmaz. Ancaq tədqiqat sübut edir ki, Gomayıl sözünün mənşəyi kəngərlilərin gomai tayfasının adı ilə bağlıdır. Bu tayfa adı XVII-XVIII əsrlərdən üzü bəri mənbələrdə qeydə alınmış və kəngərlilərə məxsus bir qol olması təsdiqini tapmışdır (50, s. 29). Gomai sözü canlı danışıq dilində fonetik dəyişikliyə uğrayaraq Gomayıl şəklinə düşmüş, uzun illər xalqın hafizəsində tayfa və məhəllə adı kimi yaşamışdır. Naxçıvan şəhər XDS İK 15 oktyabr 1989-cu il tarixli qərarı ilə Gomayıl məhəllə adı rəsmiləşdirilmişdir (55). Bu tayfaya məxsus ailələrin əsas hissəsi Naxçıvan şəhərində, bir qismi isə Culfa rayo-

nunun Saltaq kəndində yaşayır və tayfa adlarını qoruyub saxlayırlar.

**Gömrük meydanı.** Naxçıvan şəhərində qədim meydanlardan birinin adıdır. Meydan Zaviyyə məscidi və indiki Dədə Qorqud heykəlinin ətrafında yerləşirmiş. XX əsrin əvvəllərində təşkil olunan şəhər Gömrük idarəsinin binası bu ərazidə yerləşdiyi üçün buraya Gömrük meydanı adı verilmişdir.

**Göyalı məhəlləsi.** 1590-cı ildə Naxçıvan şəhərində qeydə alınmış məhəllə adıdır (25, s.19). Məhəllənin yerləşdiyi ərazi və şəhər daxilindəki istiqaməti məlum deyil, adın mənşəyi də açıqlanmayıb. Bəzi qondarma fikirlərə görə adın mənşəyi göycə, albalı (alı) meyvə adı ilə bağlıdır. Biz bu fikri inandırıcı sayırıq ki, məhəllə adı antroponim mənşəli olub Göyalı şəxs adı əsasında yaranmışdır.

**Hacı Abutalıb meydanı.** Ordubad şəhərinin Sərşəhər məhəlləsində kiçik meydan adı antroponim mənşəlidir. Hər tərəfdən tut ağacları ilə əhatələnmiş meydan bərabərtərəfli üçbucaq şəklindədir.

**Hacıbəy məhəlləsi.** 1590-cı ildə Naxçıvan şəhərində qeydə alınmış məhəllə adıdır (25, s.19). Mənbələrdə rast gəldiyimiz məhəllə adı o dövrdə yüksək mənsəb sahibi, tayfa ağsaqqalı olmuş Hacıbəy şəxs adı əsasında yaranmışdır.

**Hacıvar məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adıdır. Məhəllə şəhərin tərkibinə daxil olan Xətai kəndi istiqamətində çox da böyük olmayan bir sahəni əhatə etmiş və *Yeni Hacıvar* adı ilə tanınmışdır. 1920-ci illərin əvvəllərində məhəllədə tikinti quruculuq işləri aparılmış və buraya *Sultanabad* adı verilmişdir. Sovet hakimiyyətinin ilk illərində kənd *Sovetabad,* 1990-cı ildə isə *Xətai* adlandırılmışdır.

**Həsənalı bəy məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adı Kəngərlilərə məxsus tayfa başçısı, yüksək nüfuz sahibi Həsənalı bəyin adı əsasında yaranmışdır. Sovet hakimiyyəti illərində məhəllə adı yasaq edilərək sıradan çıxmış, ancaq

Naxçıvan şəhər XDS İK-nin 17 may 1990-cı il tarixli, 202 № li qərarı ilə yenidən bərpa edilmişdir.

**Hacı Novruzağa məhəlləsi.** XIX əsrə aid mənbələrdə Naxçıvan şəhərində qeydə alınmış məhəllə adıdır. Bu ad kəngərlilərə məxsus tayfa başçısı, Hacı Lütfəli Soltanın oğlu Novruz ağa Kəngərlinin adı əsasında yaranmışdır. Hacı Novruz ağa XIX əsrin əvvəllərində Kəngərli elinin vəkili, Naxçıvan şəhəri və ətraf ərazilərdə xeyli torpaq sahələri olan yüksək nüfuz sahibi imiş (39, s. 78). Onun yaşadığı məhəllə Hacı Novruzağa məhəlləsi adlanırmış. XX əsrin əvvəllərində şəhərdə aparılan quruculuq və bərpa işləri ilə əlaqədar məhəllə ləğv edilmişdir.

**Xətai məhəlləsi.** Məhəllə keşmiş Xətai kəndinin Naxçıvan şəhərinin tərkibinə verildiyi vaxtdan məlumdur. Keçmiş kənd və indiki məhəllə adında Azərbaycan Səfəvi dövlətinin banisi, ictimai-siyasi xadim, görkəmli sərkərdə və şair, xalqın mənəvi rəhbəri Şah İsmayıl Xətainin (1487-1525) adı əbədiləşdirilmişdir. Məhəllə Ə.Əliyev küçəsinin kəsişməsindən (Diaqnostika mərkəzinin yanından Şıxmahmud kəndinə qədər) Xətai kəndinin yerləşdiyi ərazini əhatə edir.

**Hindizon məhəlləsi.** Hindizon Kolanı (Şahbuz) və Cəlilkənd (Şərur) kəndlərində məhəllə, Külüs kəndində (Şahbuz) isə arx adında özünü qoruyub saxlayır. Bu adın mənşəyi məlum deyil. Ehtimala görə Hindizon Nuh (Nuh-Hun) peyğəmbərin, yaxud da qədim Hun tayfasının adı ilə bağlı yaranmışdır. Ancaq bununla yanaşı, belə bir fikri məqbul saymaq olar ki, toponim Azərbaycanın bəzi dialekt və şivələrində "əkin yeri, çöl, tarla" mənasında işlənən "hənd" sözü ilə bağlı ola bilər. Əvvəlcə əkin yeri olan ərazidə yeni yaşayış məhəlləsi salındığı üçün obyektə Hindizon adı verilmişdir. Zon sözü "yer, məkan" anlayışı bildirir.

**Xeyrabad məhəlləsi.** Naxçıvan şəhərində qədimdən mövcud olan bu məhəllə adı XVI-XVIII əsrlərə aid mənbələrdə də əksini tapmışdır (39, s.79). Məhəllənin paralel adı Çuxur məhəllədir. Məhəllə indiki Kalba Musa çeşməsindən Edilağa gölünə tərəf olan sahəni əhatə edir. Yaşlı nəslin nümayəndələrinin söylədiyinə görə Xeyrabad xeyir (xeyirli, bərəkətli) və abad sözlərinin birləşməsi ilə əmələ gəlib, "bərəkətli, abad məhəllə" mənası bildirir. Bu fikirlə razılaşmaq olar, çünki məhəllə ərazisi daxil olmaqla Araza qədər torpağın məhsuldar, bərəkətli olması indi də məlumdur. Ona görə də məhəlləyə "xeyirli, abad" adının verilməsi mümkündür. Ancaq bu fikirlə bərabər, belə qənaətə gəlirik ki, Xeyrəbad - Xeyri şəxs adı və abad sözlərinin birləşməsi ilə yaranıb, "Xeyrinin abadlaşdırdığı yer, məskən saldığı məhəllə" mənasında işlənir. XVII - XIX əsrlərdə Naxçıvanda Xeyri şəxs adı məhsuldar şəkildə işlənib. Xeyrəbad məhəllə adı Naxçıvan şəhər XDS İK-nin müvafiq qərarı ilə (17 may 1990-cı il tarixli, 202 №li qərarı) yenidən bərpa edilmişdir.

**Xıncov məhəlləsi.** Naxçıvan şəhərində məhəllə adıdır. Məhəllə Babək və Şahbuz rayonlarından köçüb gələnlər tərəfindən salınmış və Sovet hakimiyyəti illərində "Oraq kolxozu" adlandırılmışdı. Hazırda şəhərin ən böyük məhəllələrindən biridir.R.Salayeva məşhur xalça ustası L.Kərimova əsaslanaraq yazır ki, Xıncab məhəllə adı Tehran şəhərindən 250 km cənubda Keşan şəhərinin yaxınlığında yerləşən Xəncan kəndindən köçüb gələnlər tərəfindən salınmış, məhəllə "Xıncab" və "Çuxur məhəllə" adları ilə tanınmışdır (49,s. 25). Fikrimizcə, məhəllə Babək rayonunun Xıncab kəndindən köçüb gələn ailələr tərəfindən salındığı üçün belə adlandırılmışdır. Ehtimal edirik ki, toponimin mənşəyi Naxçıvanın dialekt və şivələrində "bir ovuc", "əzik-üzük, ovulmuş", mənalarında işlənən xınc və ab sözlərinin birləşməsi nəticəsində yaranmışdır. Odur ki, Xın-

cab sözü "bir ovuc su", "ovulmuş daşlıqdan, çınqıllıqdan çıxan zinə su" mənasında açıqlanır (10, s.144).

**Xoşulu məhəlləsi.** Naxçıvan şəhərinin qədim məhəllə adlarından biridir. Toponimə XIX əsrə aid mənbələrdə də rast gəlinir (52, s. 447). Məhəllə Heydər Əliyev Muzeyinin arxa hissəsindəki yaşayış binalarının ətrafını əhatə edir. Xoşulu adının mənşəyi haqqında danışan R.Salayeva belə qənaətə gəlir ki, məhəllənin əsası Dağıstanın Dərbənd şəhəri yaxınlığındakı Tabasaran rayonunun Xoşnu kəndindən gələnlər tərəfindən salınıb (49, s. 25). Bu müəllifdən fərqli olaraq "Vətən dərdi" kitabının müəllifi N.Məmmədov yazır ki, Ordubad rayonu ərazisində Nuh peyğəmbərin adı ilə bağlı olan yerlərdən biri də "Xoşlu" dağıdır... "Xoşa gəlmək" mənasında başa düşülən Xoşlu adı Nuhun gəmisindən Gəmiqaya ərazisində yerə enib ilk məskunlaşan tayfalardan birinin adı ilə bağlıdır... Dağıstanın Xoşnu kənd sakinlərinin əcdadları da bu yerlərdən köç edən "Xoşlu" tayfasının nümayəndələrinin törəməsi ola bilər (30, s. 55-58). Bizim fikrimizcə, məhəllə və meydan adlarının heç biri kənardan gəlmə deyil. Bu adlar yerli sakinlərin mənsub olduğu nəsil, sülalə, tayfa adları, əhalinin peşə və məşğuliyyəti ilə bağlı yaranmışdır. Xoşulu məhəllə adı da kəngərlilərə məxsus tirə adı əsasında yaranmış toponimlərdən biridir. Bu məhəllədə yaşayanların əksəriyyəti bağçılıq və quzuçuluqla məşğul olurmuş (29, s.81).

**Xoylu məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adıdır. Məhəllə Qızlar bulağının Əcəmi seyrəngahına tərəf hissəsi, magistral küçənin sağ tərəfində yerləşir. İndi də yaşlı nəslin nümayəndələri həmin ərazini Xoylu məhəlləsi kimi tanıyır. Tədqiqatçıların fikrincə, məhəllənin əsası "XVIII əsrin axırlarında İranın Xoy şəhərindən gəlib indiki seyrəngahın (Əcəmi seyrəngahı nəzərdə tutulur-A.B.) bazar səmtində məskən salanlar tərəfindən qoyulmuşdur" (15, s. 58). Digər fikrə görə isə məhəllə Xok kəndindən (Kəngərli rayonu) gələnlər tərəfindən

salınmışdır. Fikrimizcə, hər iki halda məhəllənin əsası Xoylular tərəfindən salındığı üçün belə adlandırılmışdır. Onu da qeyd edək ki, İranın Xoy əyalətindən Xok kəndinə gələnlərin sayı da çox olmuşdur.

**Xuzəmərək məhəlləsi.** 1590-cı ildə Naxçıvan şəhərində qeydə alınmış məhəllə adıdır (25,s,19). Sonrakı mənbələrdə toponimə təsadüf olunmur. Məhəllənin şəhərin hansı istiqamətində yerləşməsi və adının mənası da dəqiq məlum deyil. 400 ildən artıq bir dövrdə şəhərin dəfələrlə dağılıb, yenidən bərpa olunması nəticəsində məhəllənin izi itirilmişdir. Ehtimal edirik ki, adın mərək komponenti ərəb dilində "dava meydanı, müharibə, döyüş, izdiham, qələbəlik" mənalarında işlənən mərəkə sözündəndir (22, s 360). Bu fikrə əsaslanıb deyə bilərik ki, məhəllə şəhərin izdihamlı, qələbəlik olan hissəsində yerləşirmiş. Toponimin xuzə hissəsinin mənası məlum deyil.

**Kəngərli məhəlləsi.** Naxçıvan şəhərində passiv fonda keçmiş məhəllə adıdır. Bəzi ehtimala görə, Möminə xatın məqbərəsi ilə Köhnə qala arasında yerləşən Qala məhəlləsinin bir hissəsi bu adı daşıyırmış. Kəngərli məhəlləsinin adı eyniadlı tayfa adı ilə bağlıdır. Vaxtilə Naxçıvanın əsas yaşayış sahəsi olan Möminə xatın türbəsi və Köhnə qala ətrafında yaşayan kəngərlilər məhəlləyə tayfa adlarını vermişlər.

**Kollu qala məhəlləsi.** XX əsrin 1930-1940-cı illərinə qədər Naxçıvan şəhərində mövcud olmuş məhəllə adıdır (54). R.Salayeva bu məhəllə adını "Kollu bağ" adı ilə təqdim edir və şəhərin cənub-şərq istiqamətində yerləşdiyini yazır (49, s. 23). Hazırda məhəllənin yerləşdiyi ərazi məlum deyil. Toponimin qala komponenti məhəllənin Köhnə qala ətrafında yerləşdiyini təsdiqləyə bilər. Ərazinin bitki örtüyü ilə bağlı verilmiş bu ad passiv toponimik fonda keçmişdir.

**Koroğlu meydanı.** Naxçıvan şəhərinin əsas meydanlarından biridir. Şəhərin şərq girəcəyində yerləşən meydana 1988-ci ildə xalq qəhrəmanı Koroğlunun adı verilmiş,

Naxçıvan şəhər XDS İK- nin 15 oktyabr 1989-cu il tarixli qərarı ilə ərazi Çənlibel məhəlləsi adlandırılmışdır. Məhəllədə Koroğlunun at üstündə bürüncdən heykəli ucaldılmış, son zamanlar meydanda böyük abadlaşdırma işləri aparılmışdır.

**Körpübaşı məhəlləsi.** Ordubad şəhərində məhəllə adıdır. Məhəllə yerləşdiyi ərazinin əlamətdar tikintisinə-ərazidəki körpünün yuxarı hissəsində yerləşdiyinə görə belə adlandırılmışdır.

**Künbəz məhəlləsi.** Naxçıvan şəhərində XII əsrdən mövcud olan məhəllə adlarından biridir. 1162-ci ildə tikintisi başa çatmış Yusif Küseyir oğlu türbəsinin ətrafını əhatə edən məhəllə indiyə qədər adını qoruyub saxlamışdır. Məhəlləyə ad tarixi-memarlıq abidəsi olan Yusif Küseyir oğlu künbəzinə görə verilmişdir.

**Kürdətal məhəlləsi.** Ordubad şəhərində Ordubadçayın sol sahilində yerləşən məhəllə adıdır. Bu ad mənbələrdə Kürdətar, Kürd tatar fonetik variantında da yazılmışdır. "Hazırda məhəllənin meydan şəklində düzəldilmiş mərkəzində məscid, bulaq və s. yerləşir. Məlumata görə Kürdətar məhəlləsinin meydanındakı çinar çox qədimdir. İ.Şopen Kürdətar meydanının dördkünclü olduğunu yazmış və şəhərin "ən yaxşı meydanı" adlandırmışdır (52, s.481.483).

**Qala məhəlləsi.** Naxçıvan şəhərinin ən qədim məhəllələrindən birinin adıdır. Bu ad 1590-cı ilə aid mənbələrdə qeydə alınsa da (25, s. 19), məhəllənin salınma tarixi həmin dövrdən xeyli əvvələ - Köhnə qalanın fəaliyyətdə olduğu dövrə aiddir. Ehtimal edirik ki, məhəllə Köhnə qala istiqamətində İmamzadənin ətrafında yerləşmiş və öz adını Köhnə qala kompleksindən almışdır. Məhəllə vaxtilə *Qala dibi məhəlləsi* kimi də tanınırmış. Qala məhəllə adı əhali arasında yaşamış, ədəbiyyatşünas alim M.C.Cəfərovun "Xatirələr"ində də əksini tapmışdır (29, s. 81). Naxçıvan şəhər XDS İk-nin 17 may 1990-cı

il tarixli, 202 №-li qərarı ilə Qala məhəlləsinin adı bərpa edilmişdir.

**Qala dibi məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adlarından biridir. Məhəllə Köhnə qaladan İmamzadə istiqamətində yerləşmiş və Qala məhəlləsinin bir hissəsini əhatə etmişdir. Məhəlləyə qala divarları ətrafında yerləşdiyi üçün belə ad verilmişdir. Hazırda bu məhəllə adı sıradan çıxmışdır.

**Qapan dibi məhəlləsi.** Ordubad şəhərində qədim məhəllə adlarından biridir. Məhəllə adı yerli əhalinin yaddaşında və bəzi mənbələrdə yaşayır. Görkəmli nasir M.S.Ordubadi atası Hacağa Fəqir Ordubadi haqqındakı xatirələrində məhəllə adını dilə gətirir: "Mən bazarı çox dolandım. Nəhayət, Mənsur ağa qapan dibindən gəldiyi vaxt əllaf Hacı Mirzə Ağababanın dükanının qabağında məktubu ona verdim" (27, s.65). Bu fakt sübut edir ki, XIX əsrin axırlarında şəhərdə Qapan dibi adlı məhəllə olmuşdur. Toponimin məna açımı ilə bağlı belə nəticəyə gəlmək olar ki, məhəllə əhalinin ticarət məşğuliyyəti ilə bağlı formalaşmış və şəhərin bazar və anbarları olan hissəsində yerləşmişdir. Məhəllə adı "ağır şeyləri çəkmək üçün böyük tərəzi mənasında işlənən (5, s.41) qapan sözü əsasında yaranmışdır.

**Qapan meydanı.** Naxçıvan şəhərində mövcud olmuş kiçik meydan adıdır. Meydan əhalinin ticarət məşğuliyyəti ilə bağlı formalaşmış və şəhərin bazar hissəsində yerləşmişdir. Burada satılan buğda, arpa, un, darı, noxud kimi məhsullar qapan tərəzisində çəkildiyi üçün meydana belə ad verilmişdir.

**Qaraçuq məhəlləsi.** Naxçıvan şəhərində adı passiv fonda keçmiş məhəllə adıdır. Məhəllə adına XVI-XVIII əsrlərə aid qəbalə sənədlərində rast gəlinir: "Yuxarıda qeydə alınmış qırx batman buğdalıq yer də daxil olmaqla özünün bütün şəri asılılığı ilə bərabər cənubdan magistral küçə, şimaldan Alicah Məqsud xanın həmin bağdan olan hissəsi, şərqdən Qaraçuq və Ərsəni (?) məhəllələri, qərbdən isə Əliməhəmməd ağanın yeri

ilə məhdud bağın bütünlüklə hamısına aid idi" (39, sənəd 15, s.. 79). Sənəddən məlum olur ki, satılan torpaq sahəsi Qaraçuq kəndi istiqamətində olub və Xeyrabad bağının kəhrizindən suvarılırmış. Xeyrabad bağı ilə həmsərhəd olan məhəllə Naxçıvan şəhərindən Edilağa gölünə tərəf istiqamətdə (Bu gölə Qaraçuq gölü də deyilirmiş) Qaraçuq kəndi baxarında yerləşmiş və öz adını da həmin kənd adından almışdır.

**Qarabağ meydanı.** Naxçıvan şəhərinin mərkəzi meydanlarından biridir. Meydana 1989-cu ildə Naxçıvan şəhər XDS İK müvafiq qərarı ilə Qarabağ adı verilmişdir. Meydan şəhər İcra hakimiyyəti və Azərbaycan MEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun binaları qarşısında yerləşir. Əvvəllər istirahət parkı olan ərazidə yenidənqurma və bərpa işləri aparılmışdır.

**Qaraağac məhəlləsi.** Naxçıvan şəhərində keçmiş məhələ adlarından biridir. Məhəllə Diaqnostika Mərkəzinin qarşı tərəfindən 5 №-li məktəb istiqamətində (indiki Uşaq bağçasının ətrafında) yerləşirmiş. Tədqiqatçıların yazdığına görə "məhəllə şəhərin ən böyük məhəllələrindən biri olmuş, 1918-ci ildə burada bir neçə yüz gənc silaha sarılıb and içmişlər ki, torpağımızın qarışını da belə Qərb dövlətlərinə, nə də ki, ermənilərə verməyəcəyik" (15, s. 58). Bu fakt məhəllənin şəhərin mərkəzi hissəsinə yaxın ərazidə yerləşdiyini sübut edir. Ehtimal edirik ki, məhəllə adı ərazinin bitki örtüyü əsasında yaranmışdır.

**Qaraçalı məhəlləsi.** Naxçıvan şəhərində adı passiv fonda keçmiş məhəllə adıdır. Toponim kəngərlilərin Qaracalı tayfa adı əsasında yaranmışdır. Qaracalı tayfası Naxçıvanın köklü sakinləri olmuş, XVII-XIX əsrlərə aid mənbələrdə bu tayfa haqqında məlumatlar verilmişdir (39, sənəd 1; 47, s. 32). Əsasən, Naxçıvan şəhərində yaşayan Qaracalı tayfasının nümayəndələri xanlığın ictimai-siyasi və təsərrüfat həyatında yaxından iştirak etmiş və yaşadıqları məhəlləyə tayfa adını vermişlər. Məhəllənin yerləşdiyi ərazi məlum deyil.

**Qarahindilər məhəlləsi.** Cəhri kəndində (Babək rayonu) məhəllə adıdır. Ciddi maraq doğuran toponimin mənşəyi dəqiq məlum deyil. Bəzi şifahi söyləmələrə görə toponim hind (hindlilər) adı əsasında yaranmış, "qarahindlilər" sözünün fonetik dəyişikliyə uğramış formasıdır. Ehtimalı edirik ki, toponim qədim türk hun tayfa adı ilə bağlı yaranmış, ilkin variantda Qarahunlular şəklində olmuş və fonetik dəyişikliyə uğrayaraq Qarahindilər şəklinə düşmüşdür. Qarahindilər adı qara və hindi (hunlu) sözlərindən ibarətdir. Burada qara sözü qədim türkcə olub «böyük, qüvvətli, qüdrətli», hindi (hunlu) sözü isə tayfa adı bildirir və ad qədim hun imperiyasının böyüklüyünə işarə kimi dərk olunur.

**Qaraxallı məhəlləsi.** Şərur rayonunun Siyaqut kəndində məhəllə adıdır. Şifahi söyləmələrə görə məhəllədə yaşayanların yanaqlarında qara xal olduğu üçün buraya Qaraxallılar adı verilmişdir. Fikrimizcə, məhəllə adı antroponim mənşəlidir. Yəni, Qaraxan şəxs adı və sözdüzəldici -li şəkilçisinin iştirakı ilə yaranan toponim assimilyasiya nəticəsində Qaraxanlı şəklindən Qaraxannı, sonra isə nn-ll dəyişməsi nəticəsində Qaraxallı şəklinə düşmüşdür. Qaraxan adlı şəxsin başçılıq etdiyi tayfa kəndin bir hissəsində məskunlaşdığı üçün məhəlləyə belə ad verilmişdir.

**Qızlar bulağı məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adıdır. Məhəllə Qızlar bulağının ətrafını əhatə edir və bu gün də öz adını yaşadır. Xalq ədəbiyyatında Qızlar bulağı adı daha çox əfsanə və rəvayətlərlə bağlı açıqlanır. Belə rəvayətlərdə öz namusu və qeyrəti uğrunda mübarizə aparan qız-gəlinlərimizin saf məhəbbəti tərənnüm edilir, dövrün ədalətsiz qanunları, kor-koranə sevgi nifrətlə yad edilir. Bu fikirdən fərqli olaraq Ə.Cavadov qız komponentli onomastik vahidlərin əsasən dağlıq ərazilərdə yerləşdiyini, dağ adları modelinə daxil olduğunu, dağ zirvəsində yerləşən hər hansı bir obyektin qız (zirvə) sözü ilə təyin olunduğunu və "zirvə", "dağ zirvəsi" mə-

nası kəsb etdiyini yazır (14, s. 125-126). Fikrimizcə, bulağa suyun saf, təmiz olmasına, su üstünə gələn qızların burada çox cəmlənməsinə, qayadan tumurcuqlanıb mirvari kimi süzülən suyun qızların darayıb arxasına tökdüyü saça bənzəməsinə görə Qızlar bulağı adı verilmişdir.

**Qoçüstü məhəlləsi.** Naxçıvan şəhərinin qədim məhəllələrindən birinin adıdır. Yerli əhali buraya Qoçaltı məhəlləsi də deyir. Qaynaqlarda toponimə rast gəlinməsə də, məhəllə tarixən mövcud olmuş və adını qoruyub saxlamışdır. Məhəllə Əziz Əliyev küçəsinin kəsişməsindən (Gəlinqaya şadlıq sarayının yanından) Bahadur Abbasov küçəsinin kəsişməsinə (Reyhan şadlıq sarayına) qədər olan sahəni əhatə edir. Məhəllə adı türk xalqlarının totem, onqon saydıqları qoyunla - ağ və qara qoçla bağlıdır. Məhəlləyə daşdan yonulmuş qoç heykəli və onun ətrafında keçirilən mərasimlərlə bağlı ad verilmişdir. Deyilənə görə, XX əsrin ortalarına qədər məhəllə camaatı müxtəlif tədbirləri, bayram şənliklərini burada keçirər, axır çərşənbələrdə qoç heykəlinin yanındakı çeşməyə su üstünə gələrmişlər. Məhəllə adı xalqın hafizəsində yaşamış və Naxçıvan şəhər XDS İK-nin 17 may 1990-cı il tarixli, 202 № li qərarı ilə rəsmiləşdirilmişdir.

**Qurdlar məhəlləsi.** Naxçıvan şəhərində ən qədim məhəllə adlarından biridir. Məhəllə yarandığı vaxtdan bu günə qədər adını qoruyub saxlamış və bir çox tarixi mənbələrdə əksini tapmışdır (52,s.447). XX əsrdə rəsmi yazışmalarda məhəllə adına yasaq qoyulsa da, bu ad xalq arasında yaşamış və Naxçıvan şəhər XDS İK-nin 17 may 1990 - cı il tarixli, 202 № li qərarı ilə məhəllənin tarixi adı bərpa olunmuşdur. Məhəllə adı "qədim türklərin özlərinin müqəddəs əcdadı, bələdçisi, qoruyucusu, xilaskarı, qələbə, xeyir-bərəkət, hakimiyyət gətirən ilahi qüvvə kimi tapındıqları qurdun (Boz qurd) adı ilə bağlı olduğu ehtimal olunur. Qurd obrazı müsbət mənada mifologiya və folklorumuzda geniş yayılmışdır. "Kitabi Dədə Qorqud" dasta-

nında Oğuzun Alp Əməni Qazan xan öz kökünü, soyunu qurdla bağlayır (26, s.353). Qurdlar qədim türk qəbilələrindən birinin adı olmuş və tədqiqatçılar tərəfindən daha çox etnonim kimi qəbul olunmuşdur. Çünki vaxtilə türk xalqları qurda ehtiram bəsləmiş və qurda tapınma nəticəsində tədricən toponim etnonimə çevrilmişdir. Qurd adı ilə bağlı Bakı, Təbriz, Şamaxı, Gəncə, Bərdə, Şuşa, Ordubad, Xaçmaz və s. kimi şəhər və rayon ərazilərində Qurdlar tayfası, Qurdlar kəndi, Qurdlar məhəlləsi, Qurdlar bulağı kimi onomastik vahidlər yaranmışdır (21, s. 23-24; 24,s.143-144; 47, s.62). Həmçinin Naxçıvan şəhəri, Şəhriyar, Qarxun, Muğancıq Müslüm (Şərur rayonu, Saltaq, Xoşkeşin, Teyvaz (Culfa rayonu), Üstüpü (Ordubad rayonu), Kolanı (Şahbuz rayonu) və Zeynəddin (Babək rayonu) kəndlərindəki Qurdlar məhəllə adları həmin tayfanın izini yaşadan urbanonimlərdir.

**Mahmudağa məhəlləsi.** Naxçıvan şəhərində XIX əsrdə qeydə alınmış məhəllə adlarından biridir. Məhəllə təxminən indiki M.Ə.Sabir küçəsindəki döngələrdən birini əhatə etmişdir. Mahmudağa tayfa ağsaqqalı, yüksək nüfuz və mənsəb sahibi olduğu üçün yaşadığı məhəlləyə onun adı verilmiş və toponim mənbələrdə öz ifadəsini tapmışdır. Mahmudağa kəhriz adı da məhəllə adı əsasında formalaşmışdır.

**Mingis məhəlləsi.** Ordubad şəhərində qədim və əsas məhəllələrdən birinin adıdır. Toponim yerli dialektdə Mingəs şəklində də tələffüz olunur. Məhəllənin mərkəzində iri çinar ağacı və IX əsrdən qalma ikimərtəbəli məscid binası vardır. Yerli əhalinin fikrincə, bu məsciddə min nəfər namaz qıldığı üçün adın mənası “min kəs” şəklində olmuş və canlı danışıq dilində Mingəs-Mingis şəklinə düşmüşdür. Digər bir fikrə görə isə məhəllə və məscid adları tarixin müəyyən dövrlərində ticarət əlaqələri, ictimai-siyasi və iqtisadi hadisələrlə əlaqələr Mingis adlanan şəhərdən (?) köçüb gələnlərlə bağlı yaranmışdır. M.Urudun yazdığına görə, “məhəllə adı qədim türkdilli minq-

min (mənbələrdə adı minqat kimi də çəkilir) tayfasının adını əks etdirir. VII-VIII əsrlərdə tokuz oğuz konfederasiyasına daxil olan minqlər XII-XIII əsrlərdə qıpçaqların, XIII-XIV əsrlərdə isə Qızıl Ordanın iri tayfa birləşmələrindən biri olmuş Əmir Teymurun yürüşlərində fəal iştirak edən minqlər müxtəlif ərazilərdə, o cümlədən Azərbaycanda məskunlaşmışlar" (42, s.251).

**Molla Əhməd məhəlləsi.** 1590-cı ildə Naxçıvan şəhərində mövcud olmuş məhəllə adıdır (25, s, 19). Naxçıvan şəhərinin dəfələrlə hücumlara məruz qalması, əsrlər boyu şəhərdə aparılan tikinti və yenidənqurma işləri nəticəsində məhəllə dağılmış, onun yerləşdiyi ərazi və məhəllənin adı hafizələrdən silinmişdir.

**Orta meydan.** Vaxtilə Naxçıvan şəhərində mövcud olmuş kiçik meydan adıdır. Meydan əhalinin ticarət məşğuliyyəti ilə bağlı formalaşmış və şəhərin bazar hissəsində yerləşmişdir. Meydanda əsasən, papaq, çust, postal, qalabaşmağı, naleyn, sap, ip, iynə, düymə, parça, çarıq və s. satılırmış. Meydana yerləşdiyi mövqeyə, Qapan və Saman meydanlarının arasında yerləşdiyinə görə belə ad verilmişdir.

**Oruc məhəlləsi.** XIX əsrdə İ.Şopen tərəfindən Naxçıvan şəhərində qeydə alınan məhəllə adıdır (52,s. 447). Məhəllə təxminən indiki M.Ə.Sabir küçəsi ilə kəsişən döngələrin birini əhatə etmiş və XX əsrin əvvəllərində şəhərdə aparılan tikinti işləri ilə əlaqədar ləğv olunmuşdur. Məhəllə kəngərlilərin tayfa (tirə) başçılarından biri olan Oruc şəxs adı əsasında yaranmışdır.

**Pirxamuş (Pirqəmiş) məhəlləsi.** Naxçıvan şəhərində qədimdən mövcud olan məhəllə adlarından biridir. Bəzi fikirlərə görə, vaxtilə yeraltı sularla bol olan bu sahə otlaq yeri olmuş və çoxlu qamış bitdiyi üçün məhəlləyə Pirqəmiş adı verilmişdir. Göründüyü kimi, inandırıcı olmayan bu fikir toponimin məna açımına uyğun gəlmir, çünki qəmiş sözünün məhəllə və

məscid adları ilə heç bir əlaqəsi yoxdur. Bizim fikrimizcə, məhəllənin ilkin adı Pirxamuş olmuş və fonetik dəyişikliyə uğrayaraq Pirqəmiş şəklinə düşmüşdür.

Pirxamuş fars dilindən alınmış çoxmənalı sözdür. Toponimin pir komponenti "təriqət banisi, təriqət başçısı", "ustad, başçı, müəllim" (22, s. 500; 5, s.604 ), xamuş sözü isə "susan, sakit, dinməz, hay-küydən, mübarizədən uzaq" mənaları bildirir (4, s.421; 22, s. 684). Deməк, Pirxamuş sözü "heç nəyə qarışmayan, hay-küydən uzaq, sakit, öz ideyalarının yayılması ilə məşğul olan təriqət başçısı, təriqət banisi, ustad" anlamında işlədilir. Digər tərəfdən Xamuş sözü XII əsrdə həm şəxs adı, həm də təxəllüs kimi işlənib. Sonuncu Azərbaycan Atabəylərindən olan Müzəffərəddin Özbək (1210-1225) və onun Məlikə xatundan olan oğlu Qızıl Arslan (1225-1229) Xamuş təxəllüsü ilə tanınırmış. Atasının ölümündən sonra (1225-ci il) Xamuş Naxçıvanın hakimi olur (13, s. 114, 125, 233) və onun tərəfdarları da xamuşilər adlandırılır. XII-XIII əsrlərdə Naxçıvanda xamuşilərin xüsusi mövqeyi olub. Onlar hay-küydən, mübarizədən kənara çəkilib ibadətlə məşğul olmaq, təriqətlərini inkişaf etdirmək məqsədilə özlərinə ibadətgahlar tikər və təkyələr deyərmişlər. Xamuşilərin əsas təkyə yeri Pirxamuş məscidi olub. Kim bilir, bəlkə də 1162-ci ildə Naxçıvanda şərəfinə abidə ucaldılan Yusif Küseyir oğlu xamuşilərin təriqət başçısı imiş. Vaxtilə belə möhtəşəm abidələr yalnız müqəddəs şəxslər və təriqət başçıları üçün tikilirmiş. Fikrimizi məqbərənin kitabəsində yazılmış: "Bu hörmətli rəis, etiqad möminі, İslamın gözəlliyi, şeyxlərin başçısı Yusif Küseyir oğlunun sərdabəsidir. Beş yüz əlli yeddinci ilin şəvval ayı" yazısı da təsdiqləyir. Təriqətçilər öz ustadlarının türbəsini ibadətgaha çevirmək məqsədilə burada məscid tikmiş və onu başçılarının şərəfinə Pirxamuş adlandırmışlar. Hazırda Naxçıvan şəhərində məhəllə və məscid adı daşıyan Pirqəmiş adı "xamuşilərin təriqət başçısı, təriqət banisi" mənasında işlənən Pirxamuş sözün-

dən törəyib. Şərur rayonunun Aralıq kəndindəki Pirqəmiş urbanonimi də eyniadlı təriqət adı əsasında yaranmışdır.

**Saat meydanı.** 2013-cü ilin avqust ayında Naxçıvan şəhərinin mərkəzində istifadəyə verilən parklardan biri Saat meydanı adlandırılmışdır. Meydana burada inşa olunan saat qülləsinə görə ad verilmişdir. Saat qülləsinin hündürlüyü 21 metrdir. Meydanda abadlıq işləri görülmüş, müasir park salınmış, dekorativ ağac, kol və müxtəlif gül növləri əkilmiş, avtomatik suvarma sistemi quraşdırılmışdır. Saat meydanı əhalinin sevimli istirahət yerlərindən biridir.

**Sallaqxana məhəlləsi.** Naxçıvan şəhərində sənət və peşə adı əsasında yaranmış keçmiş məhəllə adıdır. Məhəllə adında qədim türk sözü olan "sallaq" sözü mühafizə olunub və ilkin anlamını bu gün də saxlamışdır. Şəhərdə arabaçı, faytonçu işləyən, qəssablıqla məşğul olanların əksəriyyəti bu məhəllədə yaşadığı üçün məhəlləyə bu ad verilmişdir. Hazırda qoyun-quzu, mal-qara satılan yerə sallaqxana deyilir, amma bu ad məhəllə adı kimi unudulub.

**Saman meydanı.** Naxçıvan şəhər bazarında mövcud olmuş kiçik meydan adıdır. Meydanda saman, odun, kömür, neft və digər məhsullar satılırmış. Odur ki, meydana əhalinin ticarət məşğuliyyəti ilə bağlı ad verilmişdir.

**Sarvanlar məhəlləsi.** Naxçıvan şəhərində qədimdən mövcud olan bu məhəllə Kəngərli tayfasının Sarvanlar nəslinin adı ilə bağlıdır. Sarvanlar tayfası müxtəlif tirələrə bölünüb ayrı-ayrı ərazilərdə yaşasalar da, hər yerdə tayfa adlarını qoruyub saxlamışlar. T.Əhmədov müxtəlif elmi ədəbiyyata istinad edərək sarvan sözünün "İran mənşəli olduğunu, sar ("dəvə") və -van (isimlərə əlavə olunan və "qoruyan, mühafizə edən" mənası yaradan şəkilçi) komponentləri əsasında formalaşıb, "dəvəçi, dəvə saxlayan, dəvə mühafizəçisi, dəvə başı çəkən, dəvə sürən" mənası daşıdığını yazır (19, s. 74). Bu faktı Naxçıvan xanlığı dövründə "şəhər sənətkarlarının 56 nəfərinin

bu məhəllədə yaşaması" (34, s. 52), onların XX əsrin 40-50-ci illərinə qədər dəvəçilik, arabaçılıq və faytonçuluqla məşğul olmaları da təsdiqləyir.

**Sat dağı məhəlləsi.** Ordubad rayonunun Nüsnüs kəndindəki dağlardan biri Sat dağı adlanır. Oronim qədim türk sak tayfa adı əsasında yaranmışdır. Kənddəki Sat dağı məhəlləsi də (Sat dağı küşəsi də deyilir) həmin dağın ətəyindən başlandığına görə belə adlandırılmışdır. Ərazidə sak///saq tayfa adı ilə bağlı digər hidronim və oronimlərin mövcudluğu da fikrimizə dayaq durur.

**Seyid Hüseyn məhəlləsi.** 1590-cı ildə Naxçıvan şəhərində mövcud olmuş məhəllə adıdır (25, s,19). XVI əsrin sonlarında Seyid Hüseyn adlı şəxs tanınmış din xadimi, böyük nüfuz sahibi olduğu üçün yaşadığı məhəllə onun adı ilə adlandırılmışdır.

**Sərşəhər məhəlləsi.** Ordubad şəhərində məhəllə adıdır. Mənbələrdə əksini tapan bu adın birinci komponenti farsca "baş, kəllə, təpə, zirvə, başçı, rəis, uc, kənar" (22, s.552) mənalarında işlənən sər sözü əsasında yaranmışdır. Adın mənası "şəhərin yuxarı hissəsi" deməkdir. Hazırda məhəllənin meydan şəklində düzəldilmiş mərkəzində məscid, bulaq və digər tarixi-memarlıq tikililəri var. Məhəllə orta əsr məhəllələrinin gözəl örnəyi kimi keçmiş cəhətlərini qoruyub saxlamaqla, buradakı məscid, örtülü bazar bitkin kompleks təşkil edir (36, s.267). Yerli əhali Sərşəhər sözünü "məscidlərin başı" mənasında da açıqlayır. Bu ad məhəllənin yerləşdiyi ərazinin relyef quruluşuna görə verilmişdir.

**Sovnarkom meydanı.** Naxçıvan şəhərində qədim meydan adlarından biridir. Meydan İsmayıl xan hamamının ətrafında, indiki "Təbriz" mehmanxanasının qarşı tərəfində yerləşirmiş. XX əsrin 1920-1930-cu illərində Naxçıvan hökumətinin binası həmin ərazidə, Bazar çayın ətrafında yerləşdiyi üçün buraya Sovnarkom meydanı deyilmişdir. 1930-cu illərdən sonra

meydan adı "17-lər meydanı", sonra isə "Xırda bağ" adı ilə əvəzlənmişdir. Hazırda həmin ərazi "Dədə Qorqud meydanı" adlanır.

**Söyüdlü bilan məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adlarından biridir. Məhəllə adı XIX əsrin sonlarına qədər əhali arasında işlədilmiş və tədricən unudularaq yaddaşlara köçmüşdür. Əhalinin dediyinə görə Bazar çayından çəkilən arx məhəllədən keçdiyi və arx ətrafında söyüd ağacları əkildiyinə görə bura "Söyüdlü arx" da deyilmişdir. Mənbələrin məlumatına görə 1899-cu ildə böyük rus şairi A.S.Puşkinin anadan olmasının 100 illiyi münasibətilə Söyüdlü bilan küçəsinə onun adı verilmişdir. Küçə 1990-cı il hadisələrinə qədər A.S.Puşkinin adını daşımış, sonra küçənin bir hissəsinə İdris Məmmədov, digər hissəsinə isə Məmmədəmin Rəsulzadənin adı verilmişdir. 1993-cü ildə küçənin M. Rəsulzadə adlanan hissəsi İstiqlal adı ilə əvəzlənmişdir. Tədqiqatçıların yazdığına görə toponimin bilan hissəsi "ruscadakı plan sözünün təhrif olunmuş forması olub, "düz küçə" mənasında işlənir. Naxçıvanda indiki Puşkin küçəsinə Bilan deyərdilər - "Gəlin gedək bilana gəzməyə" (18, s.16). Əvvəlki yazılarımızda biz də toponimin mənasını "küçədəki söyüd ağaclarının çoxluğu ilə əlaqələndirmişik (11, s.357). Ancaq sonrakı tədqiqat sübut edir ki, məhəllə adının bilan komponenti qədim türk dillərində "məhəllə", "dəhliz", "küçə" mənasında işlənən balan//palan sözü ilə bağlıdır. Bakı şəhərində də bilan sözünün iştirakı ilə Zərgər palan məhəllə adı indi də işlədilir. Türk dilinin bəzi dialekt və şivələrində də palan sözü məhəllə mənasında açıqlanır. Şəmsəddin Saminin lüğətində "bilan - yüksək boğaz, Tağ sırtının alçaqca, lakin yerlə mürtəfi bir belindən keçən yol" şəklindədir (46, s.332). Hinduşah Naxçıvaninin "Əs-siyah əl-əcəmiyyə" adlı əsərində də balan sözü "dəhliz" mənasında təqdim olunur (53, s.112). Demək, belə nəticəyə gəlmək olur ki,

Söyüdlü palan məhəllə adı canlı danışıq dilində Söyüdlü bilan şəklinə düşmüşdür.

**Sufilər məhəlləsi.** Şərur rayonunun Dərvişlər kəndində məhəllə adıdır. Məhəllə adı vaxtilə Azərbaycan, Ermənistan və Türkiyədə geniş yayılmış Sufilər təriqətinin adı ilə bağlı yaranmışdır. Orta əsrlərdə Naxçıvanın Dərvişlər kəndində (Şərur) yaşayan Sufi təriqətinə məxsus ailələr təriqət adlarını bu günə qədər yaşatmışlar.

**Şahab məhəlləsi.** Naxçıvan şəhərinin ən qədim məhəllələrindən birinin adıdır. Məhəllənin yerləşdiyi ərazinin relyef quruluşu, döngə və tinləri, ərazidəki qədim abidələr məhəllənin qədim tarixindən xəbər verir və bu ad yüz illərdir ki, Şahab məscidi, Şahab məhəlləsi adlarında özünü qoruyub saxlayır. V.Qriqoryev və İ.Şopen XIX əsrdə Naxçıvan şəhərinin əsas kvartallarından birinin Şahab məhəlləsi olduğu haqda məlumat verirlər (48; 52). Tədqiqatçı Ə.Əliyev yazır ki, "Şahab məhəlləsi çox güman ki, ərazisində vaxtilə gur su, yaxşı su olmasına görə belə adlandırılmışdır. Şahab fars dilində "gur su, keyfiyyətli su" mənasında işlənir" (21, s. 24). Ə.Əliyevdən fərqli olaraq R.Salayeva Yusif Küseyir məqbərəsi ətrafında əhalinin uçan ulduzu müşahidə etdikləri üçün Şahab adını "падающая звезда", "метеор" mənalarında açıqlayır (49, s. 24). Fikrimizcə, Şahab sözünün mənşəyini "uçan ulduz" və ya "gur su" ilə bağlamaq özünü doğrultmur, çünki məhəllə adı kəngərlilərin Şahbanlular tayfasının adı əsasında yaranmışdır. Şahbanlular kəngərlilərin böyük tayfalardan biri olmuş və Naxçıvan şəhərində yaşamışlar (48,s. 32). Buna görə məhəlləyə Şahbanlular adı verilmiş və toponim canlı danışıq dilində tədricən Şahab şəklinə düşmüşdür.

**Şahingirey məhəlləsi.** Naxçıvan ərazisində əslən Krımdan olan, XIX əsrin II yarısı və XX əsrin ilk onilliklərində Naxçıvanda icarədarlıqla məşğul olan, bir müddət Naxçıvanda qəza rəisi işləmiş, su mühəndisi ata Şahingirey, sonra onun

işlərini davam etdirən oğul Şahingireyin adı ilə bağlı "Şahingirey malikanəsi", "Şahingirey kanalı" (Şərur rayonu), "Şahingirey məhəlləsi", "Şahingiri üzüm növü" (Dəstə kəndi, Ordubad) və s. kimi onomastik adlar qeydə alınmışdır. Ata Şahingirey II Kalbalı xanın vəsaiti hesabına Qanlıgölün su ehtiyatını artırmaq məqsədilə (Kükü kəndi, Şahbuz) layihə hazırlamış, sututar 1865-ci ildə istifadəyə verilmişdir. 1870-ci ildə onun layihəsi əsasında Şərur rayonu ərazisində 30 km məsafədən çəkilən kanalın tikintisi 1896-cı ildə başa çatdırılmış və onun adı ilə Şahingirey kanalı adlandırılmışdır. Kanaldan bu gün də istifadə olunur. Dəstə kəndindəki (Ordubad) Şahingirey məhəllə adı və üzüm sortu da həmin şahingireylərin adı ilə bağlıdır.

**Şəhidlər xiyabanı.** Bakı və digər şəhər və rayon mərkəzlərində salınmış Şəhidlər xiyabanlarında 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Vətənimizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda, eləcə də Qarabağ müharibəsi dövründə qəhrəmancasına vuruşaraq canlarını qurban vermiş şəhid oğullarımızın məzarları uyuyur. Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında da ərazi bütövlüyümüzün qorunmasında şəhid olmuş igidlərimiz dəfn olunmuş, onların adları qranit daşlar üzərində əbədiləşdirilmişdir. Şəhidlər xiyabanı naxçıvanlıların müqəddəs ziyarət yerlərindən biridir.

**Təkarmud məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adlarından biridir. Fitonim səciyyəli toponim məhəllədəki tək armud ağacının adı ilə bağlı yaranmışdır. Məhəllənin şəhərin hansı hissəsində yerləşməsi məlum deyil. Təkarmud məhəllə adı Culfa rayonunun Bənəniyar kəndində də mövcuddur.

**Təzəkənd məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adlarından biridir. XIX əsrdə İ.Şopen tərəfindən qeydə alınan bu məhəllənin digər adı Uzundivar olmuşdur (52, s. 447, 481, 483). Uzundivar adı məhəllədəki hansısa divarın əlaməti, forması, uzunluğu ilə bağlı yaranmışdır. Məhəllə Nehrəm və Qoşadizə kəndləri ilə həmsərhəd olan Təzəkənddən köçən ailə-

lər tərəfindən salınmışdır. Şəhərin yaşlı sakinləri (1970-ci illərin yaşlı nəsli nəzərdə tutulur- A.B.) məhəllənin yerini Şahab məhəlləsinə yaxın ərazidə olduğunu, Naxçıvançay istiqamətində yerləşdiyini təxmin edirdilər.

**Tizxiran məhəlləsi.** 1590-cı ildə Naxçıvan şəhərində mövcud olmuş məhəllə adıdır (25, s. 19). Ehtimal edirik ki, adın tiz komponenti farsca «iti, kəskin», «diribaş, əli iti», «sürətli, yeyin» (22, s. 648) mənasında ola bilər. Xiran sözünün mənası isə bizə məlum deyil. Məhəllə adına ancaq qeyd olunan mənbədə rast gəlinir.

**Üçtürəngə məhəlləsi.** Ordubad şəhərində məhəllə adıdır. "Məhəllə Gənzə çayının sahilindədir. XVIII əsrin əvvəllərindən Naxçıvan sancağının tərkibinə daxil olan Azadciran nahiyəsindəki Ordubad qəsəbəsinin məhəllələrindən biri kimi adı çəkilir. Hazırda məhəllənin meydan şəklində düzəldilmiş mərkəzində məscid, çeşmə, dükanlar və s. tarixi-memarlıq tikililəri var" (36, s. 341). Bəzi mənbələrdə və yerli əhali arasında toponimin Hüştürəngə, Üştürəngə variantları da işlədilir və adın mənşəyi "dəvələrin ləngərləndiyi yer", "dəvələrin saxlanıldığı yer" mənasında açıqlanır. (üçtür//şütür sözü - farsc dəvə deməkdir). Adın yaranma tarixi isə İpək Yolunun bir qolunun Ordubad şəhərindən keçməsi, bu yolda dəvələrdən geniş istifadə olunması ilə əlaqələndirilir. Məhəlləyə relyef quruluşuna, coğrafi mövqeyinə "üç döngə"dən ibarət olmasına görə ad verildiyi də iddia edilir. Adın mənşəyini Cənubi Azərbaycanın Üçtibin qəsəbəsinin adı ilə bağlı olduğunu da ehtimal etmək olar. Bizim qənaətimizə görə də məhəllə adının üçtur-şütür-uçtur (dəvə) sözü ilə əlaqələləndirilməsi daha ağlabatandır.

**Vağzal meydanı.** Naxçıvan şəhər dəmiryol vağzalının qarşısında yerləşdiyi üçün buraya Vağzal meydanı deyilir. Meydan 1908-ci ildə İrəvan-Naxçıvan-Culfa dəmir yolu çəkiləndən mövcud olmuş və ərazidə dəfələrlə yenidənqurma işləri aparılmışdır. Son zamanlar meydanda xalq qəhrəmanı Babək

əl-Xürrəminin at üstündə heykəli ucaldıldığı üçün buraya həm də Babək meydanı deyilir.

**Zaviyə məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adıdır. Məhəllə adı Zaviyə məscid adı əsasında yaranmışdır. Hazırda Azərbaycanda Zaviyə adlı dini bina təkcə Naxçıvan şəhərindədir. Zaviyə ərəb dilində çoxmənalı söz olub "bucaq, künc, guşə, zahidin ibadətlə məşğul olmaq üçün çəkildiyi tənha yer, təkyə, hücrə" mənalarında işlənir (22,s.207). Zaviyə "dərviş sufilərinin dini təbliğat evi"dir (16, s. 80). Bu söz fars mənbələrində "müqəddəs yer" mənasında işlədilir. Məlumdur ki, Orta əsrlərdə Naxçıvanda mövcud olan təriqət tərəfdarları məscidə getmir, özləri üçün ayrıca təkyələr tikir, orada yaşayır və zikrlə məşğul olurdular. Hürufi təriqətçiləri belə zikr yerlərini Xanəgah, bəktaşi və nəqşibəndilər isə Zaviyə adlandırırdılar. Hürifilərin ideologiyası sufilikdir. Bu sufilik ittifaqı və qardaşlığı Dərviş ordenləri adlanırdı. Həmin dövrdə Naxçıvanda Dərviş ordenlərinin bektasilik və nəqşiləndilik təriqətlərinin tərəfdarları daha çox yayılmışdır. Onlar bir guşəyə çəkilib ibadətlə məşğul olmaq üçün zaviyənişin olur və tikdikləri künbəzə-zikr yerlərinə Zaviyə adı verirdilər. "Bu tip xüsusi künbəzli tikintilər feodalizm dövrünün zaviyə və ya təkiyə adlandırılan dini müəssisələr qrupunu təmsil edirdi. Onlar dərviş təriqətinə mənsub olub, ömrünü ibadətə həsr etmiş dərvişlərin yaşayış binası olmuşdur" (38, s. 203). Naxçıvanda belə binaların tikintisi hələ Atabəylər dövründə mövcud imiş. "Bu dövrdə Naxçıvanın şihnəsi Seyfəddin Aybə Həccə gedib Məkkədən qayıtdıqdan sonra, Naxçıvanda öz hesabına məscidlər və zaviyyələr tikdirir və bütün əmlakını həmin müəssisələrə ianə verirmiş" (13, s.213). Deməк, Zaviyə məhəlləsinin tarixi də həmin dövrlərdən başlanır. XX əsrdə Zaviyə adı yasaq edilmiş, məscid binası müxtəlif məqsədlərlə istifadə olunmuşdur. Ancaq Zaviyə məhəlləsi adı xalqın hafizəsində özünü qoruyub saxlaya

bilmiş və Naxçıvan şəhər XDS İK-nin 17 may 1990-cı il tarixli, 202 №- li qərarı ilə məhəllə adı yenidən bərpa edilmişdir.

**Ziyilarx məhəlləsi.** Naxçıvan şəhərində qədim məhəllə adıdır. XIX əsrə aid mənbələrdə Ziyilyar adı ilə qeydə alınan (52, s. 447) məhəllə adı Naxçıvançaydan çəkilib şəhərin şərq hissəsindən keçən eyniadlı arxın adı ilə bağlı yaranmışdır. Ziyilarx İndiki Qonaq evinin yanından başlayıb 7 №-li məktəbin yanından Qoçüstü məhəlləsinə doğru axırmış. Yaşlı nəslin dediyinə görə arxa Zinə arx, Ziyilli arx da deyilirmiş. Birinci ehtimala görə əvvəlcə arxın suyu çox gur, ətrafı otlu-cəyənli, suyu həşəratlı oduğuna görə arxa Ziyilarx, arxın bir hissəsinə isə Ziyilarx məhəlləsi deyilmişdir. İkinci ehtimala görə isə məhəllə adı məşhur rəssam Bəhruz Kəngərlinin atası Şirəli bəyin əmisi Zili ağanın adı ilə bağlı olduğu güman edilir.

## Prospekt və küçə adları

Prospekt, küçə, döngə və dalan adları urbanonimlərin geniş yayılmış növlərindən biridir. Prospekt sözü latınca *prospestus* (görünüş, mənzərə) sözündən əmələ gəlib Azərbaycan dilində "şəhərdə böyük, enli və düz küçə" mənasında işlənir. Dilimizin izahlı lüğətində *küçə* sözü "yaşayış məntəqələrində iki sıra tikililər arasındakı açıq sahə, boş yer, yol" (4, s. 772), *döngə* sözü "küçənin, yolun, arxın və s.-nin dönən burulan yeri" (3, s. 681), *dalan* sözü isə "küçə qapısından həyətə gedən üstüörtülü və ya açıq yol", "iki qonşu ev arasında olan hər tərəfi həyət qapısına çıxan dar yol" (3, s.521) şəkillərində mənalandırılır.

Mənbələrin məlumatına görə Naxçıvan şəhərində küçələrə adların verilmə tarixi təxminən 115 il bundan əvvələ aiddir. Şəhərdə ilk küçə adı 1899-cu ildə tanınmış pedaqoq M.T. Sidqinin təşəbbüsü ilə böyük rus şairi A.S.Puşkinin anadan olmasının 100 illiyi münasibətilə verilmiş və dövlət orqanları

tərəfindən sənədləşdirilmişdir. Arxiv sənədləri sübut edir ki, 1920-ci illərdə Naxçıvan şəhərində aparılan quruculuq işləri nəticəsində şəhərdəki məhəllə, meydan və küçələrə yeni adlar verilmişdir. Bu faktı həmin dövrdə şəhərin plan quruluşunun müəyyənləşdirilməsi, əhalinin yaşadığı evlərin ünvanının dəqiqləşdirilməsi məqsədilə tutulan siyahılar da təsdiqləyir. Naxçıvan MR Mərkəzi Dövlət Arxivində 1923-1931-ci illərə aid "Naxçıvan şəhərindəki idarə və müəssisələrin adları və ünvanları", "Ev sahiblərinin siyahısı" adlı sənədlərdə idarə və müəssisələrin yerləşdiyi küçələr və şəhərdəki evlərin kimə məxsus olması, hansı küçə və dalanda yerləşməsi öz əksini tapır. Sənədlərdən aydın olur ki, 1923-1931-ci illərdə şəhərdə: *Azərbaycan, Dekabr, Oktyabr, Sadovıy, Myasnikov, 1 May, Komsomol, Poçt, Firdovsi, Kooperativ, Lomonosov, Puşkin, Çaparidze, Varovski, Həmid Sultanov, Tiflis, Engels, Promıslovaya, Vokzal, Lenin, Trotski, Atarbəyov, Şaumyan, Mogilov, Qoqol, Bakı, Qriboedov, Pioner, 26 Komissar, İnternasional, Lermontov, Sabir, Ağamalı, Tumbulovskaya, Əzibəyov, Oraq, Krasnaya, Komunar, Stalin və Nərimanov və s.* adlı küçələr varmış. 1928-ci ildə qeyd etdiyimiz küçə adları ilə yanaşı, *Muxtarov, Şəfiyev, Əlibayramlı, Şahab* adlı küçələr də sənədlərdə əksini tapmışdır (54).

Naxçıvan toponimiyasında mövcud olan belə coğrafi adlar sübut edir ki, sovet hakimiyyətinin ilk illərindən rəsmi sənədlərdə məhəllə və meydan adları tədricən sıradan çıxarılmış, küçələrə sovet quruluşu və ideologiyası ilə bağlı lüzumsuz adlar verilmişdir. Bu hal sonrakı illərdə də davam etdirilmiş, 1920-1990-cı illərdə Naxçıvan və Ordubad şəhərləri ilə yanaşı, bölgənin qəsəbə və iri kənd yaşayış məntəqələrində *Marks, Lenin, Kirov, Dzerjinski, Luksemburq, 28 Aprel, Maksim Qorki, Frunze, Klara Setkin, Engels, Babuşkin, Çelyuskin, Magilyov, Myasnikov, Şaumyan, Şmidt, II İnternasional, III İnternasional, Sərhədçilər, Atarbəyov,17-lər, Telman, Varov-*

*ski, Komuntern, Xəstəxana, Telefon, Papanin, Komsomol, Sərhədçilər, Paraşütçülər* və s. kimi onlarca küçə adları mövcud olmuşdur. Göründüyü kimi belə küçə adlarında yerli faktlar, ərazinin fiziki-coğrafi amilləri, relyef quruluşu, nəzərə alınmamış, əhali şəxsiyyətini, kimliyini tanımadığı bolşeviklərin adlarını gündəlik həyat fəaliyyətlərinə daxil etmiş, bu cür adları müsbət mənada qarşılamamışdır.

Ancaq XX əsrin 80-cı illərinin sonlarında Azərbaycanın ictimai-siyasi həyatında baş verən məlum hadisələr, son 20-25 ildə Naxçıvanda həyata keçirilən məqsədyönlü tədbirlər, dayanıqlı inkişaf milli-mənəvi dəyərlərimizə göstərilən dövlət qayğısı topoqrafik obyekt adlarına da öz müsbət təsirini göstərdi. Şəhər və qəsəbələrimizin aid təşkilatları bu məsələyə yenidən baxaraq prospekt və küçə adlarını bölgənin fiziki-coğrafi xüsusiyyətləri, tarixi hadisələri ilə bağlı adlarla əvəz etdi. Prospekt və küçələrə vətənin azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin, Milli qəhrəmanların, görkəmli sənət, elm və mədəniyyət xadimlərinin, bir sözlə, xalq arasında xidməti olan, xalq tərəfindən qəbul olunan şəxslərin adları verildi. Məsələn, Naxçıvan şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsi şəhər ziyalılarının, vetetanların, yaradıcılıq təşkilatlarının təklif və arzularını nəzərə alaraq 1989-cu il 15 oktyabr tarixli (525 № -li) qərar ilə Naxçıvan şəhərinin bir sıra küçə və məhəllələrinin adlarının dəyişdirilməsi haqqında qərar qəbul etdi. Qərara əsasən Çelyuskin küçəsinə böyük türk şairi *Nazım Hikmətin,* Myasnikov küçəsinə böyük Azərbaycan şairi *Məmmədhüseyn Şəhriyarın,* Magilyov küçəsinə Azərbaycanın ilk diplomatlarından biri, Ordubadda anadan olmuş *İbrahim Əbilovun,* Kommuntern küçəsinə Azərbaycanda Sovet hakimiyyətinin qurulub möhkəmləndirilməsində fəal iştirak etmiş, torpaq komissarı və sonradan repressiyanın qurbanı olmuş, general *Heydər Vəzirovun,* erməni daşnağı Şaumyanın adını daşıyan küçəyə Böyük Azərbaycan şairi, ilk Azərbaycan Döv-

lətinin yaradıcısı *Şah İsmayıl Xətainin,* Şmidt küçəsinə Sovet İttifaqı Qəhrəmanı *Nəcəfqulu Rəfiyevin,* III İnternasional küçəsinə Cənubi Azərbaycanda inqilabi hərəkatın rəhbərlərindən biri olan *Səttarxanın,* 17-lər küçəsinə Azərbaycanda demokratik hərəkatın rəhbərlərindən biri olan *Seyid Cəfər Pişəvərinin,* Sərhədçilər küçəsinə Naxçıvan internat məktəbinin məzunu, Əfqanıstanda beynəlmiləl borcunu yerinə yetirərkən həlak olmuş *İlqar Ələkbərovun,* Atarbəyov küçəsinə görkəmli filoloq, maarif xadimi professor *Əziz Şərifin,* Paraşütçülər küçəsinə *Məmməd Tağı Sidqinin,* Klara Setkin küçəsinə Naxçıvanın qadın şairlərindən biri olan *Qonçabəyimin,* Pioner küçəsinə Azərbaycanın qədim paytaxtı *Təbriz,* Respublika Mədəniyyət sarayından Koroğlu meydanınadək uzanan küçə *C.Məmmədquluzadının,* Alüminium qablar zavodundan Şüşə qablar zavodunadək olan küçə Azərbaycanın görkəmli maarifçisi, yazıçı *Əliqulu Qəmküsarın* adı verilmişdir (55).

Naxçıvan Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin "Naxçıvan şəhərindəki küçə və yaşayış məhəllələrinin adlarının dəyişdirilməsi, təşkilatlara yeni adların verilməsi barədə" 17 may, 1990-cı il tarixli 202 nömrəli qərarı ilə Naxçıvan şəhərindəki H.Əhmədov küçəsinə görkəmli şair *İslam Səfərlinin,* Lüksemburq küçəsinə Şərqin ən böyük mütəfəkkiri *Nəsrəddin Tusinin,* Telman küçəsinə Naxçıvanın keçmiş hakimi, İrəvanda azərbaycanlı uşaqları üçün ilk pansionat açan, mədəniyyətin və maarifin inkişafında böyük xidmətləri olan, 1865-ci ildə Qanlıgölü öz hesabına yenidən bərpa etdirən, general-mayor *Kalbalıxanın,* Varovski küçəsinə Azərbaycanın məşhur xalq hərəkatı liderlərindən biri olan *Şeyx Məhəmməd Xiyabanının,* Xəstəxana küçəsinə Naxçıvanın tanınmış maarif xadimi *Kazım Talıblının,* Papanin küçəsinə Naxçıvanda teatrın inkişafında böyük xidmətləri olan, Azərbaycan SSR xalq artisti *Səməd Mövləvinin,* Dzerjinski küçəsinə tanınmış aktyor, teatr xadimi, Azərbaycan SSR xalq artisti *İbrahim Həmzəyevin,*

Kirov küçəsinə görkəmli ictimai və siyasi xadim, Azərbaycan xalqının dostu *Mustafa Kamal Atatürkün,* Maksim Qorki küçəsinə Şərqin ən böyük filosofu, Eldənizlər dövləti üçün ilk qanun kitabını yazan *Nəcməddin Naxçıvaninin,* Tbilisi küçəsinə Bakıda fövqəladə vəziyyət elan olunması ilə əlaqədar dinc əhalinin faciəli şəkildə həlak olduğu gün - *20 Yanvar,* A.S.Puşkin küçəsinə Azərbaycan Demokratik Respublikasının yaradıcılarından biri, ictimai və siyasi xadım *M. Rəsulzadənin,* Frunze küçəsinə tanınmış maarif işçisi, Azərbaycan SSR əməkdar müəllimi *Mircəfər Mirişlinin,* 8 Mart küçəsinə Komsomol və partiya işçisi, şairə *Validə Hüseynovanın,* X.Hüseynov küçəsinə Azərbaycan Demokratik Respublikasının yarandığı gün - *28 May,* 206 № li hərbi hissənin qurtaracağından Su təsərrüfatı tikinti trestinin qarajınadək olan sahə filologiya elmləri doktoru, Azərbaycan ədəbiyyatşünaslığı və dilçiliyi sahəsində böyük xidmətləri olan *Fərhad Zeynalovun* adı verilmişdir (56).

Ordubad şəhərinin topoqrafik leksikasında da küçə adları mühüm yer tutur. Ordubadda "bütövlükdə elə bir şəhərsalma sistemi əmələ gəlmişdir ki, şəhərin nisbətən rahat relyefə malik olan mərkəzi rayonundan əsas küçələr relyefin artmasına riayət edərək radius istiqamətində ayrılmışdır. Bu küçələr indiyədək şəhərin planında öz müəyyənedici quruluş əhəmiyyətini saxlamışdır (38, s.78). Faktlar sübut edir ki, Sovet hakimiyyətinin ilk illərindən başlayaraq Ordubad şəhərində *Çaparidze, Dmitrov, Kirov, Telman, Komsomol, Kuybışev, Oktyabr* və s. kimi küçə adları dövriyyədə olmuşdur. Ancaq 1988-ci ildən başlanan ictimai-siyasi hadisələr zamanı həyatın və zamanın tələbinə uyğun olaraq bir qrup ordubadlı ziyalı "Yeni Ordubad" qəzetində şəhər rəhbərliyinə müraciət edərək həmin küçə adlarının dəyişdirilməsi təklifini irəli sürmüşdür. Ordubad Şəhər XDS İK-nin 30 oktyabr 1989-cu il tarixli qərarında ziyalıların arzu və təkliflərini, qoruq şəhərinin topoqrafik adlarının

tarixiliyini, milliliyini əsas şərt kimi qəbul edərək küçələrin qədim adlarının özünə qaytarılması, bir sıra küçələrə Ordubadın görkəmli şəxsiyyətlərinin adlarının verilməsi haqqında qərar qəbul etmişdir. Həmin qərara əsasən: şəhərdəki Çaparidze, Telman və Sovet küçələrinin adları ləğv edilmiş, həmin əraziyə *Anbaras küçəsi* adı verilmişdir. Şəhərdəki Dmitrov küçəsi – *Kürdətal küçəsi,* Qızıl əsgər küçəsi-*Mənsur ağa küçəsi,* Telman küçəsi-*Hatəm bəy Ordubadi küçəsi,* 1 May küçəsi-*Zeynalabdin Nəqqaş küçəsi*, Komsomol küçəsi-*Ümbül Leyla Axund küçəsi,* Kuybışev küçəsi - *Mingis küçəsi,* 8 Mart küçəsi-*Üçtürəngə küçəsi,* Oktyabr küçəsi- *C.Məmmədquluzadə küçəsi* adlandırılmışdır. Nizami küçəsinin başlanğıcından M. S.Ordubadi küçəsinin kəsişdiyi yerədək olan hissəyə - görkəmli türkoloq alim *Fərhad Zeynalovun,* Qafar Babayev küçəsinin Sərşəhər meydanından (yuxarıya) Nəriman Nərimanov küçəsinə qədər olan hissəsinə - Ordubadın bir çox tarixi memarlıq abidələrini bərpa edən, məşhur-bənna *Usta Haşımın,* Kirov küçəsinin başlanğıcından Sərşəhər meydanınadək olan hissəsinə Oğuz elinin ağsaqqalı *Dədə Qorqudun,* Kirov küçəsinin Sərşəhər meydanından yuxarı hissəsinə isə *Sərşəhər küçəsi* adı verilmişdir (57).

Ümumiyyətlə, 20 ildə muxtar respublukada aparılan tikinti və yenidənqurma işlərinin geniş vüsət aldığı bir dövrdə prospekt və küçə adlarına yenidən baxılmış, milli mənsubiyyətimizlə bağlı olmayan adlar sıradan çıxarılmış, şəhər və kəndlərin prospekt və küçə adları daha müasir adlarla zənginləşdirilmişdir. Hazırda Naxçıvan Muxtar Respublikanın şəhər, qəsəbə və kəndlərindəki prospekt və küçə adlarında aşağıdakı şəxslərin, ictimai-siyasi hadisələrin, tarixi günlərin adları əbədiləşdirilmişdir.

## Prospekt və küçə adları

01 sentyabr 2014-cü il tarixə olan məlumat

| | Prospekt və küçənin indiki adı | Məlumat | Keçmiş adı | İndiki adların verildiyi tarix |
|---|---|---|---|---|
| | | **Naxçıvan şəhəri** | | |
| 1. | Heydər Əliyev prospekti | Naxçıvan şəhərinin əsas və mərkəzi prospekti Azərbaycan Respublikasının görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri, Müstəqil Azərbaycanın qurucusu və memarı, ulu öndər Heydər Əlirza oğlu Əliyevin (1923-2003-cü illər) adını daşıyır. Prospekt Heydər Əliyev Sarayından Dördyol adlanan meydana qədər uzanır. | Azadlıq prospekti | Naxçıvan MR Nazirlər Kabinetinin 18.05.2004 - cü il tarixli, 49 № -li qərarı |
| 2. | Abbas Zamanov küçəsi | Şərur rayonunun Maxta kəndində anadan olmuş, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi Abbas Zamanov (1911-1993) görkəmli ədəbiyyatşünas alim, tərcüməçi, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak | | Naxçıvan MR NK-nin 12 oktyabr 2011-ci il tarixli, |

| | | | | |
|---|---|---|---|---|
| | | edən ictimai xadim olmuşdur. Naxçıvan MR Nazirlər kabinetinin müvafiq Sərəncamı ilə Əziz Əliyev küçəsinə paralel, 855 metr uzunluğunda olan 3-cü küçəyə (35-ci məhəllənin) 20 A məhəlləsinin 4-cü döngəsinə (Kazım Qara Bəkir paşa məscidinin yanından) görkəmli alim və pedaqoq Abbas Zamanovun adı verilmişdir. | | 89 № -li qərarı |
| 3. | Abbasqulu Şadlinski küçəsi | Naxçıvan şəhərində Heydər Əliyev prospekti ilə İstiqlal küçəsini birləşdirən küçəyə 1886-1930-cu illərdə yaşamış xalq qəhrəmanı, 1918-20-ci illərdə Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur ərazilərində erməni daşnaqlarına qarşı mübarizədə böyük qəhrəmanlıqlar göstərmiş, "Qırmızı tabor"un komandiri Abbasqulu bəy Şadlinskinin şərəfinə ad verilmişdir. | | |
| 4. | Afiyəddin Cəlilov küçəsi | 1946-1994-cü illərdə yaşamış, Azərbaycanın dövlət və ictimai-siyasi xadimi, Naxçıvan MR Nazirlər Sovetinin sədri, Naxçıvan MR Ali Məclisinin sədri, Azərbaycan Milli Məclisinin sədr müavini kimi məsul vəzifələrdə işləmiş, Afiyəddin Cəlilovun adını daşıyan küçə Atatürk küçəsinin kəsişməsindən (İran Konsulluğunun qabağından) | Oktyabr küçəsi | Naxçıvan MR NK-nin 05 yanvar 1996-cı il tarixli, 4 № -li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| | | Təbriz küçəsinin kəsişməsinə ("Təbriz" mehmanxanasının arxasına) qədər olan ərazidə yerləşir. | | |
| 5. | Atatürk (Mustafa Kamal) küçəsi | Əziz Əliyev küçəsindən başlayaraq Böyük bağa (Nizami küçəsinə) qədər uzanan küçəyə görkəmli ictimai xadim, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti (1923-1938), Azərbaycan xalqının böyük dostu Mustafa Kamal Atatürkün (1881-1938) adı verilmişdir. | Güllü küçə, Abbas Qasımov küçəsi, S.M.Kirov küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 6. | Azər Tarverdiyev küçəsi | Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Azər Tarverdiyevin adını daşıyan küçə M.Ə.Sabir küçəsinin kəsişməsindən (DSMF-nun arxasından) Təbriz küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | 26 Bakı Komissarı küçəsi | Naxçıvan şəhər XDS İK-nin 10 noyabr 1992-ci il tarixli, 728 № li qərarı |
| 7. | Azərbaycan küçəsi | Nizami küçəsinin kəsişməsindən (Ağamalıoğlu dikindən) Ə.Qəmküsar küçəsinin kəsişməsinə (Qaraxanbəyli kəndinin girəcəyinə) qədər olan küçəyə Azərbaycan adı verilmişdir. Bu ad Cənubi Qafqazda yerləşən, öz iqtisadi, siyasi potensialı, təbii ehtiyatları ilə öncül sıralarda gedən doğma | 35-ci, 22-ci. 20 A məhəllələri | 1923-cü ilə aid arxiv sənədlərində küçə adı əksini tapır. |

| | | | | |
|---|---|---|---|---|
| | | respublikamızın adı ilə bağlıdır. | | |
| 8. | Babək küçəsi | Babək küçəsi İslam Səfərli küçəsinin kəsişməsindən Nizami küçəsinin kəsişməsinə (Təhsil nazirliyinə) qədər olan ərazidə yerləşir. Küçəyə IX əsrin əvvəllərində Azərbaycanda hakim ərəb üsul-idarəsinə qarşı 20 ildən artıq (816-37) azadlıq hərəkatına rəhbərlik etmiş, 838-ci ilin əvvəlində edam edilmiş, Babək əl-Xürrəminin (795/798- 838) adı verilmişdir. | Babək küçəsi | |
| 9. | Bahadur Abbasov küçəsi | 1960-cı ildə Naxçıvan şəhərində anadan olmuş B.Abbasov 1992-ci ildə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan Sədərək döyüşlərində şəhid olmuşdur. Onun adını daşıyan küçə İ.Məmmədov küçəsinin kəsişməsindən (Pirqəmiş məscidinin arxasından) Cəlil Məmmədquluzadə küçəsinin kəsişməsinə (Reyhan şadlıq sarayının yanına) qədər olan ərazini əhatə edir. | Firdovsi küçəsi | Naxçıvan şəhər İH 18 noyabr 1994-cü il tarixli, 371 № li qərarı |
| 10. | Behbud ağa Şahtaxtinski küçəsi | Şahtaxtı kəndində anadan olmuş, görkəmli siyasi və dövlət xadimi, Naxçıvan İnqilab Komitəsinin, Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin sədri, Azərbaycan Xalq Fəhlə Kəndli Müfəttişliyinin Komissarı, Xalq Ədliyyə Komissarı, Xalq Komis- | Behbud ağa Şahtaxtinski küçəsi | |

| | | | | |
|---|---|---|---|---|
| | | sarlar Soveti sədrinin müavini və s. kimi vəzifələrdə işləmiş Behbud ağa Şahtaxtinskinin (1881-1924) adını daşıyan küçə Atatürk küçəsinin kəsişməsindən (Həmkarların binasının yanından) Əziz Əliyev küçəsinin kəsişməsinə qədər (Naxçıvan şəhər məhkəməsinin binası) ərazini əhatə edir. Behbud ağa Şahtaxtinski Moskva (1921) və Qars (1921) müqavilələrində iştirak etmiş, Naxçıvan Sovet Respublikasının təşkil olunmasında böyük işlər görmüşdür. | | |
| 11. | Bəhruz Kəngərli küçəsi | 1892-1922-ci illərdə yaşamış görkəmli Azərbaycan rəssamı, boyakar və qrafika ustası, portret və mənzərə janrlarının banisi Bəhruz Kəngərlinin (1892-1922) adını daşıyan küçə B.A.Şahtaxtinski küçəsinin kəsişməsindən (Cahan xeyir-şər evinin qabağından) Əziz Əliyev küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. B.Kəngərli Tiflisdə təhsil almış, Naxçıvan teatrında rəssam işləmişdir. Onun əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində, Moskvada Dövlət Tarix Muzeyində saxlanılır. Naxçıvan şəhərində B.Kəngərli adına Sərgi salonu və Ev Muzeyi fəaliyyət göstərir. | Bəhruz Kəngərli küçəsi | Naxçıvan şəhər ZDS İK-nin 13 avqust 1965-ci il tarixli, 238 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| 12. | 1 May küçəsi | Naxçıvan şəhərində küçə adıdır. Küçə Beynəlxalq Əmək Günü münasibətilə verilmişdir. | | Küçə adı 1923-cü ildə var imiş. |
| 13. | Cəlil Məmmədqul uzadə küçəsi | 1869-1932-ci illərdə yaşamış, yazıçı, dramaturq, jurnalist, ictimai xadim, məşhur "Molla Nəsrəddin" jurnalının naşiri və baş redaktoru Cəlil Məmmədquluzadənin şərəfinə verilmiş küçə Heydər Əliyev prospektinin kəsişməsindən (Müəllimlər İnstitutunun yanından) Koroğlu heykəlinin yanına qədər olan ərazini əhatə edir. | | Naxçıvan şəhər XDS İK-nin 15 oktyabr 1989-cu il tarixli, 525 № li qərarı |
| 14. | Cəmşid Naxçıvanski küçəsi | Görkəmli hərbi xadim,C.Naxçıvanski Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbini bitirmiş I Dünya Müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronunun komandiri olmuşdur. 1918-ci ildə Azərbaycana qayıtmış, diviziya və briqada komandiri olmuşdur. Onun adına hərbi lisey və küçə adları var. Naxçıvan şəhərində C.Naxçıvanskinin Ev-muzeyi yaradılmışdır. C.Naxçıvanski küçəsi B.A.Şahtaxtinski küçəsinin kəsişməsindən Əziz Əliyev küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | | |

| | | | | |
|---|---|---|---|---|
| 15. | Engels küçəsi | Küçəyə bu ad XIX əsr filosofu, elmi kommunizmin banilərindən biri, beynəlxalq proletariatın rəhbəri və müəllimi Fridrix Engelsin (1820-1895) adı verilmişdir | | Küçə adı 1923-cü ildən mövcuddur. |
| 16. | Əliqulu Qəmküsar küçəsi | 1880-cı ildə Naxçıvan şəhərində anadan olmuş Əliqulu Qəmkusar ilk təhsilini mollaxanada almış, ərəb və fars dillərini mükəmməl öyrənmiş, M.T.Sidqinin yeni üsullu "Tərbiyə" ("Məktəbi-tərbiyə") məktəbində oxumuşdur. O, Azərbaycanın ədəbiyyatı tarixi və ictimai-siyasi həyatında şair, jurnalist, ictimai xadim kimi tanınmış, "Molla Nəsrəddin" jurnalının yaradıcılarından biri olmuş, satirik şeirlər yazmışdır. Ə.Qəmkusar küçəsi Azərbaycan küçəsinin kəsişməsindən (Qaraxanbəyli kəndinin kirəcəyində) Tumbul kəndinə (Mebel fabrikinə) qədər küçəni əhatə edir. | | Naxçıvan şəhər XDS İK-nin 15 oktyabr 1989-cu il tarixli, 525 № li qərarı |
| 17. | Əvəz Sadıq küçəsi | Əbülfəz Sadıqov (1898-1956) tanınmış yazıçı, nasir və publisist idi. O,1920-ci ildən Naxçıvan və Ordubad şəhərlərində müəllimlik etmiş, müxtəlif illərdə "Şərq qapısı" qəzetinin redaktoru, "İnqilab və mədəniyyət" (indiki "Azərbaycan") jurnalının məsul katibi, "Kirpi" jurnalının redaktoru işləmişdir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | Bir sıra oçerk və hekayə kitablarının, rus və dünya ədəbiyyatından tərcümələrin müəllifi olmuşdur. Onun adını daşıyan küçə İslam Səfərli küçəsinin kəsişməsindən M.T.Sidqi küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | | |
| 18. | Əziz Əliyev küçəsi | 1897-ci ildə anadan olmuş Əziz Əliyev Bakı Dövlət Universitetinin Tibb fakultəsini bitirmiş, Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin katibi, AKP MK - nın katibi, ÜİK(b)P Dağıstan Vilayət Komitəsinin birinci katibi, ÜİK(b)P MK-nın inspektoru, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Görkəmli dövlət xadimi, səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor Ə.Əliyevin adını daşıyan küçə C.Məmmədquluzadə küçəsinin kəsişməsindən | | Naxçıvan şəhər XDS İK-nin 19 oktyabr 1983-cü il tarixli, 21/372 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| | | (Cahan Holdinqdən) Heydər Əliyev prospektinin kəsişməsinə (Doğum Mərkəzinə) qədər olan küçəni əhatə edir. Bakıda, Mahaçqalada Əziz Əliyev adına küçə vardır. | | |
| 19. | Əziz Şərif küçəsi | Naxçıvan şəhərində İslam Səfərli küçəsinin kəsişməsindən (Ədliyyə nazirliyinin yanından) Ş.İ.Xətai küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşən küçə görkəmli ədəbiyyatşünas alim, əməkdar elm xadimi, professor Əziz Şərifin adını daşıyır. Ə.Şərif Naxçıvan, Tiflis və İrəvanda təhsil almış, Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirmiş, Tiflis Müəllimlər İnstitutunda müəllim, SSRİ EA-nın Şərqşünaslıq İnstitutunda baş elmi işçi, Moskva Dövlət Universitetində SSRİ xalqları ədəbiyyatı kafedrasının professoru və müdiri olmuşdur. O, 1998-ci ildə Naxçıvan şəhərində dəfn olunub. | Atarbəyov küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15 oktyabr 1989-cu il tarixli, 525 № li qərarı |
| 20. | Firdovsi küçəsi (Seyid Əbülqasim) | Fars-tacik klassik ədəbiyyatının fəxri, dünya-şöhrətli filosof-şair Ə.Firdovsinin (934-1024). "Şahnamə" əsəri dünya ədəbiyyatının şah əsərləri sırasına daxildir. Naxçıvanlılar Firdovsiyə sevgi əlaməti olaraq onun adını küçə adında | | 1923-cü ilə aid arxiv sənədlərində bu küçə adı əksini tapır. |

| | | | | |
|---|---|---|---|---|
| | | əbədiləşdirmişlər. Küçə Sabir küçəsinin kəsişməsindən (DSMF-nun binasının yanından) İ.Məmmədov küçəsinin kəsişməsinə qədər (Pirqəmiş məscidi) olan ərazini əhatə edir. | | |
| 21. | Fizuli (Məhəmməd Füzuli) küçəsi | 1494-1556-cı illərdə yaşamış görkəmli mütəfəkkir, Azərbaycan-Türk ədəbiyyatı tarixində divan ədəbiyyatı janrının möhtəşəm nümayəndəsi, qəzəl janrının ustadı "Leyli və Məcnun", "Şikayətnamə", "Bəngu-Badə", "Pindü Zahid", "Söhbətül-əsmar", "Səhhət və mərəz" və s. kimi qiymətli əsərlərin müəllifi M.Füzulinin şərəfinə verilmiş küçə B.Abbasov küçəsinin kəsişməsindən (10 № -li məktəbin yanından) M.Ə.Sabir küçəsinin kəsişməsinə qədər olan küçənin adını bildirir. | Məhəmməd Füzuli küçəsi | |
| 22. | Gəray Əsədov küçəsi | İkinci Dünya Müharibəsinin iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun (1923-1944) adını daşıyan küçə B.Şahtaxtinski küçəsinin kəsişməsindən Bahadur Abbasov küçəsinin kəsişməsinə qədər (Pirqəmiş məscidi) olan küçənin adını bildir. Beyləqan rayonunun Birinci Şahsevən kəndində anadan olmuş Gəray Əsədov 1944-cü ildə Rumıniyanın Morgita şəhərində qəhrəmancasına həlak | Gəray Əsədov küçəsi | |

| | | | | |
|---|---|---|---|---|
| | | olmuşdur. Həmin rayonda G.Əsədov adına küçə və orta məktəb vardır. | | |
| 23. | Heydər Vəzirov küçəsi | H.Vəzirov Nehrəm kəndində anadan olmuş. ilk təhsilini Naxçıvan şəhərində almış, İrəvanda seminariya bitirmişdir. O, 1920-ci ildən sonra Azərbaycan Birləşmiş Hərbi Məktəbinin rəisi təyin olunmuş, Azərbaycan Respublikasının Hərbi Komissarı, Xalq Torpaq Komissarı, Göyçay Qəza İcraiyyə Komitəsinin sədri və digər məsul vəzifələrdə işləmiş, 1937-ci ildə repressiyaya məruz qalmış, ailəsi ilə birlikdə məhv edilmişdir. H.Vəzirov adına küçə C. Məmmədquluzadə küçəsinin kəsişməsindən (Sığorta agentliyinin qabağından) Bahadur Abbasov küçəsinin kəsişməsinə qədər (Maliyyə nazirliyinin arxası) olan küçəsinin adını bildirir. | Kommuntern küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 №li qərarı |
| 24. | Həsən Əliyev küçəsi | 1907-1993-cü illərdə yaşamış görkəmli torpaqşünas alim, ictimai-siyasi xadim, kənd təsərrüfatı elmləri doktoru, əməkdar elm xadimi, professor, Azərbaycan Dövlət mükafatı laueratı, respublikanın əməkdar elm xadimi, akademik Həsən Əliyevin adını daşıyan küçə Heydər Əliyev prospektinin | | Naxçıvan şəhər XDM İK-nin 16 fevral 1994-cü il tarixli 53 №li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| | | kəsişməsindən (Türk litseyindən) Nizami küçəsinin kəsişməsinə qədər (Naxçıvan şəhər Bələdiyyə idarəsinin binasına qədər) olan küçənin adını bildirir. | | |
| 25. | Həsən Rəhmanov küçəsi | Naxçıvan şəhərində küçə adıdır. İslam Səfərli küçəsindən (köhnə Şərab zavodundan) 58-ci məhəlləyə qədər olan küçə H.Rəhmanovun adını daşıyır. | | |
| 26. | Həzi Aslanov küçəsi | Lənkəran şəhərində anadan olmuş, Böyük Vətən Müharibəsində (1941-1945) göstərdiyi qəhrəmanlığa görə iki dəfə Sovet İttifaqı Qəhrəmanı adını almış, H.Aslanovun (1910-1945) şərəfinə verilmiş küçə Azərbaycan küçəsinin kəsişməsindən (Ağamalıoğlu dikindən) Zərifə Əliyeva küçəsinin kəsişməsinə (Qızlar bulağının yanına) qədər olan ərazidə yerləşir. | | Naxçıvan şəhər ZDS İK-nin 11 noyabr 1961-ci il tarixli qərarı |
| 27. | Hüseyn Cavid | Azərbaycan ədəbiyyatında lirik şeirlərin, lirik-epik poemaların, ilk mənzum facio və dramların müəllifi olan mütəfəkkir şair H.Cavidin (1882-1941) şərəfinə verilmiş küçə İstiqlal küçəsinin kəsişməsindən (Hüseyn Cavidin məqbərəsindən) M.Əzizbəyov küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. Naxçıvan şəhərində H.Cavidin Ev | Bakı küçəsi | Naxçıvan şəhər ZDS İK-nin 13 may 1958-ci il tarixli, 147 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| | | Muzeyi, onun adını daşıyan orta məktəb, Şərur, Culfa şəhərlərində adına küçələr vardır. | | |
| 28. | İbrahim Əbilov küçəsi | İ.Əbilov Ordubadda M.T.Sidqinin "Əxtər" məktəbində oxumuş, gənc yaşlarından fəhləlik etmiş, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin deputatı olmuş, Sovet Azərbaycanının Türkiyədə ilk fövqəladə və səlahiyyətli səfiri işləmişdir. İ.Əbilov 1921-ci ildə Azərbaycan nümayəndə heyətinin tərkibində Qars müqaviləsini imzalayan şəxslərdən biri olmuşdur. Naxçıvan şəhər XDS İcraiyyə Komitəsinin müvafiq qərarı ilə şəhərdəki küçələrdən birinə onun adı verilmişdir. | Mogilyov küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 №li qərarı |
| 29. | İbrahim Həmzəyev küçəsi | İ. Həmzəyev Gəncə şəhərində anadan omuş, gənc yaşlarından Ədil İsgəndərovun hazırladığı tamaşalarda baş rolları ifa etmişdir. O, 1943-cü ildə Əməkdar artist, 1965-ci ildə Azərbaycanın xalq artisti fəxri adlarına layiq görülmüş, Naxçıvan teatrının inkişafında xidmətləri yüksək qiymətləndirilmişdir. Naxçıvan şəhər XDS İK-nin müvafiq qərarı ilə şəhərdəki küçələrdən birinə onun adı verilmişdir. | Dzerjinski küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 30. | İdris | 1959-cu ildə Naxçıvan şəhərində anadan olmuş | A.S.Puşkin | Naxçıvan |

| | | | | |
|---|---|---|---|---|
| | Məmmədov küçəsi | İ.Məmmədov 1990-cı il yanvarın 19-da Koroğlu bulağının yanındakı Qaraburun postunda (Sədərək) Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı aparılan döyüşlərdə şəhid olmuşdur. Naxçıvan Şəhər XDS İK 1993-cü ildə Puşkin küçəsinin bir hissəsinə - indiki C.Məmmədquluzadə küçəsinin kəsişməsindən (Tikiş fabrikindən) İstiqlal küçəsinin kəsişməsinə qədər olan küçəyə onun adını vermişdir. | küçəsi | şəhər XDS İK-nin 24 fevral 1993-cü il tarixli, 78 № li qərarı |
| 31. | İlqar Ələkbərov küçəsi | Əvvəlcə Sərhədçilər adı ilə tanınan küçəyə 1965-ci ildə anadan olmuş, Naxçıvan şəhər internat məktəbinin məzunu, 1985-ci ildə Əfqanıstanda beynəlmiləl borcunu yerinə yetirərkən şəhid olmuş İlqar Ələkbərovun adı verilmişdir. Küçə İ.Səfərli küçəsinin kəsişməsindən (Avtovoğzalın arxasından) Nizami küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | Sərhədçilər küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 №li qərarı |
| 32. | İlqar Əbilov küçəsi. | Naxçıvan şəhərində Səyyad Əliyev küçəsinin kəsişməsindən (İran məscidinin yanından) Xətai küçəsinin kəsişməsinə qədər olan küçəyə İlqar Əbilovun adı verilmişdir. | | |
| 33. | 20 Yanvar | Naxçıvan şəhərindəki bu küçəyə 20 Yanvar | Tiflis küçəsi | Naxçıvan |

| | | | | |
|---|---|---|---|---|
| | küçəsi. | faciəsi - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktının baş verdiyi hadisə ilə bağlı ad verilmiş, həmin gün xalqın yaddaşında əbədiləşdirilmişdir. | | şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 34. | 28 May küçəsi | Küçəyə Azərbaycanın Respublika Günü - Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Demokratik Cümhuriyyətinin yarandığı gün münasibətilə 28 May adı verilmişdir. Küçə Cəlil Məmmədquluzadə küçəsinin kəsişməsindən (Aerokassanın yanından) Bahadur Abbasov küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | X.Hüseynov küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 35. | İslam Səfərli küçəsi | Şəkərabad kəndində (Babək) anadan olmuş, istedadlı şair, dramaturq, əməkdar incəsənət xadimi İslam Səvərolinin (1923-1974) adını daşıyan küçə Nizami küçəsinin kəsişməsindən (Ədliyyə nazirliyinin binasının yanından) S.C.Pişəvəri küçəsinin kəsişməsinə qədər (Avtovoğzala) olan ərazidə yerləşir. | H.Əhmədov küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 36. | İstiqlal küçəsi | Əvvəlki adı Puşkin, sonra isə M.Rəsulzadə olan küçənin M.Rəsulzadə adlanan hissəsinə İstiqlal adı | A.S. Puşkin küçəsi, | |

| | | | | |
|---|---|---|---|---|
| | | verilmişdir. Kücə İ.Məmmədov küçəsinin kəsişməsindən Bakselin binasının yanından) Əziz Əliyev küçəsinin kəsişməsinə qədər (Şahmat məktəbi) olan ərazidə yerləşir. Küçəyə Azərbaycanın müstəqilliyi, istiqlaliyyəti şərəfinə görə belə ad verilmişdir. | sonar isə Məmməd əmin Rəsulzadə küçəsi | |
| 37. | Kalbalıxan küçəsi | General-mayor Kalbalı xan Naxçıvan xanı Ehsan xanın oğlu idi. O, Peterburqda hərbi təhsil almış, bir sıra hərbi döyüşlərdə qəhrəmanlıq göstərmiş, çar Rusiyasının müxtəlif orden və medalları ilə təltif edilmişdir. Kalbalı xanın Naxçıvanda mədəniyyət və maarifin inkişafındakı xidmətləri yüksək qiymətləndirilmiş, 1990-cı ildə Şəhidlər xiyabanının arxasından Azərbaycan küçəsinin kəsişməsinə qədər olan küçəyə onun adı verilmişdir. | Telman küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 38. | Kazım Talıblı küçəsi | K.Talıblı XX əsrin ikinci yarısında milli məktəblərin açılmasına yaxından köməklik göstərmiş, uzun illər Naxçıvan Pedaqoji məktəbində dərs demiş, maarif xadimi olmuşdur. Onun adını daşıyan küçə Əziz Əliyev küçəsinin kəsişməsindən (Üzgüçülük Mərkəzi) 48-ci məhəlləyədək olan ərazidə yerləşir. | Xəstəxana küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 39. | Qonçabəyim | 1827-ci ildə Naxçıvan şəhərində anadan olmuş | Klara Setkin | Naxçıvan |

| | | | | |
|---|---|---|---|---|
| | küçəsi | Qonçabəyim Naxçıvanın sonuncu xanı Ehsan xan Kəngərlinin qızıdır. Qonçabəyim Naxçıvan qəza məktəbində təhsil almış, rus və fars dillərini öyrənmiş, Şərq ədəbiyyatına maraq göstərmişdir. O, "Qönçeyi-ülfət" ədəbi məclisinin iştirakçılarından biri olmuş, "Bəyim" təxəllüsü ilə şeirlər yazmışdır. | küçəsi | şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 № li qərarı |
| 40. | Lermontov (Mixayil Yuryeviç) küçəsi | M.Y.Lermontov 1814-1841-ci illərdə yaşamış rus şairidir. Lirik şeirlər, poema və dram əsərlərin müəllifi olan şair Cənubi Qafqaza sürgün edilmiş, Tiflisdə M.F.Axundovun köməyi ilə Azərbaycan dilini öyrənmiş, Asiyada bu dilin zəruri olduğunu qeyd etmişdir. Onun əsərlərində Qafqaz xalqlarının milli azadlıq mübarizəsi əsas yer tutur. M.Lermontov 1842-ci ildə dueldə öldürülmüşdür. Naxçıvan şəhərində İstiqlal küçəsinin (Şəhər idman idarəsindən) kəsişməsindən Əziz Əliyev küçəsinin kəsişməsinə (Qonaq evinin yanına) qədər olan küçə onun adını daşıyır. | Lermontov küçəsi | 1923-cü ilə aid arxiv sənədlərində küçə adı əksini tapır. |
| 41. | Lev Nikolayeviç Tolstoy küçəsi | Naxçıvan şəhərindəki küçələrdən birinə 1828-1910-cu illərdə yaşamış böyük rus yazıçısı, Peterburq EA-nın fəxri akademiki, publisist və filosof L.N. Tolstoyun adı verilmişdir. Onun 1812-ci il | A.Bakıxanov küçəsi | |

| | | | | |
|---|---|---|---|---|
| | | Vətən müharibəsinə həsr olunmuş "Hərb və sülh" romanı XIX əsr dünya realist nəsrinin zirvələrindən biri sayılır. | | |
| 42. | Məmməd Araz küçəsi | 1933-cü ildə Nursu kəndində (Şahbuz) anadan olmuş, 2004-cü ildə Fəxri Xiyabanda dəfn olunmuş M.Araz parlaq istedadı və təkrarolunmaz yaradıcılığı ilə böyük şöhrət qazanmışdır. Xalq şairi Məmməd Araz Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. Onun adına "Məmməd Araz" ədəbi mükafatı təsis edilmişdir. Naxçıvan Şəhər İcra hakimiyyəti başçısının Sərəncamı ilə şəhərdəki Əziz Əliyev küçəsinə paralel 20-ci məhəllədən birinci küçəyə xalq şairi Məmməd Arazın adı verilmişdir. | | Naxçıvan şəhər İH-nin 18 iyun 2013-cü il tarixli, 170 № li sərəncamı |
| 43. | Məmməd Cəfər küçəsi | 1909-1992-ci illərdə yaşamış, filologiya elmləri doktoru, əməkdar elm xadimi, professor, Azərbaycan MEA-nın akademiki, Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı M. Cəfərov qiymətli ədəbi tənqidi məqalələrin, ədəbiyyat tarixi və nəzəriyyəsinə həsr olunmuş | | Naxçıvan şəhər İH-nin 18 iyun 2013-cü il tarixli, 171 № li sərəncamı |

| | | | | |
|---|---|---|---|---|
| | | əsərlərin, Azərbaycan-rus ədəbi əlaqələri, dünya ədəbiyyatı problemlərinə dair araşdırmaların müəllifidir. O, "Qırmızı Əmək Bayrağı", iki dəfə "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir. Naxçıvan şəhərində Əziz Əliyev küçəsinə paralel 20-ci məhəllədən ikinci küçəyə Məmməd Cəfərin adı verilmişdir. | | |
| 44. | Məmməd Səid Ordubadi küçəsi | 1872-1950-ci illərdə yaşamış görkəmli nasir, tarixi romanlar müəllifi, şair, dramaturq, jurnalist M.S.Ordubadinin şərəfinə verilmiş küçə M.Əzizbəyov küçəsinin kəsişməsindən Əziz Əliyev küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. Ordubad, Culfa və Şahbuz şəhərlərində də onun adına küçələr vardır. | | Naxçıvan şəhər ZDS İK-nin 13 avqust 1965-ci il tarixli, 238 № li qərarı |
| 45. | Məmməd Tağı Sidqi küçəsi | Ordubad şəhərində anadan olmuş görkəmli pedaqoq, şair, publisist M.T.Sidqi (1854-1903) 1892-ci ildə Ordubadda "Əxtər", 1894-cü ildə isə Naxçıvan şəhərində "Tərbiyə" ("Məktəbi-Tərbiyə") məktəblərini açmış, xalq müəllimi kimi şöhrət qazanmışdır. | Paraşütçülər küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 № li qərarı |
| 46. | Məmmədhüs | 1906-1988-ci illərdə Cənubi Azərbaycanda | Sovet küçəsi | Naxçıvan |

| | | | | |
|---|---|---|---|---|
| | eyn Şəhriyar küçəsi | yaşamış, xalqımızın mütəfəkkir şairi, müasir fars qəzəli və qəsidəsinin ustadı, dünyaşöhrətli "Heydərbabaya salam" poemasının müəllifi M. Şəhriyarın şərəfinə verilmiş küçə İ.Səfərli küçəsinin kəsişməsindən Avtovoğzaldan) 61-ci məhəlləyə (Xalçaçılıq fabrikinə) qədər olan ərazidə yerləşir. | | şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 № li qərarı |
| 47. | Məşədi Əzizbəyov küçəsi | Naxçıvan şəhərindəki küçələrdən biri peşəkar inqilabçı, Bakı Xalq Komissarları Soveti və "Nicat" maarif Cəmiyyətinin fəal üzvlərindən biri olmuş Məşədi Əzizbəyovun (1876-1918) adını daşıyır. Küçə İstiqlal küçəsinin kəsişməsindən (Bakselin binasının yanından) Əziz Əliyev küçəsinin kəsişməsinə qədər (Qonaq evinə) olan küçənin adını bildirir. | Məşədi Əzizbəyov küçəsi | |
| 48. | Mircəfər Mirişli küçəsi | 1899-1979-cu illərdə yaşamış, tanınmış maarif xadimi, Naxçıvan MR Əməkdar müəllimi Mir Cəfər Mirişlinin adını daşıyan küçə 28 May küçəsinin kəsişməsindən (İqtisadi İnkişaf nazirliyinin arxası) Engels küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | Frunze küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 49. | Mirzə | 1862-1911-ci illərdə yaşamış Azərbaycanın | Mirzə | Küçə adı |

| | | | | |
|---|---|---|---|---|
| | Ələkbər Sabir küçəsi | satirik şairi M.Ə.Sabirin şərəfinə verilmiş küçə Heydər Əliyev prospektinin kəsişməsindən Əziz Əliyev küçəsinin kəsişməsinə (Cahan Ticarət Mərkəzinin yanındakı dairəyə) qədər olan küçəni əhatə edir. | Ələkbər Sabir küçəsi | 1923-cü ildən mövcuddur. |
| 50. | Mirzə Fətəli Axundov küçəsi | 1812-1878-ci illərdə yaşamış Azərbaycan dramaturgiyasının banisi, ictimai xadim M.F.Axundovun adını daşıyan küçə Babək küçəsinin kəsişməsindən (Əyləncə Mərkəzinin arxasından) İslam Səfərli küçəsinin kəsişməsinə (1№-li məktəbin qabağı) qədər olan küçənin adını bildirir. M.F.Axundov 1850-55-ci illərdə yazdığı 6 (altı) komediyası ilə Azərbaycan və bütün Yaxın Şərq ədəbiyyatında realist dramaturgiyanın təməlini qoymuş, 1857-ci ildə realist Azərbaycan nəsrinin ilk nümunəsini, "Aldanmış kəvakib"povestini yazmışdır. | Mirzə Fətəli Axundov küçəsi | |
| 51. | Mirzəli bəy Bektaşov küçəsi | Mirzəli bəy Bektaşov XX əsrin əvvəllərində demokratik fikirli ziyalılardan biri kimi monorxiya əleyhinə mübarizə aparmış, Naxçıvanda "Hümmət" təşkilatının rəhbərlərindən biri olmuşdur. O, Naxçıvanda Sovet hakimiyyətinin qurulmasının fəal | | |

| | | | | |
|---|---|---|---|---|
| | | iştirakçılarından biri olmuş və Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasında ciddi mübarizə aparmışdır. Onun adını daşıyan küçə İstiqlal küçəsinin kəsişməsindən (Hüseyn Cavid məqbərəsinin qabağından) Heydər Əliyev prospektinin kəsişməsinə (Nazirlər Kabinetinin binasına) qədər olan küçənin adını bildirir. | | |
| 52. | Molla Pənah Vaqif küçəsi | XVIII əsrdə yaşamış məşhur ictimai-siyasi xadim, Qarabağ xanlığının baş vəziri, yeni tipli realist poeziyanın görkəmli nümayəndəsi M.P.Vaqifin şərəfinə verilmiş küçə Zərifə Əliyeva küçəsinin kəsişməsindən (Taksi parkın yanından) 2 № li Hərbi şəhərciyə qədər olan küçənin adını bildirir. | Molla Pənah Vaqif küçəsi | Naxçıvan şəhər ZDS – nin 11 sentyabr 1961-ci il tarixli, 13 № li iclas protokolu |
| 53. | Mustafa Topçubaşov küçəsi | Akademik Mustafa Topçubaşovun Azərbaycan, o cümlədən Naxçıvan səhiyyəsinin inkişafında mühüm xidmətləri olmuşdur. 1919-cu ildə Kiyev Universitetinin Tibb fakultəsini bitirən M.Topçubaşov 1922-1924-cü illərdə Naxçıvan şəhər xəstəxanasında həkim-cərrah kimi fəaliyyət | | Naxçıvan şəhər İH-nin 09.12. 2013-cü il tarixli, 324 № li sərəncamı |

| | | | | |
|---|---|---|---|---|
| | | göstərmişdir.Naxçıvan şəhər İH Əziz Əliyev küçəsinin kəsişməsindən Naxçıvançay üzərindəki körpüyədək olan küçəyə M.Topçubaşovun adını vermişdir. | | |
| 54. | Müzəffər Nəsirli küçəsi | Tanınmış şair, dramaturq Müzəffər Nəsirli Naxçıvan Pedaqoji Texnikumunu və Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmiş, İrəvan Pedaqoji İnstitutunda müəllim işləmiş, Böyük Vətən Müharibəsində (1941-1945) iştirak etmişdir. O, Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan Bölməsinə rəhbərlik etmiş, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin deputatı olmuşdur. Onun adını daşıyan küçə Xətai küçəsinin kəsişməsindən N. Nərimanov küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | Kalinin küçəsi | Naxçıvan şəhər XDM İK-nin 10 noyabr 1992-ci il tarixli, 728 № li qərarı |
| 55. | Nazim Hikmət küçəsi | Naxçıvan şəhərində Əziz Əliyev küçəsinin kəsişməsindən (Diaqnostika Mərkəzinin qabağından) M.Əzizbəyov küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşən küçəyə 1902-1963-cü illərdə yaşamış türk inqilabi poeziyasının banisi, şair, nasir, dramaturq, ssenarist, ictimai xadim, Beynəlxalq Sülh Mükafatı laureatı Nazim Hikmətin adı | Çelyuskin küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| | | verilmişdir. | | |
| 56. | Nəcəfqulu Rəfiyev küçəsi | 1915-ci ildə Ordubad şəhərində anadan olmuş, Böyük Vətən Müharibəsinin (1941-1945-ci illər) iştirakçısı, 1944-cü ilin yayında Minsk şəhərinin yaxınlığında gedən vuruşmalarda göstərdiyi qəhrəmanlığa görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş (26.09.1944-cü ildə) Nəcəfqulu Rəfiyevin adını daşıyan küçə Səməd Mövləvi küçəsinin kəsişməsindən (Televiziyanın arxasından) Məşədi Əzizbəyov küçəsinin kəsişməsinə qədər (Prokurorluğun binasının arxası) olan ərazidə yerləşir. | Şmidt küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 № li qərarı |
| 57. | Nəcməddin Naxçıvani küçəsi | Naxçıvan şəhərində anadan olmuş, müsəlman Şərqində tanınmış Azərbaycan filosofu, Eldənizlər dövləti üçün ilk qanun kitabını yazan N.Naxçıvani elmin bütün sahələrini mükəmməl öyrənmiş, Marağa rəsədxanasında çalışmışdır. Onun əsərləri Paris Milli Kitabxanasında, Türkiyənin Ayasofiya, Nur Osmaniyyə, Köprülü kitabxanalarında və dünyanın müxtəlif arxivlərində saxlanılır. N.Naxçıvaninin adını daşıyan küçə Xətai küçəsinin kəsişməsindən 58-ci məhəlləyə qədər olan küçəni adını bildirir. | Maksim Qorki küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| 58. | Nəriman Nərimanov küçəsi | İctimai-siyasi xadim, yazıçı, publisist, Azərbaycan SSR-in ilk dövlət və hökümət başçısı, keçmiş SSRİ MİK-nin dörd sədrindən biri N.Nərimanovun adını daşıyan küçə İlqar Əbilov küçəsinin kəsişməsindən (İran məscidinin yanından) Nəcməddin Naxçıvani küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | Nəriman Nərimanov küçəsi | 1923- cü ildə küçə adı var imiş. Nax.,şəhər ZDS İK-nin 14 08. 1957-ci il tarixli, 143 № li qərarı |
| 59. | Nəsrəddin Tusi küçəsi | 1201-1274-cü illərdə yaşamış ensiklopediyaçı alim, filosof, ictimai-siyasi xadim Şərqin böyük mütəfəkkiri, Marağa rəsədxanasının təşkilatçısı və rəhbəri, Nəsrəddin Tusinin adını daşıyan küçə Cəlil Məmmədquluzadə küçəsinin kəsişməsindən (Mərkəzi Bankın binasının yanından) Ş.M.Xiyabani küçəsinin kəsişməsinə qədər olan küçənin adını daşıyir. | Luksemburq küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 60. | Nizami Gəncəvi küçəsi | XII əsrdə yaşamış böyük Azərbaycan şairi və mütəfəkkiri N.Gəncəvinin (1141-1209) adını daşıyan küçə Heydər Əliyev prospektinin kəsişməsindən (Heydər Əliyev Sarayının binasının yanından) S.C.Pişəvəri küçəsinin kəsişməsinə (Gənclik ticarət | Lenin küçəsi | Naxçıvan şəhər ZDS İK-nin 21 mart 1974-cü il tarixli, |

| | | | | |
|---|---|---|---|---|
| | | mərkəzinə) qədər olan küçənin adını bildirir. N.Gəncəvi "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" poemalarını özündə cəmləşdirən "Xəmsə"nin müəllifidir. | | 76 № li qərarı |
| 61. | Səmədağa Ağamalıoğlu küçəsi | S.Ağamalıoğlu Azərbaycan SSR MİK-in sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri, Azərbaycan Demokratik Respublikasının parlament üzvü, Sovetlər İttifaqında dövlət xadimi olmuşdur. O, 1927-ci ildə yaradılmış Ümumittifaq Yeni Türk Əlifba Komitəsinin sədri olmuş, Azərbaycanda və Sovet Şərqinin digər respublikalarında yeni-latın əlifbasına keçirilməsinə rəhbərlik etmişdir. Onun adını daşıyan küçə Firdovsi küçəsinin kəsişməsindən İdris Məmmədov küçəsinin kəsişməsinə qədər olan ərazini əhatə edir. | | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 62. | Səməd Mövləvi küçəsi | Naxçıvan şəhərində Məşədi Əzizbəyov küçəsinin kəsişməsindən Nəcəfqulu Rəfiyev küçəsinin kəsişməsinə (Telestudiyanın arxasına) qədər olan küçəyə Naxçıvanda teatrın inkişafında böyük xidmətləri olan, Azərbaycanın xalq artisti | Papanin küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 |

| | | | | |
|---|---|---|---|---|
| | | S.Mövləvinin adı verilmişdir. | | № li qərarı |
| 63. | Səməd Vurğun küçəsi | 1906-1956-cı illərdə yaşamış xalq şairi, Azərbaycanın əməkdar incəsənət xadimi, Azərbaycan Yazıçılar İttifaqının sədri akademik, Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti kimi məsul vəzifələrdə işləmiş S.Vurğunun adını daşıyan küçə İ. Səfərli küçəsinin kəsişməsindən (İran məscidinin yanından) 58-ci məhəlləyə qədər olan ərazidə yerləşir. | Molotov küçəsi | Naxçıvan şəhər ZDS İK-nin 14 avqust 1957-ci il tarixli, 145 № li qərarı |
| 64. | Seyid Cəfər Pişəvəri küçəsi | Azərbaycanda demokratik hərəkatın rəhbərlərindən biri, Cənubi Azərbaycan Milli Hökümətinin Baş naziri işləmiş S.C. Pişəvərinin adını daşıyan küçə Heydər Əliyev prospektindən (Dörd yoldan) İ.Səfərli küçəsinin kəsişməsinə qədər olan küçənin adını bildirir. | 17-lər küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 № li qərarı |
| 65. | Səttarxan küçəsi | Cənubi Azərbaycanda inqilabi hərəkatın rəhbərlərindən biri olan Səttarxan 1907-1910-cu illərdə İranda azadlıq hərəkatına başçılıq etmiş, xalqımızın azadlığı uğrunda mübarizə aparmışdır. Naxçıvan şəhərində İslam Səfərli küçəsinin kəsişməsindən Səməd Vurğun küçəsinin kəsişməsinə (Kalba Musa çeşməsinin yanına) qədər olan küçə onun adını | III İnternosional küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| | | daşıyır. | | |
| 66. | Səyyad Əliyev küçəsi | Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Səyyad Əliyevin adını daşıyan küçə İlqar Əbilov küçəsinin kəsişməsindən (Fatimeyi-Zəhra məscidinin yanından) Səməd Vurğun küçəsinin kəsişməsinə qədər olan küçənin adıdır. | Kommuntern küçəsi | Naxçıvan şəhər XDS İK-nin 10 noyabr 1992-cu il tarixli, 728 № li qərarı |
| 67. | Svetlana Məmmədova küçəsi | 1939-cu ildə Naxçıvan şəhərində anadan olmuş S.Məmmədova kimya elmləri doktoru, professor, AMEA Polimer Materialları İnstitutunda (Sumqayıt şəhəri) laboratoriya rəhbəri idi. O, 1990-cı ilin Qanlı Yanvar günlərində (24 yanvar) faciəli şəkildə həlak olmuş, Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. | Sovet küçəsi | Naxçıvan şəhər XDS İK-nin 1992-ci il tarixli, 728 № li qərarı |
| 68. | Şah İsmayıl Xətai küçəsi | Azərbaycan Səfəvi dövlətinin banisi, ictimai-siyasi xadim, görkəmli şair və sərkərdə, Ş.İ.İsmayıl Xətainin (1487-1525) şərəfinə verilmiş küçə Nizami küçəsinin kəsişməsindən N.Naxçıvani küçəsinin kəsişməsinə qədər olan küçənin adını bildirir. | S. Şaumyan küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 №li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| 69. | Şeyx Məhəmməd Xiyabani küçəsi | Azərbaycanda xalq hərəkatının liderlərindən biri, İranın inqilab tarixində görkəmli yer tutan görkəmli siyasətçi Ş.M.Xiyabaninin adını daşıyan küçə İdris Məmmədov küçəsinin kəsişməsindən Heydər Vəzirov küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | Varovski küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |
| 70. | Təbriz küçəsi | 1989-cu ilin oktyabr ayına qədər Pioner adını daşıyan bu küçəyə Azərbaycanın qədim paytaxtı, İranda yaşayan azərbaycanlıların mənəvi mərkəzi olan Təbriz şəhərinin adı verilmişdir. Küçə Heydər Əliyev prospektinin kəsişməsindən (Dədə Qorqud heykəlinin yanından) İstiqlal küçəsinin kəsişməsinə qədər olan küçənin adını bildirir. | Pioner küçəsi | Naxçıvan şəhər XDS İK-nin 15.10.1989-cu il tarixli, 525 № li qərarı |
| 71. | Validə Hüseynova küçəsi | 1943-1978-ci illərdə yaşamış, komsomol və partiya işçisi, istedadlı şairə V.Hüseynovanın şərəfinə verilmiş küçə 28 Yanvar küçəsinin kəsişməsindən (5 № li məktəbin yanından) M.Əzizbəyov küçəsinin kəsişməsinə qədər olan küçənin adını bildirir. | 8 Mart küçəsi | Naxçıvan şəhər XDS İK-nin 17.05.1990-cu il tarixli, 202 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| 72. | Vüqar Qasımov küçəsi | Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş V.Qasımovun adını daşıyan küçə Xətai küçəsinin kəsişməsindən (4 № li məktəbin yanından) Nəcməddin Naxçıvani küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | Luksemburq küçəsi | Naxçıvan şəhər İH -nin 18. Noyabr 1994-cü il tarixli, 371 № li qərarı |
| 73. | Yunis Cabbarov küçəsi | Böyük Vətən Müharibəsi iştirakçısı (1941-1945), Sosialist Əməyi Qəhrəmanı, Naxçıvan MSSR kənd təsərrüfatı naziri vəzifəsində işləmiş Y.Cabbarovun adını daşıyan küçə M.Ə.Sabir küçəsinin kəsişməsindən 12-ci məhəlləyədək olan küçənin adını bildirir. | | |
| 74. | Yusif Məmmədəliyev küçəsi | Ordubad şəhərində anadan olmuş dünyaşöhrətli kimyaçı alim, kimya elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın akademiki, SSRİ Dövlət Mükafatı laueratı, 1947-51 və 1958-61-ci illərdə Azərbaycan SSR EA-nın prezidenti, 1954-58-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) rektoru işləmiş Yusif Məmmədəliyevin şərəfinə verilmiş küçə B.A.Şahtaxtinski küçəsinin | | Naxçıvan şəhər ZDS İK-nin 13 avqust 1965-ci il tarixli, 238 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| | | kəsişməsindən Əziz Əliyev küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | | |
| 75. | Zərifə Əliyeva küçəsi | Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olmuş Zərifə xanım Əliyeva (28.04.1923-15.04.1985) Azərbaycan oftamologiya elminin inkişafında müstəsna xidməti olan akademik, əməkdar elm xadimi, tibb elmləri doktoru idi. Şərəfli ömrünü Azərbaycan oftamologiya elminin inkişafına həsr edən Zərifə xanım Əliyeva ümummilli liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı idi. Zərifə xanım Əliyevanın adını daşıyan küçə Azərbaycan küçəsinin kəsişməsindən (Taksi parkın yanından) Həzi Aslanov küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | Molla Pənah Vaqif küçəsi | |
| 76. | Zəroş Həmzəyeva küçəsi | Naxçıvan şəhərində Heydər Əliyev prospektinin kəsişməsindən İstiqlal küçəsinin kəsişməsinə qədər olan küçə 1925-ci ildə Nehrəm kəndində anadan olmuş, Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət" ordenli, Prezident təqaüdçüsü Zəroş Həmzəyevanın adını daşıyır. | Heydər Əliyev prospekti | Naxçıvan şəhər İH-nin 28. 03.2005-ci il tarixli, 1558 № li qərarı . |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | | **Ordubad şəhəri** | | |
| 1. | Heydər Əliyev prospekti | Azərbaycan dövlətinin qurucusu və memarı, dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevin adını daşıyan prospekt Ordubad şəhərinin mərkəzində yerləşir. Prospekt 2700 m. uzunluğundadır. | Nizami küçəsi | Naxçıvan MR NK-nin 26.04.2004 tarixli sərəncamı |
| 2. | Allahverdi Quliyev küçəsi | A.Quliyevin adını daşıyan küçə Xəstəxananın arxa hissəsindən İbrahim Əbilov küçəsinin kəsişməsinədək olan ərazidə yerləşir. | | |
| 3. | Anbaras küçəsi | Anbaras məscidinin yanından Babək küçəsinin qabaq hissəsinədək olan küçənin adıdır. Küçə adı qədim Anbaras məhəllə adından götürülmüşdür | Sovet küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 4. | Babək küçəsi | Anbaras körpüsündən xəstəxananın giriş meydanınadək olan küçə Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamış, görkəmli sərkərdə və dövlət xadimi Babək əl-Xürrəminin (795/798-838) adını daşıyır. | Sovet küçəsi | |
| 5. | Ceyhun | Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid | Sarı təpə | |

| | | | | |
|---|---|---|---|---|
| | Hüseynov küçəsi | olmuş C.Hüseynovun adını daşıyan küçə Maşınqayırmadan Döyənək çeşməsinədək olan ərazidə yerləşir. | küçəsi | |
| 6. | Cəlil Məmmədquluzadə küçəsi | M.Əzizbəyov küçəsindən Heydər Əliyev prospektinə qədər olan küçə "Molla Nəsrəddin" jurnalının redaktoru və naşiri, görkəmli publisist və dramaturq C. Məmmədquluzadənin adını daşıyır. | Oktyabr küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 №li qərarı |
| 7. | Dədə Qorqud küçəsi | Oğuz elinin ağsaqqalı Dədə Qorqudun şərəfinə verilmiş küçə İpək fabrikinin yanından Sərşəhər meydanınadək olan ərazidə yerləşir. | S.M. Kirov | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 8. | Əkbər Ağayev küçəsi | Ordubad şəhərində anadan olmuş Ə. Ağayev 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak etmiş, Belorusiya cəbhəsində yaralanmış, 1942-ci ildə Buhenvald ölüm düşərgəsinə göndərilmiş, orada İvan Sport ləqəbi ilə tanınmış və 1945-ci ildə güllələnmişdir. Onun adını daşıyan küçə İcra Hakimiyyəti binasının arxasından Qızlar çeşməsinin yanınadək olan küçənin adıdır. | | |

| | | | | |
|---|---|---|---|---|
| 9. | Əvəz Sadıq küçəsi | Ordubad şəhərində anadan olmuş Əvəz Sadıq "Şərq qapısı" qəzeti, "Şərq qadını" və "İnqilab və mədəniyyət" jurnallarının redaksiyalarında işləmiş, 1952-ci ildən ömrünün sonuna kimi "Kirpi" jurnalının redaktoru olmuşdur. Onun adını daşıyan küçə Dədə Qorqud küçəsindən ayrılaraq hamamın yanına qədər olan ərazidə yerləşir. | S.M.Kirov küçəsi | Ordubad şəhər XDS İK 30.10.1986 cı il tarixli, 118 № li qərarı |
| 10. | Fərhad Zeynalov küçəsi | Ordubad Şəhər XDS İK-nin qərarı ilə Rabitə evinin yanından (şimal tərəfə) mehmanxananın yanınadək olan küçəyə Ordubad şəhərində anadan olmuş, görkəmli türkoloq alim, filologiya elmləri doktoru, professor, türkologiya və Azərbaycan dilçiliyi sahəsində böyük xidmətləri olan Fərhad Zeynalovun (1929-1984) adı verilmişdir. | Nizami küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 -cu il tarixli, 118 № li qərarı |
| 11. | Hatəm bəy Ordubadi küçəsi | Nəsrəddin Tusi nəslindən olan Hatəm bəy Ordubadi Ordubadın kələntəri olmuş, I Şah Abbasın hakimiyyəti illərində Səfəvilər sarayında maliyyə işlərinə baxmış, 1592-ci ildə baş vəzir təyin olunmuş, Azərbaycan Səfəvilər dövlətinin siyasi və iqtisadi həyatında mühüm rol oynamışdır. I Şah Abbas 1606-cı ildə Ordubad şəhərini soyurqal olaraq Hatəm bəy Ordubadiyə bağışlamışdır. O, | Telman küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cı il tarixli, 118 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| | | şəhərin inkişafı və abadlaşdırılmasında mühüm işlər görmüşdür. Onun adını daşıyan küçə Dədə Qorqud küçəsinin kəsişməsindən başlayaraq S.Vurğun küçəsində qurtarır. | | |
| 12. | Həzi Aslanov küçəsi | İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun adını daşıyan küçə 3 № li məktəbin arxasında N.Tusi küçəsinin qurtaracağından başlayıb Mənsur ağa küçəsinin kəsişməsində qurtarır. | | |
| 13. | İbrahim Əbilov küçəsi | Yuxarı Anbaras meydanından başlanan küçələrdən biri 1882-ci ildə Ordubad şəhərində anadan olmuş İ.Əbilovun adını daşıyır. İ.Əbilov Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin deputatı olmuş, Sovet Azərbaycanının Türkiyədə ilk fövqəladə və səlahiyyətli səfiri işləmişdir. O,1921-ci ildə Azərbaycan nümayəndə heyətinin tərkibində Qars müqaviləsini imzalayan şəxslərdən biri olmuşdur. | | |
| 14. | İstanbul küçəsi | Türkiyəyə məhəbbət əlaməti olaraq şəhərdəki küçələrdən birinə İstanbul adı verilmişdir. Bu küçə Usta Zeynal Nəqqaş küçəsinin kəsişməsindən C.Hüseynov küçəsinin qurtaracağınadək olan küçənin adını bildirir. | | |

| | | | | |
|---|---|---|---|---|
| 15. | Kürdətal küçəsi | Heydər Əliyev prospektindən başlayan küçə C.Məmmədquluzadə küçəsinə qədər olan ərazini əhatə edir. Küçə qədim Kürdətal məhəllə adını qoruyub saxlayır. | | Ordubad şəhər XDS İK - nin 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 16. | Qafar Babayev küçəsi | Q.Babayevin adına verilmiş küçə R.Məmmədov küçəsinin başlanğıcından Usta Haşım küçəsinin kəsişməsinədək olan küçənin adıdır. Küçə Sərşəhər döngələrindən birinin adıdır. | S.Şaumyan küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 17. | Məmməd Səid Ordubadi küçəsi | Ordubad şəhərində anadan olmuş, Azərbaycan ədəbiyyatında tarixi romanlar müəllifi kimi şöhrət tapan M.S.Ordubadinin adını daşıyan küçə Avtovağzaldan xəstəxanaya qədər olan küçənin adını bildirir. | 8 Mart küçəsi | |
| 18. | Məhəmməd Füzuli küçəsi | XVI əsrdə yaşamış şair Məhəmməd Füzulinin adını daşıyan küçə Mədəniyyət evinin aşağı hissəsindən Ə.Ağayev küçəsinə qədər olan ərazidə yerləşir. | | |
| 19. | Məhəmməd | Tanınmış pedaqoq M.T.Sidqinin adını daşıyan | | |

| | | | | |
|---|---|---|---|---|
| | Tağı Sidqi küçəsi | küçə məbədin yanından Usta Haşım küçəsinin kəsişməsinədək olan küçəni əhatə edir. | | |
| 20. | Mənsur ağa küçəsi | Kalbalı xan nəslindən olan Mənsur ağa XIX əsrin ikinci yarısında Ordubadın varlı adamlarından biri olmuşdur. Onun adını daşıyan küçə Ə.Ağayev küçəsinin sonundan başlayıb Qızlar çeşməsindən keçməklə Heydər Əliyev prospektinə qədər uzanan küçənin adını bildirir. | Qızıl əsgər küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 21. | Məşədi Əzizbəyov küçəsi | YAP-ın binasının yanından körpüyədək olan küçəyə Məşədi Əzizbəyovun adı verilmişdir. | | |
| 22. | Mingis küçəsi | Köhnə hamamın yanından Usta Zeynal Nəqqaş küçəsinə qədər olan küçəni əhatə edir. Küçə adı qədim Mingis məhəllə adından götürülmüşdür. | Kuybışev küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 23. | Mirzə Fətəli Axundov küçəsi | Böyük dramaturq M.F.Axundovun adını daşıyan küçə şəhərin girəcəyindən Şəhriyar qəsəbəsinə qədər (yolun sol tərəfi) olan küçəni əhatə edir. | | |
| 24. | Natiq Babayev | N.Rəfiyev küçəsindən başlayıb N.Tusi küçəsinin kəsişməsinə qədər olan küçəyə Azərbaycanın ərazi | Nəcəfqulu Rəfiyev | |

| | | | | |
|---|---|---|---|---|
| | küçəsi | bütövlüyü uğrunda şəhid olmuş N.Babayevin adı verilmişdir. | küçəsi | |
| 25. | Nəcəfqulu Rəfiyev küçəsi | Nəcəfqulu Rəfiyev (1912-1970) Böyük Vətən Müharibəsində (1941-1945) tank komandiri olmuş, I Belarus cəbhəsində alman faşist işğalçılarına qarşı vuruşmalarda qəhrəmanlıq göstərmiş və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Minsk, Bakı və Naxçıvan şəhərlərində onun adına küçə var. Ordubad şəhərində N.Rəfiyevin adını daşıyan küçə Heydər Əliyev prospektindəki Kompyuter mərkəzindən M.F.Axundov küçəsinin qurtaracağına qədər olan küçənin adıdır. | | |
| 26. | Nəriman Nərimanov küçəsi | İctimai-siyasi xadim N.Nərimanovun adını daşıyan küçə Sərşəhər küçəsindən Usta Haşım məhəlləsinin qurtaracağına qədər olan küçənin adıdır. | | |
| 27. | Nəsrəddin Tusi küçəsi | M.F.Axundov küçəsinin kəsişməsindən Mənsur ağa küçəsinədək olan küçəyə dünyaşöhrətli astronom, Marağa rəsədxanasının yaradıcısı, bir çox elmi əsərlərin müəllifi Nəsirəddin Tusinin adı verilmişdir. | | |

| | | | | |
|---|---|---|---|---|
| 28. | Novruz Rizayev küçəsi | Novruz Rizayev (1886-1941) M.T.Sidqinin "Əxtər" məktəbində oxumuş, Ordubad İpək fabriki və Culfa dəmiryolunda fəhlə işləmiş, inqilabi hərəkata qoşulmuş, Bakı Soveti sədrinin müavini, Azərbaycan Siyasi İdarəsinin rəisi, Azərbaycan SSR Daxili İşlər naziri və digər vəzifələrdə işləmiş, bir neçə dəfə həbs olunmuş və 1941-ci ildə güllələnmişdir. Onun adını daşıyan küçə şəhərin girəcəyindən başlayıb N.Rəfiyev küçəsinə qədər (M.F.Axundov küçəsinin sol tərəfi) olan ərazini əhatə edir. | | |
| 29. | Rahim Məmmədov küçəsi | Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş R.Məmmədovun adını daşıyan küçə Q.Babayev küçəsindən başlayıb Zeynalabdin Nəqqaş küçəsində qurtarır. | S.M. Kirov küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 30. | Səməd Vurğun küçəsi | 1906-1956-cı illərdə yaşamış böyük Azərbaycan şairi S.Vurğunun şərəfinə verilən küçə Came məscidinin yanından 1 № li məktəbin yanınadək olan küçənin adıdır. | | |
| 31. | Sərşəhər küçəsi | Sərşəhər meydanından Üçtürəngə küçəsinin kəsişməsinədək olan küçənin adıdır. Küçə adı qədim | S.M. Kirov | Ordubad şəhər XDS İK |

| | | | | |
|---|---|---|---|---|
| | | Sərşəhər məhəllə adından alınmışdır. | | 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 32. | Təbriz küçəsi | Azərbaycanın qədim paytaxtı Təbriz şəhərinin adı ilə bağlı verilmiş küçə köhnə hamamdan R.Məmmədov küçəsinə qədər olan ərazidə yerləşir. | Çaparidze | Ordubad şəhər XDS İK 30.10.1989 cu il. 118 № li qərarı |
| 33. | Usta Haşım küçəsi | XX əsrin ortalarında yaşamış Haşım Ağababa oğlu Babayev məşhur memar-bənna olub. Ordubadın bir çox tarixi abidələrini bərpa edib. Onun adını daşıyan küçə Q.Babayev küçəsindən Əndəmic yoluna - . Şora çeşməsinin aşağı hissəsinədək olan ərazidə yerləşir. | M.T. Sidqi küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 34. | Üçtürəngə küçəsi | Üst körpüdən Nəhər çeşməsinə qədər olan küçə Üçtürəngə adı ilə tanınır. Bu küçə eyniadlı qədim məhəllə adını yaşadır. Küçə həmin məhəllənin tərkib hissəsinə daxildir. | 8 Mart küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 №li qərarı |
| 35. | Ümmül | XIX əsrin sonu XX əsrin əvvəllərində | Komsomol | Ordubad |

| | | | | |
|---|---|---|---|---|
| | Leyla küçəsi | Ordubadda yaşamış maarifpərvər ziyalı qadınlardan biri olub. O, M.T.Sidqinin "Əxtər" məktəbində ilahiyyatdan dərs demiş, öz səxavəti, xeyirxahlığı ilə əhalinin dərin hörmətini qazanmışdır. Onun adını daşıyan küçə S.Vurğun küçəsindən Q.Babayev küçəsinin qurtaracağına qədər olan ərazidə yerləşir. | küçəsi | şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 № li qərarı |
| 36. | Yusif Məmmədəliyev küçəsi | Yusif Məmmədəliyevin büstünün yanından Anbaras məhəlləsinə qədər olan küçənin adıdır. Küçə adında Ordubadda anadan olmuş, akademik Y. Məmmədəliyevin adı əbədiləşdirilmişdir. | | |
| 37. | Zeynalabdin Nəqqaş küçəsi | 1 №-li məktəbin yanından R.Məmmədov küçəsinə qədər olan küçənin adıdır. 1839-1904-cü illərdə yaşamış Usta Zeynal Nəqqaş şair, xəttat və nəqqaş olmuş, Ordubad və Təbrizdə təhsil almış, ərəb-fars dillərini və klassik Şərq şeirini mükəmməl öyrənmişdir. Ordubadda fəaliyyət göstərən "Əncümənüş-şüəra" ədəbi məclisinin fəal üzvlərindən biri olmuşdur. | 1 May küçəsi | Ordubad şəhər XDS İK 30.10.1989 cu il tarixli, 118 № li qərarı |

| Culfa şəhəri | | | | |
|---|---|---|---|---|
| 1. | Heydər Əliyev prospekti | Culfa şəhərinin mərkəzi prospekti ulu öndər Heydər Əliyevin adını daşıyır. | | Culfa şəhər İH-nin 26.04.2004 – cü il tarixli, 47 № li qərarı |
| 2. | Cəfər Cabbarlı küçəsi | İstedadlı şair, nasir, dramaturq və ssenarist Cəfər Cabbarlının (1899-1934) Azərbaycan ədəbiyyatı və incəsənəti sahəsində böyük xidmətləri olmuşdur. Onun adını daşıyan küçə Lokomativ Deposunun ətrafını əhatə edir. | | |
| 3. | Cəlil Məmmədquluzadə küçəsi | Şəhid Əliqulu küçəsinin kəsişməsindən (Naxterminalın qarşısı) III məhəllənin kəsişməsinə qədər (İİP-na keçid məntəqəsinin yanı) olan küçə Cəlil Məmmədquluzadənin adını daşıyır. | | |
| 4. | Elşad Nağıyev küçəsi | 38 №-li Culfa şəhər dəmiryol məktəbini bitirmiş, Əfqanıstan müharibəsində iştirak etmiş, Moskvada Hərbi Akademiyada təhsil almış E.Nağıyev peşəkar hərbçi kimi Naxçıvan-Ermənistan sərhəddində Alay komandiri olmuş, 1994-cü | | Culfa şəhər İH-nin 26.04.2004 - cü il tarixli, 47 № li qərarı |

| | | | | |
|---|---|---|---|---|
| | | ilin sentyabr ayında şəhid olmuşdur. O,"Azərbaycan bayrağı" Ordeninə layiq görülmüşdür. Polkovnik-leytenant rütbəsi almış E.Nağıyevin adını daşıyan küçə Təbriz küçəsinin kəsişməsindən Heydər Əliyev prospektinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | | |
| 5. | Əfzələddin Xaqani küçəsi | Əfzələddin Xaqani Şirvani (1126-1199) ədəbiyyat tariximizdə ilk poemanın müəllifi olmuş, qəsidə janrını yaradıcılarından biri kimi tanınmışdır. Ə.Xaqaninin adını daşıyan küçə M.S.Ordubadi küçəsinin sonundan Heydər Əliyev prospektinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | | |
| 6. | Hüseyn Cavid küçəsi | 1882-1941-ci illərdə yaşamış böyük dramaturq Hüseyn Cavidin adını daşıyan küçə M.Seyidov küçəsinin sonundan başlayaraq M.Hüseynzadə küçəsindən keçir və E.Nağıyev küçəsinə paralel ərazidə yerləşir. | | |
| 7. | İmadəddin Nəsimi küçəsi | XIV əsrdə yaşamış böyük Azərbaycan şairi İmadəddin Nəsimi Yaxın Şərq şeirinin inkişafı tarixində mühüm rol oynamış, Azərbaycan fəlsəfi şeirinin ölməz nümunələrini yaratmışdır. Culfa şəhərində dəmiryol xətlərinin yuxarı hissəsindən | | |

| | | | | |
|---|---|---|---|---|
| | | Yanacaqdoldurma stansiyasına qədər olan küçəyə onun adı verilmişdir. | | |
| 8. | Mehdi Hüseynzadə küçəsi | Böyük Vətən müharibəsi illərində (1941-1945) alman faşizminə qarşı döyüşlərdə qəhrəmancasına həlak olan və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən Mehdi Hüseynzadənin adını daşıyan küçə E.Nağıyev küçəsinin kəsişməsindən M.Əsgərov küçəsinin kəsişməsinə qədər olan ərazidə yerləşir. | | |
| 9. | Məmməd Səid Ordubadi küçəsi | Ədəbiyyatımızda tarixi romanlar müəllifi olan M.S.Ordubadi XX əsrin əvvəllərində Culfanın ictimai-siyasi həyatında yaxından iştirak etmişdir. Onun adını daşıyan küçə Heydər Əliyev prospektinin kəsişməsindən III məhəllənin kəsişməsinə qədər olan küçəni əhatə edir.. | | |
| 10. | Mikayıl Müşfiq küçəsi | 1908-1938-illərdə yaşamış Mikayıl Müşfiq coşqun təbiətli şair kimi Azərbaycan poeziyasının inkişafında mühüm yer tutmuş, lirik şeirlər, poemalar, mənzum nağıllar müəllifi kimi tanınmış və 1938-ci ildə repressiya qurbanı olmuşdur. Onun adını daşıyan küçə Heydər Əliyev prospektinin kəsişməsindən (Avtovağzala) Elşad Nağıyev küçəsinin kəsişməsinə qədər olan küçənin adıdır. | | |

| | | | | |
|---|---|---|---|---|
| 11. | M.Əsgəroğlu küçəsi | Şəhidlər küçəsinin kəsişməsindən M.Əsgərov küçəsinin başlanğıcına qədər olan küçənin adıdır. | | |
| 12. | Gülüstan küçəsi | Naxçıvan-Ordubad magistral yoluna tarixi-memarlıq abidəsi olan Gülüstan türbəsinin adı verilmişdir. | | |
| 13. | Məmməd Əsgərov küçəsi | Culfanın Yaycı kəndində anadan olmuş Məmməd Əsgərov (1918-1988) Bərdə rayon XDS İK-nin sədri, Naxçıvan MSSR Nazirlər Sovetinin sədri, Ağcabədi və Şəmkir rayon PK-nin birinci katibi, Azərbaycan SSR Kənd Təsərrüfatı naziri və digər məsul vəzifələrdə çalışmış, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Onun adını daşıyan küçə M.Əsgəroğlu küçəsinin kəsişməsindən Xaqani küçəsinin kəsişməsinə qədər olan küçənin adıdır. | | Culfa şəhər İH-nin 26.04.2004 - cü il tarixli, 47 № li qərarı |
| 14. | M.Seyidov küçəsi | Heydər Əliyev prospektinin kəsişməsindən (Hərbi Komissarlığın qarşısı) Hüseyn Cavid küçəsinin başlanğıcına qədər olan küçə M.Seyidov küçəsi adlanır. | | |
| 15. | Şah İsmayıl Xətai küçəsi | Azərbaycan Səfəvilər Dövlətinin banisi, böyük sərkərdə və şair Şah İsmayıl Xətainin şərəfinə | | |

| | | | | |
|---|---|---|---|---|
| | | verilmiş küçə M.Əsgəroğlu küçəsinin kəsişməsindən Mikayıl Müşfiq küçəsinin kəsişməsinə qədər olan ərazini əhatə edir. | | |
| 16. | Şəhid Əliqulu Ağayev küçəsi | 1992-ci ilin may ayında Sədərək uğrunda gedən döyüşlərdə şəhid olmuş Əliqulu Ağayevin adını daşıyan küçə köhnə dəmiryol çörək bişirmə sexinin qarşısından Heydər Əliyev prospektinə parallel olan küçənin adıdır. | | |
| 17. | Şəhidlər küçəsi | M.Seyidov küçəsinin kəsişməsindən Cəlil Məmmədquluzadə küçəsinin kəsişməsinə qədər olan küçənin adıdır. Küçə adında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş vətən oğullarının xatirəsi əbədiləşdirilmişdir. 1993-cü ildə yaradılmış Şəhidlər xiyabanı bu küçədə yerləşir. | | |
| 18. | Təbriz küçəsi | Heydər Əliyev prospektinin kəsişməsindən (Rabitə idarəsindən) III məhəllənin kəsişməsinə qədər (Culfa Gömrük məntəqəsi) olan küçənin adıdır. | | Culfa şəhər İH Başçısının 28.02.1991-ci il tarixli, 24 № sərəncamı |
| 19. | Birinci məhəllə | Naxçıvan-Ordubad magistral yolunun kəsişməsindən Heydər Əliyev prospektinin başlanğıcına | | Culfa şəhər İH Başçısının |

| | | | | |
|---|---|---|---|---|
| | | (Culfa şəhərinə giriş) qədər sahəni əhatə edən məhəllənin adıdır. | | 08.07.2009 tarixli, 62 № li sərəncamı |
| 20. | İkinci məhəllə | Dəmiryol körpüsünün sağ aşağı hissəsindən Üçüncü məhəllənin başlanğıcına qədər sahəni əhatə edir. | | Culfa şəhər İH Başçısının 08.07.2009 tarixli, 62 № li sərəncamı |
| 21. | Üçüncü məhəllə | İkinci məhəllənin qurtaracağından Naxçıvan-Ordubad magistral yolunun kəsişməsinə qədər sahəni əhatə edən məhəllənin adıdır. | | Culfa şəhər İH Başçısının 08.07.2009 tarixli, 62 № li sərəncamı |
| | | **Şahbuz şəhəri** | | |
| 1. | Heydər Əliyev prospekti | Ümummilli lider Heydər Əliyev adına prospekt şəhər abidə bulağından Su anbarınadək olan ərazini əhatə edir. | Nəriman Nərimanov | Şahbuz rayon İH Başçısının 02.09.2013-cü il tarixli sərəncamı. |

| | | | | |
|---|---|---|---|---|
| 2. | Azərbaycan küçəsi | Prokurorluğun yanından Rüstəm meşəsinədək olan ərazidə yerləşən küçəyə ad doğma respublikamız - Müstəqil Azərbaycanın adı ilə bağlı verilmişdir. | | |
| 3. | Babək küçəsi | Mədəniyyət evindən Rza yerinədək olan küçə böyük sərkərdə, ictimai-siyasi xadim Babək əl-Xürrəminin adını daşıyır. | | Şahbuz rayon İH Başçısının 02.09.2013-cü il tarixli sərəncamı |
| 4. | Bakı küçəsi | Azərbaycanın paytaxtı Bakı şəhərinin adı ilə bağlı verilmiş bu küçə Şəhər Mədəniyyət şöbəsindən şəhər qəbiristanlığına qədər olan küçənin adıdır. | | |
| 5. | Cavad xan küçəsi | Cavad xan (1748-1804) böyük sərkərdə, ictimai-siyasi və dövlət xadimi, Gəncə xanlığının sonuncu hökmdarı olmuşdur. 1804-cü ildə rus işğalçı qoşunları ilə Gəncə uğrunda gedən qeyri-bərabər döyüşdə oğulları ilə birlikdə həlak olmuşdur. Cavad xanın adını daşıyan küçə Heydər Əliyev prospektinin kəsişməsindən Naxçıvançaya qədər olan ərazini əhatə edir. | | Şahbuz rayon İH Başçısının 02.09.2013-cü il tarixli sərəncamı. |

| | | | | |
|---|---|---|---|---|
| 6. | Əziz Əliyev küçəsi | Görkəmli dövlət xadimi, səhiyyə təşkilatçısı, tibb elmləri doktoru, professor Ə.Əliyevin adını daşıyan küçə 2№ li məktəbdən Küküçayın üstündəki körpüyədək olan küçənin adıdır. | | Şahbuz rayon İH Başçısının 02.09.2013-cü il tarixli sərəncamı. |
| 7. | Həzi Aslanov küçəsi | İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun şərəfinə verilmiş küçə Quru arxın üstündən M.Ə.Sabir küçəsinədək olan küçənin adıdır. | | |
| 8. | Həmid Sultanov küçəsi | 1989-1938-ci illərdə yaşamış Həmid Sultanov 1920-ci ildən sonra Azərbaycan Xalq Daxili İşlər Komissarı, ZSFSR MİK-nin katibi, AXTŞ-nın sədri, Naxçıvan MSSR-də rəhbər vəzifələrdə çalışmışdır. Şahbuz şəhərində onun adını daşıyan küçə GEM-in yanından Çay məhəlləsi ilə Heydər Əliyev prospektinə qədər olan küçənin adıdır. | | |
| 9. | Hüseyn Cavid küçəsi | Təbriz küçəsindən H.Aslanov küçəsinə qədər olan küçə böyük dramaturq H. Cavidin şərəfinə verilmişdir. | | |
| 10. | Qəzənfər Əkbərov | Böyük Vətən Müharibəsinin (1941-1945) iştirakçısı olmuş Qəzənfər Əkbərov (1917-1944) | | Şahbuz rayon İH Başçısının |

| | | | | |
|---|---|---|---|---|
| | küçəsi | Ukraynanın, Belorusiyanın düşməndən azad edilməsində qəhrəmanlıq göstərmiş, 1944-cü ildə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Şahbuzlular Qəzənfər Əkbərovun adını əbədiləşdirmək məqsədilə Heydər Əliyev prospektindən Şor dərəyədək olan küçəyə onun adını vermişlər. | | 02.09.2013-cü il tarixli sərəncamı. |
| 11. | İlyas Əfəndiyev küçəsi | Azərbaycan ədəbiyyatında hekayə, povest, roman və dram əsərlərinin müəllifi kimi tanınan Azərbaycanın Əməkdar İncəsənət xadimi, Dövlət Mükafatı laureatı, Azərbaycanın xalq yazıçısı İlyas Əfəndiyevin (1914-1996) adını daşıyan küçə Şahmat məktəbindən Nizami küçəsinədək olan ərazini əhatə edir. | | |
| 12. | 28 May küçəsi | Şahbuz şəhərində 13 № li binadan M.Müşfiq küçəsinə qədər olan küçəyə Azərbaycanın Respublika Günü - Azərbaycan Demokratik Cümhuriyyətinin yarandığı gün münasibətilə ad verilmişdir. | | |
| 13. | Memar Əcəmi küçəsi | Şəhər məscidindən Rəşid Behbudov küçəsinin kəsişməsinədək olan küçəyə XII əsrdə yaşamış Əcəmi Əbubəkr oğlu Naxçıvaninin adı verilmişdir. Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi | | |

| | | | | |
|---|---|---|---|---|
| | | Naxçıvani Azərbaycan memarlığına yeni istiqamət vermiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Naxçıvan şəhərində Yusif Küseyir oğlu və Mömünə xatun türbələri Əcəmi Naxçıvani sənətinin şah əsərləridir. | | |
| 14. | Məmməd Araz küçəsi | Xalq şairi M.Araz Nursu kəndində anadan olmuş, şeirlərində Nursun, Şahbuzun gözəlliklərini, Azərbaycanın təbii mənzərələrini vəsf etmişdir. Şahbuzda M.Arazın xatirəsini əbədiləşdirmək üçün Heydər Əliyev prospektindən 2 №-li qəbiristanlığı keçməklə Şor dərəyə qədər olan küçəyə onun adı verilmişdir. | | Şahbuz rayon İH Başçısının 02.09.2013-cü il tarixli sərəncamı. |
| 15. | Məmməd Əmin Rəsulzadə küçəsi | Azərbaycan Demokratik Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadənin adını daşıyan küçə Hava Bürosundan H.Aslanov küçəsinin kəsişməsinədək olan ərazini əhatə edir. | | |
| 16. | Məmməd Səid Ordubadi küçəsi | 1870-1950-ci illərdə yaşamış, tarixi romanlar müəllifi M.S.Ordubadinin adını daşıyan küçə Heydər Əliyev prospektindən üstdəki Quru arxadək olan ərazidə yerləşir. | | |

| | | | | |
|---|---|---|---|---|
| 17. | Mikayıl Müşfiq küşəsi | Lirik şeirlər müəllifi kimi tanınan M.Müşfiq küçəsi Heydər Əliyev prospektinin kəsişməsindən Quru arxadək olan küçənin adıdır. | | |
| 18. | Mirzə Ələkbər Sabir küçəsi | 1862-1911-ci illərdə yaşayan böyük satirik şair M.Ə.Sabirin şərəfinə verilmiş küçə Quru arxdan qarşıdakı dağa qədər olan ərazidə yerləşir. | | |
| 19. | Nizami Gəncəvi küçəsi | XII əsrdə yaşamış böyük Azərbaycan şairi, məşhur "Xəmsə"nin müəllifi Nizami Gəncəvinin adını daşıyan küçə Azərbaycan küçəsindən Həmid Sultanov küçəsinədək olan ərazidə yerləşir. | | |
| 20. | Rəşid Behbudov küçəsi | Keçmiş SSRİ və Azərbaycan SSR-in xalq artisti, SSRİ Dövlət Mükafatı laureatı, Şahbuz rayonundan Azərbaycan SSR Ali Soveti və SSRİ Ali Sovetinin (7-9-cu çağırışlar) deputatı seçilmiş R.Behbudovun adını daşıyan küçə Heydər Əliyev prospektinin kəsişməsindən Səməd Vurğun küçəsinin kəsişməsinədək olan küçənin adıdır. | | |
| 21. | Ruhulla Axundov küçəsi | 1897-1838-ci illərdə yaşamış ictimai-siyasi xadim Ruhulla Axundov "Bakinski raboçi", "Kommunist" qəzetlərinin redaktoru olmuş, Azərbaycan SSR Xalq maarif Komissarı işləmiş, | | |

| | | | | |
|---|---|---|---|---|
| | | ikicildlik "Rusca-türkcə lüğət"in tərtibçilərindən biri olmuşdur. Onun adını daşıyan küçə Polis şöbəsindən Nizami küçəsinədək olan ərazidə yerləşir. | | |
| 22. | Səməd Vurğun küçəsi | Böyük Azərbaycan şairi S.Vurğunun adını daşıyan küçə Ticarət mərkəzindən qarşıdakı dağ ətəyinə qədər olan ərazidə yerləşir. | | |
| 23. | Tofiq İsmayılov küçəsi | Tanınmış Azərbaycan alimi, ictimai-siyasi xadim, 1990-cı il noyabrın 20-də vertolyot qəzasında şəhid olmuş Tofiq İsmayılovun adını daşıyan küçə Farmaşah MMC-dən qarşıdakı dağ ətəyinə qədər olan ərazidə yerləşir | | |
| 24. | Təbriz küçəsi | 43 № li binanın arxasından yuxarıdakı Quru arxa qədər olan küçəyə Azərbaycanın qədim paytaxtı Təbriz şəhərinin adı verilmişdir. | | |
| 25. | Yusif Məmmədəliyev küçəsi | 1905-1961-ci illərdə yaşamış, dünyaşöhrətli kimyaçı alim, akademik Y.Məmmədəliyevin adını daşıyan küçə Heydər Əliyev prospektindən Həzi Aslanov küçəsinə qədər ərazidə yerləşir. | | |
| 26. | Zərifə Əliyeva | Azərbaycan oftamologiya elminin inkişafında xüsusi xidmətləri olan, tibb elmləri doktoru, əmək- | | Şahbuz rayon İH Başçısının |

| | | | | |
|---|---|---|---|---|
| | küçəsi | dar elm xadimi, akademik Zərifə Əliyevanın şərəfinə verilmiş küçə Heydər Əliyev prospektindən keçmiş Qarababa kənd qəbiristanlığına qədər olan ərazini əhatə edir. | | 02.09.2013-cü il tarixli sərəncamı. |
| | | **Şərur şəhəri** | | |
| 1. | Heydər Əliyev prospekti | Şərur şəhərinin əsas prospekti ümummilli lider Heydər Əliyevin adını daşıyır. | Sovet küçəsi və Ş.İ. Xətai küçəsi | |
| 2. | 28 May küçəsi | Şərur şəhərində Azərbaycan Demokratik Cümhuriyyətinin yarandığı günün adını əbədiləşdirən 28 May adlı küçə Heydər Əliyev prospektindən Sahib İbrahimov küçəsinin kəsişməsinədək olan küçənin adıdır. | Lenin küçəsi | |
| 3. | Həzi Aslanov küçəsi | İki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun adı verilmiş küçə Heydər Əliyev prospektindən Sərxanlı kəndinədək olan ərazidə yerləşir. | | |
| 4. | Hüseyn Cavid küçəsi | Böyük dramaturq H.Cavidin adını daşıyan küçə Heydər Əliyev prospektindən M.Ə.Sabir küçə- | Selov yolu küçəsi | |

| | | | | |
|---|---|---|---|---|
| | | sinədək ərazidə yerləşir. | | |
| 5. | Kapitan Məhərrəm Seyidov küçəsi | 1952-ci ildə Alışar kəndində anadan olmuş Məhərrəm Seyidov Şərur rayon DİŞ-də polis kapitanı idi. 1990-cı ildə Sədərəyin erməni yaraqlılarından müdafiəsi zamanı şəhid olmuş M.Seyidova ölümündən sonra (1992) Azərbaycanın Milli Qəhrəmanı və "Qırmızı ulduz" ordeni verilmişdir. Onun adını daşıyan küçə Heydər Əliyev prospektindən S.Vurğun küçəsinin kəsişməsinədək olan küçənin adıdır. Şəhər 2 № li məktəbə də M.Seyidovun adı verilmişdir. | A.Babuşkink üçəsi | |
| 6. | Kərim Kərimov küçəsi | Düdəngə yolundan M.Ə.Sabir küçəsinədək olan küçə Azərbaycanın Milli Qəhrəmanı K.Kərimovun adını daşıyır. | | |
| 7. | Məmmədhüseyn Şəhriyar küçəsi | Böyük Azərbaycan şairi M.Şəhriyarın adını daşıyan küçə Nizami küçəsindən Yengicə kəndinə qədər olan küçənin adıdır. | Sovet küçəsi | |
| 8. | Mikayıl Müşfiq küçəsi | 1908-1938-ci illərdə yaşamış M.Müşfiqin Bakı şəhərində büstü qoyulmuş, qəsəbəyə, məktəbə, küçə və meydana şairin adı verilmişdir. Şərur şəhərində onun adını daşıyan küçə Heydər Əliyev | Sovet küçəsi | |

| | | | | |
|---|---|---|---|---|
| | | prospektindən Kapitan Seyidov küçəsindək ərazini əhatə edir. | | |
| 9. | Mirzə Ələkbər Sabir küçəsi | Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutan M.Ə.Sabirin poeziyası müasirliyi, xəlqiliyi, yüksək sənətkarlığı və dərin realizmi ilə Azərbaycan bədii və ictimai-siyasi fikir tarixində mühüm yer tutur. Şərur şəhərində onun adını daşıyan küçə Heydər Əliyev prospektindən Şəhriyar küçəsinədək olan ərazidə yerləşir. | Mirzə Ələkbər Sabir küçəsi | |
| 10. | Natəvan küçəsi | 1832-1897-ci illərdə yaşamış Xurşid Banu Natəvan "Xan qızı" adı ilə də məşhur olub. Şərq dillərini mükəmməl bilən X.B.Natəvan klassik poeziyanı dərindən mənimsəmiş və lirik şeirlər müəllifi kimi tanınmış, 1872-ci ildə Şuşada "Məclisi-üns" adlı ədəbi məclis təşkil etmişdir. Parlaq istedadı və qabaqcıl ideyaları ilə Azərbaycan mədəniyyəti və ictimai həyatında dərin iz qoymuşdur. Onun adını daşıyan küçə M.Ə.Sabir küçəsindən Nizami küçəsinədək olan ərazidə yerləşir. | Natəvan küçəsi | |
| 11. | Nəriman Nərimanov | İctimai-siyasi xadim, tanınmış dramaturq N.Nərimanovun adını daşıyan küçə Heydər Əliyev | Nəriman Nərimanov | |

| | | | | |
|---|---|---|---|---|
| | küçəsi | prospektindən Natəvan küçəsindək olan küçənin adıdır. | küçəsi | |
| 12. | Nizami Gəncəvi küçəsi | "Xəmsə"nin müəllifi N.Gəncəvinin adı verilmiş küçə Şəhriyar küçəsindən Çomaxtur kəndinə qədər olan küçənin adıdır. | Dəmir yolu küçəsi | |
| 13. | Sahib İbrahimov küçəsi | Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Sahib İbrahimovun adını daşıyan küçə 28 May küçəsindən S.Vurğun küçəsinədək olan ərazidə yerləşir. | Lenin, 28 May | |
| 14. | Şəhid Bayram küçəsi | Şəhid Bayram küçəsi Nizami küçəsindən Yengicə kəndinə qədər olan küçənin adıdır | Nizami küçəsi, sonar, Ş.İ. Xətai küçəsi | |
| 15. | Səməd Vurğun küçəsi | S.Vurğunun adını daşıyan küçə Kapitan Seyidov küçəsindən Sahib İbrahimov küçəsinə qədər olan küçənin adıdır. | | |
| 16. | 18 Oktyabr küçəsi | Azərbaycanın Dövlət müstəqilliyi Günü münasibətilə verilən küçə Şəhriyardan Yengi çəyə qədər olan küçənin adıdır. | Komsomol küçəsi | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | | **Babək qəsəbəsi** | | |
| 1. | Heydər Əliyev prospekti | Babək rayon mərkəzindən Naxçıvan-Culfa magistral yoluna qədər olan prospekt müstəqil Azərbaycanın memarı, ulu öndər Heydər Əliyevin adını daşıyır. | | Babək rayon İH başçısının 07.06.2004-cü il tarixli, 48 № li sərəncamı |
| 2. | Anar Məmmədov küçəsi | Heydər Əliyev prospektinin kəsişməsindən C. Məmmədquluzadə küçəsinin kəsişməsinədək olan küçəyə Ağdam bölgəsində şəhid olmuş Anar Məmmədovun adı verilmişdir. | | |
| 3. | Azadlıq küçəsi | Qəsəbənin əsas küçələrindən biri Azadlıq adlanır. | M.Rəsulzadə küçəsi | |
| 4. | Cəlil Məmmədqul uzadə küçəsi | Azərbaycan ədəbiyyatı tarixində mühüm yer tutan C.Məmmədquluzadənin adını daşıyan küçə Hüseyn Cavid küçəsinin kəsişməsindən S.Vurğun küçəsinin kəsişməsinədək olan küçənin adıdır. | | |
| 5. | Hüseyn Cavid küçəsi | Azərbaycan ictimai fikir tarixində mühüm yer tutan H.Cavidin adına verilmiş küçə Vəli Məmmədov küçəsinin kəsişməsindən (Xəstəxa- | | |

| | | | | |
|---|---|---|---|---|
| | | nanın arxası) M. Hüseynzadə küçəsinin kəsişməsinədək olan ərazidə yerləşir. | | |
| 6. | 20 Yanvar küçəsi | Küçəyə 20 Yanvar faciəsi - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun erməni quldur dəstələri ilə birgə xalqımıza qarşı həyata keçirdiyi terror aktının baş verdiyi hadisə ilə bağlı ad verilmişdir. 20 Yanvar küçəsi qəsəbənin Qoşadizə kənd tərəfdən girişindən Nehrəm kənd tərəfdən qurtaracağına qədər olan ərazidə yerləşir. | | |
| 7. | 28 May küçəsi | Küçəyə Azərbaycanın Respublika Günü - Azərbaycan Demokratik Cümhuriyyətinin yarandığı gün münasibətilə ad verilmişdir. 28 May küçəsi Heydər Əliyev prospektinin kəsişməsindən qəsəbənin Nehrəm kənd tərəfdən qurtaracağına qədər olan ərazisində yerləşir. | | |
| 8. | İmadəddin Nəsimi küçəsi | Böyük Azərbaycan şairi İ.Nəsimi Yaxın Şərq şeirinin inkişafında mühüm rol oynamış görkəmli bir sənətkardır. Onun ərəb, fars, xüsusən ana dilində yazdığı əsərlər Azərbaycan ədəbiyyatında ayrıca bir mərhələdir. Şairin şeirləri ona dünya şöhrəti qazandırmışdır. Qəsəbədə İ.Nəsiminin adına verilmiş küçə Heydər Əliyev prospektinin kəsiş- | | |

| | | | | |
|---|---|---|---|---|
| | | məsindən Nehrəm kənd tərəfdən qurtaracağına qədər olan ərazidə yerləşir. | | |
| 9. | Qəzənfər Əkbərov küçəsi | Cəhri kəndində (Babək) anadan olmuş, Böyük Vətən Müharibəsi iştirakçısı (1941-1945), Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Əkbərovun adını əbədiləşdirən babəklilər qəsəbədəki M.P.Vaqif küçəsinin kəsişməsindən Azadlıq küçəsinin kəsişməsinə qədər olan küçəyə onun adını vermişlər. | | |
| 10. | Mehdi Hüseynzadə küçəsi | Böyük Vətən Müharibəsi iştirakçısı (1941-1945), Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin adını daşıyan küçə H.Cavid küçəsinin kəsişməsindən M.Füzuli küçəsinin kəsişməsinə qədər olan küçəni əhatə edir. | | |
| 11. | Memar Əcəmi küçəsi | XII əsrdə yaşamış Əcəmi Naxçıvani Azərbaycan memarlıq məktəbinin banisidir. Qəsəbədə onun adını daşıyan keçə 20 Yanvar küçəsinin kəsişməsindən Babək qəsəbəsinin qurtaracağına qədər olan küçəni əhatə edir (Stadiona tərəf). | | |
| 12. | Məhəmməd Füzuli küçəsi | Məhəmməd Füzuli (1494-1556) zəngin və çoxcəhətli bir irs yaratmış, şeirimizi forma və məzmunca zənginləşdirmişdir. Qəsəbədə onun adına | | |

| | | | | |
|---|---|---|---|---|
| | | verilmiş küçə Heydər Əliyev prospektinin kəsişməsindən qəsəbənin Nehrəm kənd tərəfdən qurtaracağına qədər olan ərazidə yerləşir. | | |
| 13. | Məmməd Səid Ordubadi küçəsi | Azərbaycan ədəbiyyatı tarixində romanlar müəllifi kimi tanınan M.S.Ordubadinin (1870-1950) adını daşıyan küçə Hüseyn Cavid küçəsinin (Xəstəxananın yanından) S.Vurğun küçəsinin kəsişməsinədək olan küçənin adıdır. | | |
| 14. | Mikayıl Müşfiq küçəsi | 1908-1938-illərdə yaşamış M. Müşfiq lirik şeirlər, poemalar müəllifi idi. O, 1938-ci ildə repressiya qurbanı kimi güllələnmişdir. Şairin adını daşıyan küçə Heydər Əliyev prospektinin kəsişməsindən (məktəbin yanından) Babək qəsəbəsinin Nehrəm kənd tərəfdən qurtaracağına qədər olan küçəni əhatə edir. | | |
| 15. | Mirzə Ələkbər Sabir küçəsi | Azərbaycanın böyük satirik şairi M.Ə.Sabirin adını daşıyan küçə Q.Əkbərov küçəsinin kəsişməsindən Babək qəsəbəsinin qurtaracağına qədər (Stadionun yanına) | | |
| 16. | Molla Pənah Vaqif küçəsi | XVIII əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi M.P.Vaqifin adını daşıyan küçə | | |

| | | | | |
|---|---|---|---|---|
| | | Q.Əkbərov küçəsinin kəsişməsindən 20 Yanvar küçəsinin kəsişməsinədək olan küçəni əhatə edir. | | |
| 17. | Nəriman Nərimanov küçəsi | Görkəmli dövlət xadimi N.Nərimanovun adını daşıyan küçə M.S.Ordubadi küçəsinin kəsişməsindən (məktəbin arxasından) Babək qəsəbəsinin Nehrəm kənd tərəfdən qurtaracağına qədər olan küçəni əhatə edir. | | |
| 18. | Nizami küçəsi | Böyük poemalar müəllifi N.Gəncəvinin adını daşıyan küçə Qəzənfər Əkbərov küçəsinin kəsişməsindən Azadlıq küçəsinin kəsişməsinə qədər olan küçəni əhatə edir (İcra hakimiyyətinin arxası). | | |
| 19. | Səməd Vurğun küçəsi | Qəsəbədə S.Vurğunun adını daşıyan küçə Heydər Əliyev prospektinin kəsişməsindən C. çg Məmmədquluzadə küçəsinin kəsişməsinədək olan küçənin adıdır. | | |
| 20. | Vəli Mahmudov küçəsi | Azadlıq küçəsinin kəsişməsindən (Prokurorluğun qabağı) Qəbiristanlığın yanına qədər olan küçəyə Füzuli bölgəsində şəhid olmuş Vəli Mahmudovun adı verilmişdir. | | |

## Kənd mərkəzlərinin adları

Azərbaycan dilinin onomastik leksikasına son illərdə daxil olmuş kənd mərkəzlərinin adları urbanonimlərin tərkib hissələrindən biridir. Bu adlar yaşayış məntəqələrinin topoqrafik obyektlərinə məxsus xarakterik xüsusiyyətləri özündə əks etdirir.

Kənd mərkəzləri kəndin ümumi və müasir meydanının ünvanını bildirir. Belə mərkəzlər kəndin bir hissəsində yerləşir. Kənd mərkəzləri və onların adları ilk dəfə Naxçıvan Muxtar Respublikası ərazisində meydana gəlmiş, Naxçıvan MR Ali Məclisinin Sədri V.Talıbovun şəxsi təşəbbüsü, böyük qayğısı və uzaqgörənliyi sayəsində həyata vəsiqə almış, muxtar respublikanın dinamik inkişafı nəticəsində formalaşdırılmışdır.

Bu bir həqiqətdir ki, son zamanlar Naxçıvan Muxtar Respublikasında hərtərəfli inkişaf və yüksəliş davamlı xarakter almış, bölgənin hər tərəfində aparılan quruculuq işləri, məktəb tikintisi, uşaq bağçaları, mədəniyyət evləri, klublar, çəkilən abad yollar hesabına yaşayış məntəqələrinin siması əsaslı şəkildə dəyişmiş, müasir qəsəbə və kəndlərimizin sayı artmış, əhalinin sosial-mədəni səviyyəsi yüksəlmişdir. Odur ki, kənd mərkəzləri həyati zərurət nəticəsində yaranmışdır.

Kənd mərkəzləri öz məzmuna və formasına, orada yerinə yetirilən işlərin xarakterinə görə kəndin əsas mədəniyyət mərkəzidir. Bu mərkəzlər keçmiş kənd meydanlarını xatırlasa da, öz məzmunu və formasına görə keçmiş meydanlardan tamamilə fərqlənir. Əvvala, keçmiş kənd meydanları kiçik, darısqal, tozlu-torpaqlı məhəllələrdə, məscid və ya kiçik klub həyətində yerləşir, ətrafında da kəhriz və ya bir neçə ağac olurdu. Məsələn, tarixən Cəhri kəndində (Babək) olan kənd meydanında bir neçə çayçı və mağaza var idi. Bu hal digər kənd meydanları üçün də səciyyəvi idi. Odur ki, kənd meydanları əhaliyə mədəni-məişət, səhiyyə, poçt, rabitə və s. kimi xidmət-

lər göstərməkdən uzaq idi, indiki kənd mərkəzlərinin yerinə yetirdiyi finksiyaları əhatə edə bilmirdi.

Ancaq kənd meydanlarından fərqli olaraq kənd mərkəzləri kəndin idarə olunması, mədəni tədbirlərin həyata keçirilməsi, bədii əsərlərin müzakirəsi, əhaliyə rabitə, poçt, mədəni-məişət xidməti kimi məsələlərin yerinə yetirilməsində mühüm yer tutur. Odur ki, kənd mərkəzləri kənd üçün vacib sayılan kitabxana, klub və ya mədəniyyət evi, iclas zalı, YAP ərazi təşkilatı, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, poçt, rabitə, baytarlıq məntəqələri, polis sahə müvəkkili, bəzi yerlərdə feldşer mama məntəqəsi, ərzaq və sənaye mağazası, gözəllik salonu və s. kimi infrastrukturları özündə cəmləyən bir mərkəzdir. Belə mərkəzlər müasir üslubda tikilmiş binalar və hər cür avadanlıqla təchiz edilmişdir.

Son illərdə muxtar respublikada 101 belə mərkəz tikilib istifadəyə verilmiş, o cümlədən 16 mərkəzdə yenidənqurma və ya əsaslı təmir işləri aparılmışdır. Həmin mərkəzlərin 3-ü *Əliabad* (Naxçıvan şəhəri), *Qıvraq* (Kəngərli rayonu) və *Badamlı* (Şahbuz rayonu) qəsəbələrində, digərləri isə kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. Hazırda muxtar respublikanın bir sıra kəndlərində də yeni kənd mərkəzləri inşa olunmaqdadır.

Kənd mərkəz adı görülən işin profilinə uyğun seçilmişdir. Bu ad yerinə yetirdiyi işin mahiyyətini özündə əks etdirə bilir və ikinci növ ismi birləşmə modelində olur. Birləşmənin tərəfləri arasına heç bir söz daxil olmur, tərəflər isimlə ifadə olunur və cəm şəkilçiləri qəbul etmir. Adın birinci komponenti mərkəzin aid olduğu kəndin adını, yerləşdiyi məkanı bildirir. İkinci komponen isə “kənd mərkəzi” birləşməsindən ibarət olur. Kənd mərkəzi birləşməsində əsas vəzifə dəqiqləşdirici söz olan “mərkəz” sözünün üzərinə düşür. Bu söz mərkəzin statusunu bildirir, adın mənasını aydınlaşdırır. Ona görə birləşmənin komponentlərini adın tərkibindən çıxmaq olmaz.

Kənd mərkəz adları mənasına görə ümumilik, konkretlik bildirir, üçkomponentli söz tərkibindən ibarət olur və birlikdə bir ad bildirir. Adın tərəfləri ayrı yazılır. Məsələn: *Qarabağlar kənd mərkəzi, Şahtaxtı kənd mərkəzi* (Kəngərli), *Sərxanlı kənd mərkəzi, Şahbulaq kənd mərkəzi, Xanlıqlar kənd mərkəzi, Gümüşlü kənd mərkəzi* (Şərur), *Nehrəm kənd mərkəzi, Zeynəddin kənd mərkəzi, Sirab kənd mərkəzi, Şıxmahmud kənd mərkəzi* (Babək) və s.

Digər onomastik vahidlərdən fərqli olaraq kənd mərkəzləri aid olduğu kəndin adı ilə adlandırılır. Məsələn: *Axura kənd mərkəzi, Qarxun kənd mərkəzi, Zeyvə kənd mərkəzi, Aşağı Yaycı kənd mərkəzi* (Şərur), *Yeni Kərki kənd mərkəzi, Qabıllı kənd mərkəzi, Çalxanqala kənd mərkəzi, Xok kənd mərkəzi* (Kəngərli), *Cəhri kənd mərkəzi, Aşağı Uzunoba kənd mərkəzi, Nəzərabad kənd mərkəzi, Didivar kənd mərkəzi, Kərimbəyli kənd mərkəzi, Şəkərabad kənd mərkəzi, Çeşmə.-basar kənd mərkəzi* (Babək), *Kotam kənd mərkəzi, Biləv kənd mərkəzi, Bist kənd mərkəzi, Düylün kənd mərkəzi, Gənzə kənd mərkəzi, Yuxarı Əylis kənd mərkəzi, Ələhi kənd mərkəzi, Xurs kənd mərkəzi, Behrud kənd mərkəzi, Nəsirvaz kənd mərkəzi,* (Ordubad), *Ləkətağ kənd mərkəzi, Teyvaz kənd mərkəzi, Kırna kənd mərkəzi* (Culfa), *Kükü kənd mərkəzi, Kolanı kənd mərkəzi, Biçənək kənd mərkəzi, Şada kənd mərkəzi Badamlı qəsəbə mərkəzi* (Şahbuz) və s.

## Urbanonimlərin leksik-semantik xüsusiyyətləri

Tədqiqat sübut edir ki, şəhərdaxili və kənddaxili topoqrafik obyektlər müxtəlif dövrlərdə ayrı-ayrı tayfa, qəbilə, nəsil və tirələrin bir yerdə məskunlaşması, əhalinin artımı, peşə və məşğuliyyət sahələri, bölgədə heyvandarlıq və maldarlığın inkişafı, ərazinin bitki örtüyü və s. ilə bağlı meydana gəlmiş və belə obyektlərə müxtəlif adlar verilmişdir. Bu adların hər biri-

nin yaranma səbəbi, formalaşma yolu, zəngin leksik-semantik xüsusiyyətləri vardır. Məhəllə və meydanlara ad verilərkən bir məna, məzmun düşünülmüş, müəyyən prinsiplər gözlənilmişdir. Odur ki, topoqrafik obyekt adlarının hər birinin leksik mənası, semantik tutumu vardır. Bunu nəzərə alıb belə xüsusi adları məna əsasına, mənşəyinə görə aşağıdakı şəkildə qruplaşdıra bilərik.

**Antroponimlər əsasında yaranan urbanonimlər.** Zəngin antroponimik leksikaya malik Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələrində küllü miqdarda dil faktları vardır. Bu faktların bir qismi şəhər və kəndlərimizin topoqrafik obyekt adlarında öz əksini tapır. Tədqiqatdan aydın olur ki, tarix boyu yaşayış məntəqələrindəki topoqrafik obyektlərə daha çox məhəllənin əsasını qoyan, məhəllədə yüksək mövqe tutan, ağsaqqal nüfuzuna malik, tanınmış şəxslərin adlarının verilməsi bir ənənə halını almış, məhəllə, meydan və küçə adları hər hansı bir şəxsin adını daşımışdır. Buna görə bölgənin toponimik leksikasında antrotoponimik adlar məhsuldar şəkildədir. Zaman keçdikcə bu adların bir qismi unudulmuş, bir qismi isə günümüzədək çatmışdır.

a) Şəxsiyyətləri bizə məlum olmayan müxtəlif şəxs adları əsasında yaranan adlar. Naxçıvanın ayrı-ayrı şəhər və kəndlərində mövcud olan *Həsənalı bəy məhəlləsi, Göy Alı məhəlləsi, Oruc məhəlləsi, Mahmudağa məhəlləsi* (Naxçıvan şəhəri), *Hacı Rəcəb məhəlləsi, Dərviş Alı məhəlləsi* (Sirab kəndi, Babək), *Nurməmməd məhəlləsi, Məşə Qasım məhəlləsi, Məşə Hüseyn məhəlləsi, Məşə Kazım məhəlləsi* (Zeynəddin kəndi, Babək), *Əmirxan məhəlləsi, Qulu məhəlləsi* (Gərməçataq kəndi, Babək), *Pza kişi məhəlləs, Kalba Nəsir məhəlləsi* (Bənəniyar kəndi, Culfa), *Xıdır meydanı, Nəzər meydanı* (Yaycı kəndi, Culfa), *Hacı Qasım məhəlləsi* (Dizə kəndi, Culfa), *Qulalı məhəlləsi* (Tənənəm kəndi, Şərur), *Rüstəmalı məhəlləsi* (Zeyvə kəndi, Şərur), *Məşədi Nəbi məhəlləsi* (Dəmirçi kəndi, Şərur), *Bəylər*

*məhəlləsi* (Ordubad şəhəri, Yengicə və Şəhriyar kəndləri, Şərur), *Əmrah məhəlləsi* (Nüsnüs kəndi, Ordubad), *Heydər döngəsi* (Dəstə kəndi, Ordubad), *İsmayıl diki məhəlləsi* (Azad kəndi, Ordubad), *Hacı bəy məhəlləsi* (Çərçiboğan kəndi, Şərur), *İsmixan məhəlləsi* (Muğancıq Müslüm kəndi, Şərur), *Hacı Qasım məhəlləsi* (Şahtaxtı kəndi, Kəngərli) və s. kimi məhəllə adları bu qəbildəndir.

b) Topoqrafik obyektlərin bir qismi cəmiyyət içərisində yüksək mövqe tutan tayfa, nəsil, tirə başçılarının adlarına -lı,-li, -lu, -lü şəkilçisinin artırılması yolu ilə yaranmışdır. Bölgədə bu tipli urbanonimlərin işlənmə dairəsi çox genişdir. Məsələn: *Əlibəyli məhəlləsi, Salahlı məhəlləsi, Hüseynxanlı məhəlləsi, Cilovxanlı məhəlləsi, Heydərxanlı məhəlləsi* (Cəhri kəndi, Babək), *Turabxanlı məhəlləsi, Babaxanlı məhəlləsi, Süleymanlı məhəlləsi, Əlmədətli məhəlləsi* (Qarabağlar kəndi, Kəngərli), *İmanlı məhəlləsi, Ramazanlı məhəlləsi* (Gal kəndi, Culfa), *Həsənli məhəlləsi* (Mahmudkənd, Şərur), *Cibirxanlı məhəlləsi, Eyvazlı məhəlləsi* (Tənənəm kəndi, Şərur), *Kərimli məhəlləsi, Cəfərli məhəlləsi* (Dəmirçi kəndi, Şərur), *Davudlu məhəlləsi, Qasımlı məhəlləsi, Mürsəlli məhəlləsi, Əliyarlı məhəlləsi* (Düdəngə kəndi, Şərur), *İmanlı məhəlləsi, Sərxanlı məhəlləsi* (Zeyvə kəndi, Şərur), *Bədəlxanlı məhəlləsi* (Şahbuzkənd, Şahbuz), *Bədəlli məhəlləsi* (Kolanı kəndi, Şahbuz), *Kərimli məhəlləsi, İsmixanlı məhəlləsi, Haqvestili məhəlləsi* (Sədərək kəndi) və s.

*Haqvestili məhəllə* adı (Sədərək) Haqverdili Haqverdi şəxs adına -lı şəkilçisinin artırılması yolu ilə yaranmış və canlı danışıq dilində Haqvestili şəklinə düşmüşdür.

c) Tayfa, qəbilə, nəsil, tirə başçısının adına -lı, -li,- lu, -lü sözdüzəldici şəkilçisi və -lar, -lər cəm şəkilçilərinin artırılması yolu ilə yaranan məhəllə və meydan adları burada yaşayan tayfa adı haqqında informatik məlumat verir. Belə etnotoponimik adlara *Sunqulular məhəlləsi, Tağılılar məhəlləsi, Babalılar*

*məhəlləsi* (Qarabağlar kəndi, Kəngərli), *Qaraəhmədlilər məhəlləsi* (Yengicə kəndi, Şərur), *Zamanlılar məhəlləsi* (Çərçiboğan kəndi, Şərur), *Salahlılar məhəlləsi* ( Kükü kəndi, Şahbuz) və s. kimi urbanonimləri misal göstərə bilərik:

d) Dilimizin onomastik leksikasında özünə yer tutmuş anrtoponim mənşəli urbanonimlər daha çox memuar-xatirə xarakteri daşıyır. Belə xüsusi adlar əsasən, prospekt və küçə adlarında əks olunur və aid təşkilatlar tərəfindən sənədləşdirilir. Memuar-xatirə tipli urbanonimlər tarixi şəxsiyyətlərin, ictimai-siyasi xadimlərin, görkəmli yazıçı və şairlərin, elm və sənət adamlarının adları əsasında yaranan toponimlərdir. Məsələn, Naxçıvan, Ordubad, Culfa, Şərur, Şahbuz şəhərləri, Babək, Qıvraq və Heydərabad qəsəbələrinin mərkəzi prospektləri ümummilli lider Heydər Əliyevin şərəfinə adlandırılmışdır.

Muxtar respublikanın şəhər və qəsəbələrində *Əziz Əliyev küçəsi, Zərifə Əliyeva küçəsi, Həsən Əliyev küçəsi, Babək küçəsi, Şah İsmayıl Xətai küçəsi, Nizami Gəncəvi küçəsi, Məhəmməd Füzuli küçəsi, Atatürk küçəsi, Yusif Məmmədəliyev küçəsi, İslam Səfərli küçəsi, Abbas Zamanov küçəsi, Məmməd Araz küçəsi* və digər antroponim mənşəli küçə adları da memuar-xatirə xarakterli toponimlərdir.

e) Antroponim mənşəli urbanonimlər içərisində Böyük Vətən Müharibəsi dövründə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən, 1988-ci ildən bu günə kimi Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid qanı tökən oğul və qızlarımızın, Milli Qəhrəmanlarımızın adları da prospekt, küçə adlarında öz əksini tapır. Məsələn: *Abbas Quliyev küçəsi, Qəzənfər Əkbərov küçəsi, Nəcəfqulu Rəfiyev küçəsi Mehdi Hüseynzadə küçəsi, Həzi Aslanov küçəsi, İdris Məmmədov küçəsi, Yusif Mirzəyev küçəsi, Vüqar Qasımov küçəsi* (Naxçıvan şəhəri), *Məhərrəm Seyidov küçəsi, Kərim Kərimov küçəsi* (Şərur şəhəri), *Elşad Nağıyev küçəsi, Şəhid Əliqulu küçəsi* (Culfa şəhəri) və s.

**Etnonimlər əsasında yaranan urbanonimlər.** Məhəllə və meydan adlarının xeyli hissəsi xalqımızın təşəkkül tarixində mühüm rol oynayan müxtəlif xalq, tayfa, nəsil, tirə adları ilə bağlı yaranmışdır. Belə etnoslar, ayrı-ayrı tayfa və tayfa birləşmələri Naxçıvanın etnogenezi, ictimai-siyasi həyatına daxil olmuş və öz izini qoruyub saxlamışır. Bu tip xüsusi adlar əhalinin etnik tərkibinin müəyyənləşdirilməsində mühüm yer tutur. Bölgədə qədim tayfa adları əsasında yaranmış *Bəydili məhəlləsi* (Qarabağlar kəndi Kəngərli; Sirab kəndi, Babək), *Cığatay məhəlləsi* (Nəzərabad kəndi, Babək), *Qurdlar məhəlləsi* (Naxçıvan şəhəri, Teyvaz kəndi, Culfa; Muğancıq Müslüm və Şəhriyar kəndləri, Şərur; Zeynəddin kəndi, Babək), *Aşağı Qazaxlı məhəlləsi, Yuxarı Qazaxlı məhəlləsi* (Kolanı kəndi, Şahbuz), Gülümlü məhəlləsi, *Qazaxlı məhəlləsi* (Xanlıqlar kəndi, Şərur), *Gülümlü məhəlləsi* (Cəlilkənd kəndi, Şərur), *Bayat məhəlləsi* (Aralıq kəndi, Şərur) və s. kimi topoqrafik adlar bu qəbildəndir.

*Çobankərəlilər* məhəllə adı (Xanlıqlar kəndi, Şərur) qədim Azərbaycan ərazisi olan İrəvanın eyniadlı kəndindən köçüb gələn ailələr tərəfindən salınmışdır. Bu tayfa ilə bağlı ailələr Naxçıvan şəhəri, Xanlıqlar (Şərur rayonu) və Şıxmahmud kəndlərində (Babək rayonu) yaşayırlar. Xanlıqlar kəndindəki *Gülümlü və Qazaxlı məhəllə* adları da eyniadlı tayfaların adları ilə əlaqədar verilmişdir. *Kürdlər məhəllə* adı (Mahmudkənd və Şəhriyar) məhəllədə kürdlərin yaşaması ilə əlaqədar verilmiş addır. Kolanı kəndindəki (Şahbuz rayonu) *Yolçular məhəllə* adı eyniadlı etnonimlə bağlıdır. Kənddəki Kolanılı tayfası Allahqulu, Həsənli və Yolçu qollarına ayrılır ki, bu məhəllə adı da tayfanın Yolçu qolunun adı ilə bağlı yaranmışdır. Tərəfimizdən qeydə alınan Qaraçı məhəllə adı (Qarahəsənli kəndi, Şərur; Dəstə kəndi, Ordubad) eyniadlı tayfanın izlərini yaşadır.

**Oykonimlər əsasında yaranan urbanonimlər.** Bu qrupa daxil olan topoqrafik adlar bir neçə ailənin bir yaşayış məntə-

qəsindən digər yaşayış məntəqəsinə köçməsi ilə bağlı yaranmışdır. Məsələn, Babək rayonunun Təzəkənd kəndindən Naxçıvan şəhərinə köçən ailələr məskunlaşdıqları məhəlləyə *Təzəkənd məhəlləsi,* Xok kəndindən köçənlər isə *Xoylu məhəllə* adı vermişdir. Muğanlı kəndindən Xanlıqlar kəndinə (Şərur) köçənlərin yaşadıqları məhəllə *Muğanlı məhəlləsi* adlandırılmışdır. Bu hal Zeyvə kəndindəki (Şərur) *Sərxanlı məhəlləsi,* Xanəgah kəndindəki (Culfa) *Anzır yolu məhəlləsi,* Əlincə kəndindəki (Culfa) *Xanağa məhəlləsi* və digər məhəllə adları üçün də xarakterikdir.

Qeyd etdiyimiz məsələ dağılıb sıradan çıxmış, adı passiv fonda keçmiş, ancaq məhəllə adlarında özünü yaşadan kənd adları üçün də səciyyəvidir. Məsələn, vaxtilə Şərur ərazisinə daxil olan və 1929-cu ildə qanunsuz olaraq Ermənistana verilən Qurdqulaq kəndindən Nəzərabad kəndinə (Babək) köçənlərin yaşadıqları məhəllə *Qurdqulaq məhəlləsi,* adı passiv fonda keçmiş Haçaparaq kəndindən Güznüt kəndinə köçənlərin yaşadıqları məhəllə *Haçaparaq məhəlləsi,* Şeytanabad kəndindən Gərməçataq kəndinə köçənlərin yaşadıqları məhəllə isə *Şeytanabad məhəlləsi* adı ilə tanınır.

**Oronimlər əsasında yaranan urbanonimlər.** Naxçıvanın topoqrafik obyekt adları fondunda dağ, dərə, ərazi adları əsasında yaranan məhəllə və meydan adları da vardır. Məsələn: *Sarıdağ məhəlləsi* (Dəstə kəndi, Ordubad), *Sat dağı məhəlləsi* (Nüsnüs kəndi, Ordubad), *Baba dərəsi məhəlləsi* (Bənəniyar kəndi, Culfa) kimi adların mənşəyi oronimlərlə bağlıdır. Kolanı kəndindəki (Şahbuz) *Qarnıyarıq məhəlləsi* öz adını qədim yaşayış məskəni olan Qarnıyarıq yer adından almışdır. Yaycı kəndindəki (Culfa rayonu) *Çay məhəlləsi* əhali arasında, həm də *Segilan məhəlləsi* adı ilə tanınır. Bu ad Yaycıya yaxın ərazidə yerləşən Xaraba Gilan şəhər adı ilə bağlı yaranmışdır. Ekspedisiya zamanı qeydə alınan *Gəlinqaya* (Göydərə kəndi, Culfa), *Qara yamac* (Təzəkənd, Babək), *Doq-*

*quz hektar* (Dəmirçi kəndi, Şərur) və s. kimi məhəllə adları da oronim mənşəli toponimlərdir.

**Hidronimlər əsasında yaranan urbanonimlər.** Toponimik araşdırmalar göstərir ki, bu qrupa aid edilən məhəllə və meydan adları *Qızlar bulağı məhəlləsi* (Naxçıvan şəhəri), *Çaybasar məhəlləsi* (Cəhri kəndi, Babək), *Lülə çeşmə məhəlləsi* (Bənəniyar kəndi, Culfa), *Qaramalıq məhəlləsi* (Şahbuzkənd, Şahbuz), *Göl yeri məhəlləsi* (Gərməçataq kəndi, Babək), *Çaylı məhəlləsi* (Nüsnüs kəndi, Ordubad) kimi onomastik adlarla səciyyələnir.Tədqiqat zamanı Bənəniyar, Xoşkeşin, Yaycı, Dizə (Culfa), Cəlilkənd, Xanlıqlar (Şərur), Kolanı (Şahbuz), Cəhri, Nehrəm, Kültəpə (Babək), Nüsnüs, Dırnıs (Ordubad) və digər kəndlərdə *Çay məhəllə* adı qeydə alınmışdır. Bu məhəllə adları mənşəyinə görə hidronimik toponim olmaqla bərabər, həm də yerləşdiyi əraziyə işarə kimi də dərk olunmalıdır.

**Zoonimlər əsasında yaranan urbanonimlər.** Dil faktları sübut edir ki, Naxçıvan Muxtar Respublikasının faunasına daxil olan müxtəlif heyvan adları urbanonimlərin yaranmasında komponent yerində çıxış etsə də, toponimik fondda azlıq təşkil edir. Məsələn: *Qoyunlu məhəlləsi* (Qızılca kəndi, Culfa), *Qoduq meydanı* (Yaycı kəndi, Culfa), *Dəvəboynu meydanı, Eşşək meydanı* (Bist kəndi, Ordubad), *Qurdlu məhəllə* (Kolanı kəndi, Şahbuz) və s.

**Fitonimlər əsasında yaranan urbanonimlər.** Naxçıvan Muxtar Respublikasının təbiəti çox zəngin və rəngarəngdir. Əminliklə demək olar ki, burada Yer kürəsinin bitki örtüyünün əksər növlərinə rast gəlmək olar. Odur ki, bölgənin məhəllə və meydan adlarında fitonim mənşəli adlar özünə yer tutmuşdur. Məsələn: *Söyüdlü bilan məhəlləsi, Qaraağac məhəlləsi, Təkarmud məhəlləsi, Çəmən məhəllə* (Naxçıvan şəhəri), *Bağarası məhəllə* (Nehrəm kəndi, Babək), *Güllüklər məhəlləsi* (Siyaqut kəndi, Şərur), *Söyüdlü məhəlləsi* (Qarahəsənli kəndi, Şərur),

*Kollu yer məhəlləsi* (Qızıl Qışlaq kəndi, Şahbuz), *Parişdi məhəllə, Darı yeri məhəlləsi* (Kolanı kəndi, Şahbuz), *Gülüşün bağı məhəlləsi* (Vayxır kəndi, Babək), *Çinar məhəlləsi* (Üstüpü kəndi, Ordubad), *Çimən məhəlləsi* (Dırnıs kəndi, Ordubad), *Gilaslar altı məhəllə* (Gənzə kəndi, Ordubad), *Bağlı məhəllə* (Qızılca kəndi, Culfa), *Parişdi məhəllə* (Xanlıqlar kəndi, Şərur), *Keçəlbağ məhəlləsi, Tək armud məhəlləsi* (Bənəniyar kəndi, Culfa) və s.

**Ərazinin relyefinə, əlamət və formasına görə verilən adlar.** Belə xüsusi adların verilməsində məhəllənin yerləşdiyi ərazinin relyefi, əlaməti, böyük və kiçikliyi, düz və əyriliyi nəzərdə tutulur. Məsələn: *Əyribucaq məhəlləsi, Xəndək məhəlləsi, Xəndək meydanı* (Nehrəm kəndi, Babək), *Düz məhəllə* (Gərməçataq kəndi, Babək), *Çaylaq məhəlləsi* (Kültəpə kəndi, Babək), *Uzun küçə məhəlləsi* (Yaycı kəndi, Culfa; Vənənd kəndi, Ordubad), *Yallı məhəllə* (Tənənəm kəndi, Şərur), *Çökək məhəllə* (Ələkli kəndi, Şərur), *Meydan məhəlləsi* (Dəstə, Tivi və Nüsnüs kəndləri, Ordubad), *Yarğanlar məhəlləsi* (Xanəgah kəndi, Culfa), *Dərə məhəllə* (Xanəgah, Əlincə, Xoşkeşin, Göydərə kəndləri, Culfa; Biçənək kəndi, Şahbuz)), *Tayçuxuru məhəlləsi* (Biləv kəndi, Ordubad), *Saçvarlılar məhəlləsi* (Şəhriyar kəndi, Şərur) və s.

Bölgədə relyeflə bağlı *çuxur* termininin komponentliyi ilə Naxçıvan şəhəri; Zeyvə, Xələc, Havuş (Şərur), Biləv, Behrud (Ordubad), Kolanı (Şahbuz), Qaraçuq, Gərməçataq (Babək), Qarabağlar (Kəngərli), Bənəniyar (Culfa) kəndləri və digər yaşayış məntəqələrində 15-dən artıq məhəllə adı qeydə alınmışdır.

**Yerləşdiyi əraziyə görə verilən adlar.** Bu qrupa daxil olan *Körpüqırağı məhəlləsi* (Behrud kəndi, Ordubad), *Məscidqabağı məhəllə, Evaltı məhəllə* (Biləv kəndi, Ordubad), *Üst daşlar məhəlləsi* (Bənəniyar kəndi, Culfa), *Hamamyanı meydan* (Yaycı kəndi, Culfa), *Bu tay məhəllə, O tay məhəllə* (Ke-

çili kəndi, Şahbuz), *Çaylaq meydanı, Yuxarı Çaylaq məhəlləsi, Aşağı Çaylaq məhəlləsi, Qala yolu məhəlləsi, Qala yolu meydanı Təpəbaşı məhəllə, Təpəbaşı meydan* (Nehrəm kəndi, Babək), *Yoldalı məhəlləsi* (Sirab kəndi, Babək), *Çuxur məhəllə, Tayçuxuru məhəlləsi* (Biləv kəndi, Ordubad) və s. kimi məhəllələrə yerləşdiyi əraziyə görə ad verilmişdir.

**Yerləşdiyi ərazinin cəhətinə görə verilən adlar.** Məlumdur ki, hər hansı coğrafi obyektin (bizim tədqiqatda şəhərin və ya kəndin) cəhəti şərq, qərb, şimal və cənub terminləri ilə ifadə olunur. Bölgədə bu terminlər əvəzinə aşağı, yuxarı, orta, qiblə kimi xalq coğrafi terminləri işlədilir və məhəllənin yerləşdiyi cəhəti, səmti, ünvanı dəqiqləşdirir. Tədqiqat zamanı Nursu, Biçənək, Mahmudoba, Şahbuzkənd (Şahbuz), Alışar, Çərçiboğan, Yuxarı Dağarx, Aşağı Daşarx, Aralıq, Mahmudkənd (Şərur), Aşağı Əylis, Yuxarı Əylis, Nüsnüs, Behrud, Tivi, Gilançay, Dəstə (Ordubad), Sirab, Kültəpə (Babək), Qızılca, Qazançı, Ərəfsə, Göydərə (Culfa) və digər kəndlərdə aşağı, yuxarı və orta terminlərinin komponentliyi ilə *Aşağı məhəllə, Yuxarı məhəllə, Orta məhəllə, Aşağı Ambaras məhəlləsi, Yuxarı Ambaras məhəlləsi* (Ordubad şəhəri), *Yuxarı selov məhəlləsi, Aşağı selov məhəlləsi* (Zeynəddin kəndi, Babək), *Aşağı çaylaq məhəlləsi* (Nehrəm kəndi, Babək), *Aşağı Qazaxlı məhəlləsi* (Kolanı kəndi, Şahbuz) və s. adda 60-dan artıq məhəllə adı qeydə alınmışdır.

**Yerləşdiyi ərazinin torpaq qatının tərkibinə, rənginə görə verilən adlar.** Tədqiq olunan ərazidə belə məhəllə və meydan adları *Kəpir məhəlləsi* (Nüsnüs kəndi, Ordubad), *Torpaqlı məhəllə, Çınqıllı küçə* (Yaycı kəndi, Culfa), *Daşlıq məhəlləsi, Şorannıx məhəllə* (Dizə kəndi,Culfa), *Daş məhəllə* (Qarabağlar kəndi, Kəngərli), *Qıraş məhəllə* (Dəmirçi kəndi, Şərur), *Küllük məhəllə, Şor məhəllə* (İbadulla kəndi, Şərur) *Daş dərə məhəlləsi* (Şahtaxtı kəndi, Kəngərli), *Qır məhəllasi* (Vayxır kəndi, Babək), *Qumqala məhəlləsi, Qırmızı torpaq məhəl-*

*ləsi* (Nehrəm kəndi, Babək), *Şorannıx məhəlləsi* (Cəhri kəndi, Babək), *Qayalı məhəllə* (Nəzərabad kəndi, Babək) və s. kimi onomastik vahidlərlə xarakterizə olunur.

**Peşə, sənət və məşğuliyyətə görə verilən adlar.** Naxçıvan urbanonimlərinin təhlili göstərir ki, qədim zamanlarda bölgənin şəhər və kəndlərində fəaliyyət göstərən memarlar, dülgərlər, bənnalar, dulusçular, dəmirçilər, toxucular, dabbaqlar, bəzzazlar, başmaqçılar, həkkaklar, xalçaçılar, zərgərlər, boyaqçılar müxtəlif məhəllələrdə yaşadıqları üçün məhəllələr də həmin sənət və peşə sahiblərinin adı ilə adlandırılmışdır. Belə məhəllə və meydan adlarının öyrənilməsi xalqımızın etnoqrafiya tarixinin tədqiqi üçün zəngin materiallar verir. Məsələn: *Dabbaqxana məhəlləsi, Sallaqxana məhəlləsi* (Naxçıvan şəhəri), *Çərçi küçəsi* (Cəhri kəndi, Babək), *Dəlləklər məhəlləsi* (Zeyvə və Şəhriyar kəndləri, Şərur), *Dəlləkli məhəllə* (Mahmudoba kəndi, Şahbuz), *Ovçular məhəlləsi* (Dizə kəndi, Şərur), *Keçəçi məhəlləsi* (Biləv kəndi, Ordubad), *Dəvəli məhəlləsi* (Zeyvə kəndi, Şərur), *Dəvəlilər məhəlləsi* (Axəməd kəndi, Şərur), *Dəyirman məhəlləsi* (Azad kəndi, Ordubad), *Karxana məhəlləsi* (Dəstə kəndi, Ordubad), *Qalayçı məhəlləsi* (Dırnıs kəndi, Ordubad), *Qalayçılar məhəlləsi* (Sədərək) və s. kimi məhəllə və meydan adları əhalinin peşə, sənət və məşğuliyyəti ilə bağlı yaranmış adlardır.

**Əhalinin sosial həyatı, artımı ilə bağlı verilən adlar.** Belə adlar yeni salınmış *Təzə məhəllə* (Çərçiboğan və İbadulla kəndləri, Şərur; Sirab kəndi, Babək), və *Zavod məhəlləsi* adlarında əksini tapsa da, kəmiyyətcə azlıq təşkil edir.

**İctimai-siyasi xarakterli urbanonimlər.** Tədqiq olunan ərazidə belə xüsusi adların yaranması 1920-ci illərdən sonraya aiddir. 1923-cü ildə Naxçıvan şəhərində qeydə alınmış *Oktyabr, Dekabr, İnternosional, 1 May, Komsomol, Pioner, Krasnaya,* və s. kimi onlarca küçə adı bu qəbildəndir **(53).** Özündə o dövrün yeni quruluşunu əks etdirən bu adların bir

qismi 1990-cı illərə qədər dövriyyədə olmuş və tədricən sıradan çıxmışdır.

Naxçıvan toponimiyasında 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktının baş verdiyi hadisə ilə bağlı verilmiş *20 Yanvar* küçə adı, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan vətən oğullarının adının əbədiləşdirilməsi münasibətilə verilmiş *Şəhidlər xiyabanı, Şəhidlər küçə* adları, Azərbaycanın Respublika Günü şərəfinə verilmiş 28 May küçə adları istimai-siyasi xarakterli toponimlərdir.

Onu da qeyd edək ki, Naxçıvan ərazisində tərkib etibarı ilə müxtəlif, leksik-semantik cəhətdən açıqlana bilməyən, amma onomastik leksikamızın zənginləşməsində iştirak edən bir qisim məhəllə və meydan adları vardır ki, onları konkret adla qruplaşdırmaq çətinlik törədir. Məsələn: *Sincəlan məhəlləsi, Peci məhəlləsi, Mehrəmcə məhəlləsi* (Ordubad şəhəri), *Alqun məhəlləsi* (Üstüpü kəndi, Ordubad), *Rəzgə məhəlləsi* (Biləv kəndi, Ordubad), *Hindizon məhəlləsi* (Kolanı kəndi, Şahbuz; Cəlilkənd, Şərur), *Gilinges məhəlləsi* (Bənəniyar kəndi, Culfa), *Zəncəl məhəlləsi* (Yaycı kəndi, Culfa), *Keşirli məhəlləsi* (Sirab kəndi, Babək), *Acılı məhəlləsi* (Tənənəm kəndi, Şərur), *Necili məhəlləsi* (Püsyan kəndi, Şərur), *Heraman məhəlləsi* (Mahmudkənd, Şərur) və s.

Şübhəsiz ki, belə adların məna qruplarına ayrılması gələcək tədqiqatların qarşısında duran mühüm vəzifələrdəndir.

# NƏTİCƏ

Monoqrafiyada Naxçıvan ərazisindəki şəhərdaxili və kənddaxili topoqrafik obyekt adları tədqiqata cəlb olunmuş və aşağıdakı elmi nəticələrə gəlinmişdir:

1.Dünyanın bütün şəhər, qəsəbə və kəndlərində olduğu kimi Naxçıvanın inzibati ərazi vahidinə daxil olan yaşayış məntəqələrində əhalinin artımı, qohumluq prinsipləri, patronimik (tayfa, nəsil, qəbilə və s.) ailələrin bir ərazidə yaşaması nəticəsində xeyli miqdarda məhəllə, meydan və küçələr formalaşmış və onlara xalqın adət-ənənəsi, təfəkkür dünyası, düşüncə tərzi, sosial-iqtisadi vəziyyəti, təsərrüfat və mədəni həyatı ilə bağlı adlar verilmişdir. Bu adlar xalqımızın keçmişindən yadigar qalan mənəvi sərvət kimi zəngin leksik mənaya, semantik tutuma, tarixi informasiya yükünə malikdir.

2. Məhəllə və meydan adları yaşayış məntəqələrinə daxil olan onomastik vahidlərin ayrıca bir layı, şəhər və kəndin mövcudluğunu və inkişafını, plan və relyef quruluşunu, müasir simasını, əhalinin etnik tərkibini, peşə, sənət və məşğuliyyət sahələrini, sosial, iqtisadi və mədəni həyatını əks etdirən abidələrdir. Bu abidələrin əsas fondunu Azərbaycan (türk) mənşəli adlar təşkil edir.

3.Tədqiqat nəticəsində məlum olur ki, urbanonimlər birdənbirə yaranmamış, şəhər və kəndlərin sayı artdıqca, məhəllə və meydanların da sayı çoxalmış, topoqrafik adlar əsrlərdən keçib günümüzə qədər gəlib çatmışdır. Onların bir qisminin yaşı 400-500, bir qisminin yaşı isə min illərlə ölçülür. Bu adların xeyli qismi qədim mənbələr, arxiv sənədləri, müxtəlif, diplomat, tacir və səyyahların yol qeydlərində, az qismi isə xalqın yaddaşında yaşayır. Ancaq onların unudulanı, tarixin dolaylarında itib batanı da olmuşdur.

4.Tədqiqat prosesində müxtəlif mənbə və qaynaqlardan (arxiv materialları, yol qeydləri və digər mənbələr) xeyli yeni urba

nonimlər aşkara çıxarılmışdır. Zəngin dil materialları nümayiş etdirən bu mikrotoponimlər tarixi baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu adların mənşəyinə üz tutub tarixin dərinliklərinə getdikcə bir daha inanırsan ki, bu torpağın, bu yurdun sahibi azərbaycanlılar olmuşdur. Odur ki, urbanonimlər tariximizi, milli ünvanımızı yaşadan daş kitabələrdir.

5. Son 400 ildən artıq bir dövrü əhatə edən tədqiqat sübut edir ki, Naxçıvan ərazisindəki urbanonimlər məna və məzmununa, fonetik, leksik, semantik və qrammatik əlamətlərinə, dil mənsubiyyətinə, tarixi informasiya yükünə, elmi, mədəni əlamətlərinə görə qiymətli faktlarla zəngindir.

a) 1590-cı ildə qeydə alınmış məhəllə və meydan adları ilə bu günümüz arasında yüzilliklər dursa da, mikrotoponimlərin bir çoxu bu gün də yaşamaqdadır. Məsələn, Künbəz, Şahab, Qala (Naxçıvan şəhəri), Mingis, Ambaras, Kürdətal, Sərşəhər (Ordubad şəhəri) kimi məhəllə adları hələ də özünü qoruyub saxlamaqdadır.

b) Məhəllə və meydan adlarının verilməsində məhəllənin əsasını qoyan, tayfa ağsaqqallarının adları mühüm yer tutmuş, əksər şəhər və kəndlərdə antroponim mənşəli coğrafi adlara üstünlük verilmişdir.

c) Məhəllə və meydan adlarının verilməsində əsas yerlərdən birini qədim Azərbaycan-türk tayfa və tayfa birləşmələrinin adları təşkil etmiş, Naxçıvan şəhərində Kəngərli, Bilici, Əlixanlı, Gomayıl, Şahab və digər məhəllə adları Kəngərlilərə məxsus nəsil, tirə adları əsasında yaranmışdır. Digər yaşayış məntəqələrində qeydə alınmış Bayat, Bəydili, Qarahindilər, Avçılar, Qurdlar və s. kimi məhəllə və meydan adlarının mənşəyi də eyniadlı etnoslarla bağlıdır.

ç) Atabəylər məhəllə (Naxçıvan şəhəri) adı qədim tarixə malikdir. Bu coğrafi ad Azərbaycanda Eldənizlər sülaləsinin idarə etdiyi Atabəylər dövlətinin adı ilə bağlı verilmişdir.

d) Bölgədə Çaparxanlı, Cıdıllı, Dabbaqxana, Dəmirçilər, Dəvəlillər, Dəlləklər, Sallaqxana kimi məhəllə adlarının mənşəyi əhalinin peşə, sənət və məşğuliyyəti ilə bağlı yaranmışıdr.

e) Naxçıvanın yaşayış məntəqələrində XX əsrin 20-ci illərinə qədər məhəllə adları daha çox işlənmiş, sonra prospekt və küçə adlarının verilməsi üstünlük təşkil etmişdir.

ə) Müasir dövrdə prospekt və küçə adlarının verilməsində görkəmli dövlət, ictimai-siyasi, elm və mədəniyyət xadimləri, Azərbaycanın Milli Qəhrəmanları, Sovet İttifaqı Qəhrəmanları, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş oğul və qızlarımızın adlarının verilməsi əsas yerlərdən birini tutmuşdur.

6. Son 15-20 ildə Naxçıvan Muxtar Respublikasının dayanıqlı inkişaf mövqeyinə çıxması nəticəsində qəsəbə və kəndlərin sosial, iqtisadi durumu, tikinti-quruculuq işlərinin vüsət alması, mədəni səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış kənd mərkəzlərinin adlarının da dilin leksik fonduna daxil edilməsi urbanonimlərin yeni adlar hesabına zənginləşdirilməsinə səbəb olmuşdur.

Gələcəkdə urbanonimlərin daha ətraflı tədqiqini, topoqrafik adların verilməsində müəyyən prinsiplərin gözlənilməsini, yerli şəraitə uyğun seçilməsini nəzərə alaraq bəzi tövsiyə və təkliflərimizi də bildirmək istərdik:

1. Azərbaycanın digər şəhər və kəndlərində əksini tapan məhəllə və meydan adlarını toplayıb qruplaşdırmaq və elmi-linqvistik tədqiqata cəlb etmək problemin həlli istiqamətində mühüm əhəmiyyət kəsb edir. Azərbaycan onomastikası üçün faydalı olar.

2. Azərbaycan dilində ümumi onomalogiyaya dair dərslik, dərs vəsaiti, lüğət və ensiklopediyaların hazırlanması, ali məktəblərin tarix, filologiya və coğrafiya fakultələrində mühazirə və seminarların öyrənilməsində Naxçıvan toponimlərindən istifadə edilməsi ümumi onomastikanın xeyrinə olar.

3.Urbanonimlərin tədqiqi elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün çox əhəmiyyətlidir. Odur ki, onların tədqiqi və toplanılıb nəşr olunması qədim məxəz kimi çox qiymətli olar.

4. Topoqrafik adlar tarixi və mədəni əhəmiyyət kəsb edir, aid olduğu şəhərin və ya kəndin simasını əks etdirir. Bu adlar dil materialına, onomastik vahidə çevrilir, ünvanlara yazılır, dövlət tərəfindən sənədləşdirilir. Odur ki, hər bir adı əbədiləşdirməyə, xüsusi ünvana çevirməyə ehtiyac yoxdur. Məhəllə, xiyaban, prospekt və küçələrə ad verərkən mənasız və qondarma adlardan uzaq olmalı, adın yerli və milli xarakteri, şəxsin kimliyi, xalq və cəmiyyət qarşısındakı xidmətləri nəzərə alınmalı, xalqın tarixinə, elm və mədəniyyətinə nüfuz edən şəxslərin adlarının verilməsinə diqqət etmək işə müsbət təsir göstərə bilər.

5. Topoqrafik obyekt adları sabit qalmalı, tez-tez dəyişdirilməməlidir. Əhali yaşadığı məhəllə, prospekt və küçənin niyə belə adlandırıldığını, kimin adını daşıdığını bilməlidir. Çünki hər bir insanda doğma şəhərə, elə-obaya, torpağa, Vətənə məhəbbət yaşadığı küçədən, döngədən başlayır. İnsan yaşadığı məhəlləni və küçəni heç zaman unutmur, köçüb getdiyi digər şəhər və ölkələrdə uşaqlığı keçən məhələ və küçəni, yaşadığı ünvanı yaddan çıxarmır. Onun yaşadığı ünvan şəxsiyyət vəsiqəsində əksini tapır.

6. Urbanonimlərin linqvistik xüsusiyyətləri haqqında magistr, doktorant və dissertantlara ayrılıqda tədqiqat işi verilsə, urbanonimlərin öyrənilməsi problemlərinə aydınlıq gətirilə bilər.

7. Arzu edərdik ki, şəhər, qəsəbə və kəndlərdə mövcud olan məhəllə, meydan, xiyaban, prospekt və küçə adları müvafiq lövhələrdə əksini tapsın, orfoqrafik cəhətdən düzgün yazılsın, ədəbi dilin norma və qaydalarına uyğun tələffüz olunsun və s.

## QISA URBANONİMLƏR SÖZLÜYÜ

| | |
|---|---|
| Abasəlilər məhəlləsi | - Xələc kəndi (Şərur) |
| Abşeron məhəlləsi | - Nehrəm kənd (Babək |
| Acılı məhəlləsi | - Tənənəm kəndi (Şərur) |
| Alqun mhəlləsi | - Üstüpü kəndi (Ordubad) |
| Alı məhəlləsi | - Qarxun kəndi (Şərur) |
| Alıbabalı məhəlləsi | - Mahmudkənd (Şərur) |
| Ambar məhəlləsi | - Naxçıvan şəhəri |
| Ambaras məhəlləsi | - Ordubad şəhəri |
| Ara məhəllə | - Dəstə kəndi (Ordubad) |
| Arzular məhəlləsi | - Zeyvə kəndi (Şərur) |
| Asnı məhəlləsi | - Sədərək kəndi (Sədərək) |
| Asnı məhəlləsi | - Tənənəm kəndi (Şərur) |
| Asnı məhəlləsi | - Sirab kəndi (Babək) |
| Assorular məhəlləsi | - Havuş kəndi (Şərur) |
| Aşağı məhəllə | - Qaraxanbəyli kəndi (Nax.ş.) |
| Aşağı məhəllə | - Aşağı Əyls kəndi(Ordubad) |
| Aşağı məhəllə | - Nüsnüs kəndi (Ordubad) |
| Aşağı məhəllə | - Behrud kəndi (Ordubad) |
| Aşağı məhəllə | - Tivi kəndi (Ordubad) |
| Aşağı məhəllə | - Gilançay kəndi (Ordubad) |
| Aşağı məhəllə | - Şəhriyar kəndi (Şərur) |
| Aşağı məhəllə | - Alışar kəndi (Şərur) |
| Aşağı məhəllə | - Çərçiboğan kəndi (Şərur) |
